AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

TƏHSİL İNSTİTUTU
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: İbtidai sinif müəllimliyi



# ÖYRƏNMƏ FƏALİYYƏTİ ÜÇÜN MÜNBİT ŞƏRAİTİN YARADILMASI

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəlliflər:** İlham Cavadov, Şəfa Kazımova

**Modul üzrə məsləhətçi:** Mehparə Əhmədova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT

**ƏSAS ANLAYIŞLAR** ........ **7**

**GİRİŞ** ........ **8**

**MODULUN SPESİFİKASİYASI** ........ **9**

**TƏLİM NƏTİCƏSİ 1: ÖYRƏDİCİ MÜHİT YARATMAQ** ........ **11**

1.1. Dəstəkləyici təlim mühitinin yaradılması haqqında məlumat verir ........ 12

1.1.1. Dəstəkləyici təlim mühitinin yaradılması ........ 12

1.1.2. Dəstəkləyici təlim mühitinin mahiyyəti ........ 12

1.1.3. Tədris müəssisəsində dəstəkləyici təlim mühitinin yaradılmasının şərtləri ........ 15

1.1.4. Dəstəkləyici təlim mühitinin növləri ........ 19

1.1.5. Dəstəkləyici mühitin yaradılmasında qiymət amili ........ 23

Tələbələr üçün fəaliyyətlər ........ 28

Qiymətləndirmə ........ 29

1.2. Uşaqların meyil, maraq və qabiliyyətlərini inkişaf etdirən mühitin yaradılmasının vacibliyini əsaslandırır ........ 30

1.2.1. Meyil, maraq və qabiliyyətləri inkişaf etdirən mühitin yaradılması ........ 30

1.2.2. İbtidai sinif şagirdlərinin meyil, maraq və qabiliyyətləri və ona uyğun dəstəkləmə formaları ........ 30

1.2.3. Müəllim və şagirdlər arasında əməkdaşlıq və müsbət psixoloji iqlim ........ 34

1.2.4. Təlimdə geri qalan şagirdlərin və istedadlı şagirdlərin fərqli dəstəklənmə yolları ........ 39

1.2.5. İnkişafetdirici tapşırıqlar vasitəsilə şagirdlərin dəstəklənməsi ........ 44

1.2.6. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün dəstəkləyici mühitin yaradılması ........ 49

Tələbələr üçün fəaliyyətlər ........ 56

Qiymətləndirmə ........ 57

1.3. Təlim üçün zəruri resursları hazırlayır ........ 58

1.3.1. Təlim üçün zəruri resurslar ........ 58

1.3.2. Təlim üçün zəruri resurslar: əyani və texnoloji vasitələr ........ 58

1.3.3. Sinif üçün əyani vəsaitlərin hazırlanması yolları ........ 71

Tələbələr üçün fəaliyyətlər ........ 78

Qiymətləndirmə ........ 79

**TƏLİM NƏTİCƏSİ 2: TƏHLÜKƏSİZ TƏLİM MÜHİTİNİ YARATMAQ .................................... 81**
2.1. Sinif avadanlıqlarının təhlükəsiz şəkildə təşkilini izah edir ........................................... 82
2.1.1. Sinif avadanlıqlarının təhlükəsiz təşkili ........................................................................ 82
2.1.2. Sinfin təhlükəsiz təşkil olunması formaları ................................................................... 82
Tələbələr üçün fəaliyyətlər ........................................................................................................ 88
Qiymətləndirmə ........................................................................................................................... 89
2.2. Uşaqların sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını şərh edir ................. 90
2.2.1. Sinif avadanlıqlarının təhlükəsiz istifadə qaydaları ...................................................... 90
Tələbələr üçün fəaliyyətlər ........................................................................................................ 93
Qiymətləndirmə ........................................................................................................................... 94
2.3. Sinif otağının təmizliyinə riayət olunması qaydalarını hazırlayır .................................... 95
2.3.1. Təmizlik qaydaları ............................................................................................................ 95
2.3.2. Sinif otağının təmizliyi ..................................................................................................... 95
Tələbələr üçün fəaliyyətlər ........................................................................................................ 99
Qiymətləndirmə ......................................................................................................................... 100
2.4. Uşaqların özünəxidmət bacarıqlarını formalaşdırmaq və onların sərbəstliyini dəstəkləmək üçün müvafiq metodlar (öyrədici məşğələ, oyunlar və s.) tətbiq edir ........ 101
2.4.1. Özünəxidmət bacarıqlarını formalaşdırmaq üçün müvafiq metodlar .................... 101
2.4.2. Şagirdlərin özünəxidmət bacarıqlarının formalaşdırılması ....................................... 101
Tələbələr üçün fəaliyyətlər ...................................................................................................... 105
Qiymətləndirmə ......................................................................................................................... 106
**ƏDƏBİYYAT SİYAHISI ........................................................................................................... 107**

## ƏSAS ANLAYIŞLAR

**Akkomodasiya –** tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlim xarakterinin dəyişməsi.

**Dərsdənkənar təlim mühiti –** müxtəlif yerli qurumlar (muzeylər, parklar, şəhər yerləri, şirkətlər, tarixi abidələr və s.) və ya landşaftlardan (meşələr, bağlar, dağlar) tədqiqat və ekskursiya səfərləri, təlim üçün səyahətlər, öyrənmə və öyrənməni dəstəkləyən təlim mühiti.

**Dəstəkləyici təlim mühiti –** şagirdlərin idraki, emosional və fiziki cəhətdən inkişafının təmin edilməsinə yönələn təlim mühiti.

**Didaktik mühit –** təhsilalanların inkişafını təmin edən, onların nəzəri və praktik bacarıqlara yiyələnməsini şərtləndirən vəsaitlər.

**Fiziki təlim mühiti –** müəyyən bir sinif otağının və onun tədris materiallarının ümumi dizayn və tərtibatı (əsasən maddi resursları).

**İnklüziv təhsil –** ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf və təhsil prosesi.

**İş vərəqi** - keçilmiş mövzu üzrə tapşırıqların şərti və məzmunu əks olunan vərəqlər.

**Modifikasiya –** tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlim xarakterinin dəyişməsi.

**Müsbət təlim mühiti –** şagirdlər üçün səmərəli və öyrədici imkanların təşkil olunduğu, tədris materialının şagirdyönlü və inkişafetdirici şəkildə tərtib olunduğu, uşaq hüquqlarının tapdalanmadığı və bütün fəaliyyətlərin nizamlı və məqsədəuyğun təşkil edildiyi mühit.

**Öyrənmə (təlim) fəaliyyəti –** təhsilalanların tədris yolu ilə nəzəri və praktik bacarıqlara yiyələnməsində aparıcı rol oynayan fəaliyyət növü.

**Resurs –** hər hansı sahədə (iqtisadi, siyasi, təbiət, elm, informatika və s.) mövcud olan ehtiyat bazası, istifadə edilməsi mümkün imkanlar, mənbələr.

**Sosial mühit –** təhsilalanı əhatə edən ətraf aləm, mikromühit və makromühit.

**Texnoloji təlim mühiti –** tədris zamanı istifadə olunan texniki alət və avadanlıqlar.

**Təlim mühiti –** şagirdlərin müxtəlif duyğu vasitələri ilə (görmə, eşitmə, dadbilmə, iybilmə və lamisə) öyrəndiyi müxtəlif fiziki yerlər, kontekstlər və mədəniyyətlər.

**Təlimdə geri qalma –** şagirdlərin fiziki, idraki və emosional cəhətdən təlimdə yetirməməsi, eləcə də bioloji və pedaqoji-psixoloji normadan geri qalması.

**Valeoloji təhsil və tərbiyə –** təhsilalanlara sağlamlığa olan tələbat, sağlam həyat tərzi və onların elmi anlamının başa salınması, sağlam həyat tərzinin aşılanması.

# GİRİŞ

Müasir İnformasiya Cəmiyyətinin tələblərindən biri öyrənənlərin meyil, maraq və istəklərinə uyğun təlim mühiti yaratmaqdan ibarətdir. Təlim innovativ fəaliyyətdir. Bu fəaliyyət tələb edir ki, şagirdləri əhatə edən mühit bütövlükdə öyrədici şəkildə təşkil edilsin. Öyrənmə fəaliyyəti üçün münbit şəraitin yaradılması ibtidai sinif müəllimindən peşəkar bacarıq tələb edir. Məktəbdə, sinif daxilində əşyalar, öyrədici vasitələr elə düzülməli, elə tərtib edilməlidir ki, şagirdlərə mane olmasın, eyni zamanda əlavə öyrənmə marağı yaratsın. Şagirdlər yalnız kitablardan öyrənmir, öyrənmə mühiti anlayışına fiziki mühit, psixoloji mühit, pedaqoji mühit anlayışları da daxildir və mühitin düzgün təşkili öyrənmədə və tədrisdə yüksək nailiyyətlər əldə edilməsinə gətirib çıxarır.

Modul ibtidai təhsil səviyyəsində öyrədici təlim mühitinin yaradılmasını və dəstəkləyici təlim mühiti anlayışını geniş şəkildə izah edir.

Bu modul 2 təlim nəticəsi və həmin nəticələri özündə ehtiva edən 7 qiymətləndirmə meyarından ibarətdir. Hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmış, verilən məzmunun möhkəmləndirilməsi üçün "Tələbələr üçün fəaliyyətlər" və təhsilalanın məzmunu hansı səviyyədə qavradığını qiymətləndirmək üçün "Qiymətləndirmə" bölməsi verilmişdir.

Birinci təlim nəticəsində dəstəkləyici təlim mühitinin yaradılması haqqında nəzəri məlumatlar, uşaqların meyil, maraq və qabiliyyətlərini inkişaf etdirən mühitin yaradılması yolları və təlim üçün zəruri resursların hazırlanması ətraflı şəkildə izah edilir. Öyrədici mühit düzgün təşkil edilərsə, şagirdlər nəzəri məlumatlarla yüklənməz və onlarda həyati bacarıqlar formalaşar. Həyati bacarıqları formalaşan şagirdlər problemlərini həll etməyi, düzgün qərar qəbul etməyi və həyatda sərbəst şəxsiyyət kimi fəaliyyət göstərməyi bacarırlar.

İkinci təlim nəticəsində təhlükəsiz təlim mühitinin yaradılması, sinif otağındakı avadanlıqların təhlükəsiz şəkildə təşkili, uşaqların sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarına yiyələnməsi, sinif otağının təmizliyinə riayət olunması qaydalarının hazırlanması və şagirdlərlə birlikdə tətbiq edilməsi, şagirdlərin özünəxidmət bacarıqlarını formalaşdırmaq və onların sərbəstliyini dəstəkləmək üçün müvafiq metodlar (öyrədici məşğələ, oyunlar və s.) ətraflı şəkildə təqdim olunmuşdur.

İbtidai sinif müəllimi yuxarıda göstərilən bacarıqlara yiyələnməklə əmək bazarının və cəmiyyətin tələblərinə uyğun peşəkar mütəxəssis kimi formalaşa bilər. Təcrübi bacarıqları daha çox özündə cəmləşdirən bu modul müəllimlərə əmək fəaliyyətinə başlayan zaman öz işlərini daha sistemli və səmərəli qurmağa kömək edəcəkdir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası sizə təqdim edilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

# MODULUN SPESİFİKASİYASI

| | |
|---|---|
| **Modulun adı:** | Öyrənmə fəaliyyəti üçün münbit şəraitin yaradılması |
| **Modulun kodu:** | SS-2020-14 |
| **Modulun ümumi məqsədi:** | *Bu modulu tamamladıqdan sonra təhsilalan təlim üçün zəruri resurslardan istifadə edərək uşaqların meyil, maraq və qabiliyyətlərinin inkişaf etdirilməsi və sinif otaqlarındakı alət və avadanlıqlardan təhlükəsiz şəkildə istifadəsi üçün öyrədici və təhlükəsiz mühit yaratmağı bacaracaqdır.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Öyrədici mühit yaratmaq | 1. Dəstəkləyici təlim mühitinin yaradılması haqqında məlumat verir;<br>2. Uşaqların meyil, maraq və qabiliyyətlərini inkişaf etdirən mühitin yaradılmasının vacibliyini əsaslandırır;<br>3. Təlim üçün zəruri resursları hazırlayır. |
| 2. Təhlükəsiz təlim mühitini yaratmaq | 1. Sinif avadanlıqlarının təhlükəsiz şəkildə təşkilini izah edir;<br>2. Uşaqların sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını şərh edir;<br>3. Sinif otağının təmizliyinə riayət olunması qaydalarını hazırlayır;<br>4. Uşaqların özünəxidmət bacarıqlarını formalaşdırmaq və onların sərbəstliyini dəstəkləmək üçün müvafiq metodlar (öyrədici məşğələ və oyunlar və s.) tətbiq edir. |

# TƏLİM NƏTİCƏSİ 1

## ÖYRƏDİCİ MÜHİT YARATMAQ

## 1.1. Dəstəkləyici təlim mühitinin yaradılması haqqında məlumat verir

### 1.1.1. Dəstəkləyici təlim mühitinin yaradılması

Təhsil fəaliyyətinin düzgün qurulması üçün tədris müəssisələrində dəstəkləyici mühitin yaradılması vacibdir. Dəstəkləyici mühiti yaratmaq dərsdə istifadə olunacaq əşyaların kor-koranə toplanması və məqsədsiz istifadəsi demək deyildir. Bu mühiti yaradarkən müəllimlər müəyyən qaydalara əməl etməli və dəstəkləyici mühiti yaratmaq üçün nələrin lazım olduğunu bilməlidirlər.

Dəstəkləyici mühitin yaradılması şagirdlərin daha səmərəli öyrənmə fəaliyyətinin təmin olunması deməkdir. Dəstəkləyici mühit yaradılarkən bütün təhsil işçiləri, valideynlər, psixoloqlar bu sahədə öz səylərini birləşdirməli və şagirdlər üçün ən optimal mühiti təşkil etməlidirlər. Şagirdin öyrənmə fəaliyyətinin təmin olunması üçün sinif daxilindəki hər bir əşya və sinif avadanlıqlarının düzülüşü mütəxəssis (ibtidai sinif müəllimi) tərəfindən gözdən keçirilir və hər bir şey şagirdin öyrənməsi üçün təşkil olunur. Öyrədici mühitin yaradılmasında ibtidai sinif müəllimi əhəmiyyətli rola malikdir. Dərs zamanı istifadə olunan bütün vasitələr müəllim tərəfindən seçilir və sinfin istifadəsinə uyğunlaşdırılır.

Öyrədici mühitin yaradılması təmin olunmayanda şagirdlərin öyrənmədə əldə etdikləri nailiyyətlər arzu olunan səviyyədə olmur. Dəstəkləyici mühit şagirdin öyrəndiklərini tətbiq etməsinə imkan yaradır. Müasir təhsil sisteminin, cəmiyyətin və əlbəttə ki, fərdin özünün tələblərinə, meyil, marağına uyğun olaraq öyrədici mühitin yaradılması imkan verir ki, təhsil standartları düzgün reallaşdırılsın.

### 1.1.2. Dəstəkləyici təlim mühitinin mahiyyəti

Təlim mühiti dedikdə, şagirdlərin müxtəlif duyğu vasitələri ilə (görmə, eşitmə, dadbilmə, iybilmə və lamisə) öyrəndiyi müxtəlif fiziki yerlər, kontekstlər və mədəniyyətlər başa düşülür. Şagirdlər yalnız məktəb daxilində deyil, məktəb xaricindəki yerlər, açıq hava mühitləri kimi müxtəlif parametrlərdən, eləcə də onları əhatə edən hər şeydən öyrənə bildikləri üçün bu termin daha çox məhdud və ənənəvi bir otağa, yəni sinif otağı və məktəbə aid edilir.

Təlim mühiti anlayışında öz xüsusiyyətləri və səmərəliliyi ilə seçilən dəstəkləyici təlim mühiti anlayışı da vardır ki, onun təşkil olunması şagirdin öyrənmə fəaliyyətində daha yüksək nailiyyətlər əldə etməsinə səbəb olur. İstənilən tədris resursu, əşyavi mühit, sinifdəki bütün elementlər mühit anlayışıdır. Lakin dəstəkləyici təlim mühiti dedikdə, sinifdə mövcud olan bütün əşyaların və münasibət sisteminin şagirdlərin meyil, maraq və istəklərinə uyğunlaşdırılması nəzərdə tutulur (Şəkil 1.1).



**Şəkil 1.1. Dəstəkləyici təlim mühiti təşkil olunmuş sinif**

Dəstəkləyici təlim mühiti şagirdin sinif daxilindəki bütün fəaliyyətlərini əhatə edən anlayışdır. Sadəcə şagirdin fəaliyyətləri deyil, bu fəaliyyətə təsir edən müsbət və mənfi amillər də dəstəkləyici təlim mühiti anlayışına aiddir. Məsələn, günəş işığı ilə yaxşı qidalanan sinif otağında şagirdlərin təfəkkürünün stimullaşması və tədris materiallarının mənimsənilməsi üçün daha əlverişli şərait yaranır. Pəncərəsiz və ya dekorasiyası pis, resursları olmayan, şagirdə qarşı zorakı və qanunsuz fəaliyyət nümayiş etdirilən yerlərdə isə şagirdlərin hansısa bilik və bacarığı normal öyrənməsi mümkün deyildir (Şəkil 1.2).



**Şəkil 1.2. Elektron vəsaitlərlə təmin edilmiş sinif otağı**

Dəstəkləyici təlim mühiti ümumi olaraq özündə əsas iki anlayışı əhatə edir. Bunlardan biri "müsbət təlim mühiti", ikincisi isə "mənfi təlim mühiti" anlayışlarıdır.



**Şəkil 1.3. İşıqlı və təmirli sinif otağı**

Müsbət təlim mühiti, şagirdlər üçün səmərəli, öyrədici imkanların təşkil olunduğu, tədris materialının şagirdyönlü və inkişafetdirici şəkildə tərtib olunduğu, uşaq hüquqlarının tapdalanmadığı, bütün fəaliyyətlərin nizamlı və məqsədəuyğun təşkil edildiyi mühitdir. Müsbət təlim mühiti şagirdlərin təfəkkürünün fiziki, əqli və mənəvi cəhətdən inkişaf etməsi üçün real imkanlar yaradan mühitdir (Şəkil 1.3).

Mənfi təlim mühitinə hər şeydən öncə uşaq haqlarının tapdalanması ilə müşayiət olunan, mənfi psixoloji münasibətin hökm sürdüyü və resurs cəhətdən az təmin olunan məktəblərdə yaranan mühiti aid etmək olar. Bu həm də şagirdlərin dəstəklənməsinin, onların təfəkkürünün stimullaşdırılmasının qarşısını alır. Şagirdlərin təlimdə geri qalmalarına, nailiyyətlərinin aşağı düşməsinə gətirib çıxarır.

Dəstəkləyici təlim mühitinin təşkil olunmasına əsas yanaşma aşağıdakılardan ibarətdir:

- Bilik prosesinə müsbət münasibət, yeni biliklərin aşkar edilməsi, mənimsənilməsi və tətbiqi üçün münasib şəraitin yaradılması;
- Şagirdin bilik əldə etmək, ünsiyyətdə, qarşılıqlı əlaqədə olmaq və əməkdaşlıq etmək imkanlarını genişləndirmək;
- Şəxsiyyətin inkişafı üçün imkanları artırmaq.

Dəstəkləyici təlim mühiti elə təşkil olunmalıdır ki, tədrisin real həyatla əlaqəsi başa düşülsün, şagirdlər həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb

olunsun, müxtəlif informasiya mənbələrindən istifadə edə bilsin, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artıra bilsin.

Təlimin məhsuldarlığının ciddi artımını nə vaxt gözləmək olar? İlk növbədə ətraf mühit şagirddə canlı maraq oyatmalı, onu aktiv əməyə, axtarışa və kəşfə sövq etməlidir. Bu zaman onun tədris fəaliyyəti fiziki və psixoloji cəhətdən yüngülləşir və səmərəli təşkil olunur.

Dəstəkləyici təlim mühiti çeviklik və interaktivlik keyfiyyətlərinə malik olmalıdır. Təlim prosesi bütün şagirdlərin əməkdaşlığına imkan yaratmalıdır. Şagird üçün dəstəkləyici təlim mühitinin yaradılması o deməkdir ki, mühit ona açıq sual verməyi, problemləri araşdırmağı, tədqiqat aparmağı və müzakirə etməyi dəstəkləyir.

Dəstəkləyici təlim mühiti şagirdlərin təfəkkür, sosial, emosional, fiziki və yaradıcı inkişafına böyük təsir göstərir. Müəllimlər fiziki və psixoloji baxımdan təhlükəsiz və həvəsləndirici mühit yaradaraq şagirdlərin müstəqil və qrup tədqiqatları aparmasına, oyunlar oynamasına və müxtəlif insanlarla, yəni şagird yoldaşları, müəllimlər və s. ünsiyyət qurmalarına nail olurlar.

Sinif otaqlarının tədqiqat laboratoriyaları kimi təşkil edilməsi şagirdlərə imkan verir ki, onlar müxtəlif rollarda: tədqiqatçı, aktyor, rəssam, inşaatçı, alim, müəllim, valideyn və s. kimi özlərini sınasınlar. Şagirdlər arasında tədqiqatların aparılması, yeniliklərin kəşf edilməsi və fikir mübadiləsinin həyata keçirilməsi üçün dəstəkləyici təlim mühitinin yaradılmasının məsuliyyəti müəllimlərin üzərinə düşür. Bu cür mühitdə müəllimin rolu şagirdlərin özünü ifadə etməsini dəstəkləmək, onlara nailiyyət qazanmaq üçün yeni imkanlar açmaq və cəmiyyətə faydalı olan davranış və şəxsi keyfiyyətləri formalaşdırmaq üçün münbit şərait yaratmaqdan ibarətdir (Sxem 1.1).

-

- Şagirdlər müəllimlərdən daha çox sual verir
- Suallar cavablardan daha çox düşünməyə vadar edir
- İdeyaların və fikirlərin mənbəyi müxtəlifdir

-

- Müxtəlif təhsil modellərindən istifadə edilir
- Sinifdə müsbət əməkdaşlıq şəraiti qurulur
- Öyrənmə müxtəlif meyarlarla tənzimlənir

-

- Qiymətləndirmə şəffaf, etibarlı, həqiqidir və heç vaxt cəzalandırmanı nəzərdə tutmur
- Nailiyyətin meyarları müxtəlifdir, şəffafdır və ailələrin dəstəyi ilə təmin olunur
- Öyrənmə, öyrətmə və inkişaf üçün yaradıcı və dəstəkləyici imkanlar mövcuddur

**Sxem 1.1. Dəstəkləyici təlim mühiti yaradılmış sinif**

Dəstəkləyici təlim mühiti üçün əsas olan meyarlardan biri şagirdlərin meyil, maraq və istəklərinin, eləcə də onların fərdi istedadlarının (fiziki və əqli məhdudiyyətlərinin) nəzərə alınmasıdır. Şagirdə nəyi öyrədək? Necə öyrədək? Kim öyrətsin? Şagirdin necə öyrənməsi daha səmərəlidir? Əslində elə etmək lazımdır ki, öyrənmək şagird üçün rahat və maraqlı olsun. Buna görə şagirdyönümlülük prinsipi tam şəkildə gerçəkləşmədikcə və şagirdlərin marağına uyğun sinif otaqları təşkil olunmadıqca təlimdə keyfiyyət dəyişikliyinə nail olmaq indiki dövrdə mümkünsüz görünür. Şagird hansı şəraitdə, hansı məzmun üzərində, hansı sürətlə daha rahat və güvənli inkişaf edirsə, ona həmin şəraiti yaratmaq lazımdır. İnkişafı stimullaşdıran maraqdır. Marağı olmayan şagird inkişafa can atmayacaq. Şagirdləri maraqlandırmaq üçün onları öyrənmək lazımdır. Belə olan halda dəstəkləyici təlim mühitinin tələblərinə uyğun sinif otağının təşkili və şagird təfəkkürünün stimullaşdırılması müəllim üçün xüsusi peşəkar bacarıq kimi özünü göstərir.

### 1.1.3. Tədris müəssisəsində dəstəkləyici təlim mühitinin yaradılmasının şərtləri

Şagirdlərin öyrənmə fəaliyyətinin dəstəklənməsi mütəxəssislər qarşısında həll edilməsi vacib olan bir çox məqam və şərtlər qoyur. İbtidai sinif müəllimi öz sinfində dəstəkləyici təlim mühitini yaratmaq üçün həmin şərtlərə əməl etməlidir.

İbtidai sinif müəllimi tədris prosesində dəstəkləyici təlim mühitini yaratmaq üçün hər şeydən öncə aşağıdakı sualları özü üçün aydınlaşdırmalıdır:

- Nə öyrədirəm? (mövzu, məzmun);
- Nə üçün öyrədirəm? (hədəflər, məqsədlər);
- Necə öyrədəcəm? (üsullar, proses);
- Şagirdlər artıq nəyi bilir? (əvvəl öyrəndikləri, öncədən yoxlama sınağı);
- Şagirdlər nə edəcək? (fəaliyyətlər);
- Dərsi necə təşkil edəcəm? (fiziki və sosial mühitin təşkil olunması daxil olmaqla);
- Fəaliyyətlər bütün şagirdlərə uyğun olacaqmı?
- Şagirdlərin cüt və ya kiçik qruplarda işləmək imkanları olacaqmı?
- Şagirdlər etdiklərini necə qeydə alacaqlar? (təlim məhsulları, məsələn, tapşırıqlar);
- Şagirdlər nələri öyrəndilər? (rəy, qiymətləndirmə);
- Növbəti olaraq nə etməliyəm? (öyrənilənlərin əks etdirilməsi və gələcək planlaşdırma).

Yuxarıdakı sualları öz fəaliyyətində sistemləşdirən müəllim şagirdlər üçün dəstəkləyici və öyrədici təlim mühitini yarada və səmərəli təlim prosesini qura bilir. Dəstəkləyici təlim mühitinin yaradılmadığı sinif otağı şagirdlər üçün ən əlverişsiz məkan sayıla bilər. Amma düzgün planlaşdırılmış və sistemli şəkildə həyata keçirilən təlim fəaliyyəti şagirdlərə imkan verir ki, onlar öz bacarıqlarını sərbəst şəkildə nümayiş etdirsinlər və nailiyyət əldə etsinlər.

Dəstəkləyici təlim mühitinin yaradılmasında nəzərə alınması vacib məqamlar:

1. Şagirdlər və müəllimlər arasında qarşılıqlı hörmətə, əməkdaşlığa, qayğıya və

dəstəyə, hər bir şəxsiyyətə dəyər verilməsinə əsaslanan mədəniyyət və münasibət tərzi;

2. Müxtəlif formalarda və üsullarda tədris materiallarının təşkili və təmin olunması;
3. Şagird mərkəzli texnologiyaların tətbiqi, fəaliyyətin aktual və interaktiv formalarının həyata keçirilməsi;
4. Qruplarda, cütlərlə və fərdi məşğulluq formalarının istifadəsinə və müəyyən zamanlarda bütün siniflə layihələrin icra olunmasına şərait yaradılması;
5. Şagird üçün təhsil vəzifələrini və onların tətbiqetmə üsullarını seçmək imkanını təmin etmək;
6. Şagirdlərin yaradıcılığının aşkara çıxarılması üçün hər cür fürsətdən istifadə etməklə yaradıcı və dəstəkləyici mühitin yaradılması;
7. Yaradıcılıq tələb edən vəzifələrin istifadəsi, yaradıcılığı əhatə edən fəaliyyətlərin təşkili;
8. Şagird üçün müxtəlif fəaliyyətlərdə - təhsil, bədii, yaradıcı, idman, ictimai təcrübəyə malik olmaq üçün şərait yaradılması;
9. Təlimdə çətinliyi olan və istedadlı şagirdlər üçün fərqli tapşırıqlar sisteminin işlənməsi və onlara fərdi yanaşmanın təmin olunması;
10. İnkluziv təhsilin tələblərinə uyğun olaraq təlim materiallarının sağlamlıq imkanları məhdud olan şagirdlər üçün modifikasiya və akkomodasiyası;
11. Şagirdlərə fikrini sərbəst ifadə etmək və fəaliyyətini nümayiş etdirməsi üçün sahə yaratmaq (Şəkil 1.4).



**Şəkil 1.4. Şagirdlər üçün sərbəst fəaliyyət sahəsinin təşkili**

Dəstəkləyici mühitin yaradılmasını şərtləndirən bir sıra mühüm xüsusiyyətlər vardır:

1. Təhsilalanların meyil və bacarıqlarının nəzərə alınmasını təmin edən təhsil sistemi;
2. Şagirdlərin sağlamlığının müntəzəm diqqətdə saxlanılması;
3. Təlimin əyanilik prinsipinə əməl olunması;
4. Təhsilalanların meyil və bacarıqlarının nəzərə alınmasını təmin edən təhsil sistemi;
5. Ətraf mühitin öyrənilməsi və ekoloji mədəniyyətə malik şəxsiyyətin yetişdirilməsi;
6. Təhsilalanların cəmiyyətlə vəhdəti;
7. Müəllimlərin özünütəhsilinin fasiləsiz olaraq həyata keçirilməsi.

Təhsilalanların meyil və bacarıqlarının nəzərə alınmasını təmin edən təhsil sisteminin

qurulması şagirdin demokratik və sağlam düşüncəli vətəndaş kimi formalaşmasına kömək edir. Hər şagird öz istedad və qabiliyyətlərinə uyğun təhsil prosesi ilə təmin olunduqda cəmiyyətin mənəvi mühiti də sağlamlaşır, düzgün peşə seçimi və işini sevən mütəxəssislər yetişir.

Şagirdlərin sağlamlığının müntəzəm diqqətdə saxlanılması onların münbit öyrənmə şəraitinin təmin olunması deməkdir.

Dəstəkləyici təlim mühitinin səmərəli təşkil olunması üçün valeoloji təhsil və tərbiyə təmin olunmalıdır. Bunun üçün:

- Tibbi, valeoloji və gigiyenik biliklərin yayılması;
- İnsan orqanizmi və sağlığı ilə düzgün davranış bacarıqlarının inkişaf etdirilməsi;
- Şagirdlərin sağlamlıqla əlaqəli tədbirlərə cəlb olunması;
- Səhiyyə müəssisələri ilə əlaqələrin gücləndirilməsi;
- Sağlam həyat tərzinin formalaşması;
- Zərərli vərdişlərin insan orqanizminə ziyanı ilə bağlı maarifləndirici tədbirlərin təşkil olunması;
- Məktəblərin və ümumiyyətlə ictimai müəssisələrin tez-tez dezinfeksiya olunması və gigiyenik cəhətdən təmizlənməsi və s. həyata keçirilməsi vacib olan fəaliyyətlərdir.

Məktəblərdə valeoloji təhsil və tərbiyənin təşkil olunması üçün üç bir-birinə bağlı alt sistem (valeoloji savadlılıq, valeoloji yanaşma və məktəbdə və ekstremal vaxtda səhiyyə işlərinin yaxşılaşdırılması) yaratmaq təhsil prosesi üçün səmərəli nəticə verə bilər (Sxem 1.2).

**Valeoloji təhsil-tərbiyənin sistemi**

**Valeoloji savadlılıq**

- Müəllimlər və valideynlər arasında valeoloji məsələlərlə əlaqədar maarifləndirmə işləri aparmaq;
- Müəllimlərə ilkin tibbi yardım sahəsində biliklər vermək;
- Sağlamlıq, onu şərtləndirən amillər, sağlamlığı təmin etmə yolları barədə ictimaiyyəti məlumatlandırmaq.

**Valeoloji yanaşma**

- Şagirdlərin sağlamlıq məlumatlarına bələd olmaq;
- Təlim prosesində bütün fəaliyyətləri şagird sağlamlığının qorunmasına yönəltmək;
- Sağlam həyat tərzi, gigiyena qaydaları, zərərli vərdişlərin verəcəyi fəsad barədə şagirdləri mütəmadi olaraq məlumatlandırmaq.

**Məktəbdə və ekstremal vaxtda səhiyyə işlərinin yaxşılaşdırılması**

- Şagirdləri ümumi olaraq fövqəladə hallara hazırlamaq;
- Zəlzələ, sel, fırtına kimi təbiət hadisələri və onlardan qorunmaq yollarını uşaqlara başa salmaq;
- Düşmən hücumları zamanı özünümüdafiə və sığınacaqlardan istifadənin yollarını şagirdlərə öyrətmək.

**Sxem 1.2. Valeoloji təhsil-tərbiyə sistemi**

Təlimin əyanilik prinsipinə əməl olunması dəstəkləyici mühitin təşkil olunması üçün mühüm xüsusiyyətlərdən biridir. Əyani olaraq şagirdə təqdim olunan hər bir informasiya şagirdin yaddaşında daha çox qalır və audio-vizual vasitələrin birgə istifadəsi imkan verir ki, təfəkkür analitik formada inkişaf etsin. Təlimdə əyaniliyin qızıl qayda adlandırılması heç də təsadüfi deyildir. Əyani vəsaitlər, xüsusilə ibtidai təhsil siniflərində təhsil alan şagirdlər üçün çox vacibdir. İstənilən tədris vəsaiti əyani vəsait sayılır. Həmin vəsaitlərdən istifadə isə təlimin əyanilik prinsipinə əsasən həyata keçirilir.

Valideyn-şagird-müəllim arasında qarşılıqlı münasibətlərin yaradılması dəstəkləyici mühitin mühüm amillərindən biridir. Valideynlər daim müxtəlif yollarla şagirdlərin tədris prosesinə cəlb olunmalıdırlar ki, şagirdlər özlərini psixoloji komfort zonasında hiss etsinlər. Valideynlərin məktəblə və müəllimlə müsbət və optimal münasibət sisteminin qurulması şagirdin öz meyil və maraqlarını, istək və tələbatlarını daha aydın ifadə etməsinə gətirib çıxarır. Bu həm də valideynlə övlad arasında olan münasibətlərin məktəb mühitində də davam etməsinə və qırılmaz, möhkəm ailə bağlılığının yaranmasına səbəb olur. Öz üzərində diqqət və qayğı hiss edən şagird təhsildə daha yaxşı nəticələr əldə edir.

Ətraf mühitin öyrənilməsi və ekoloji mədəniyyətə malik şəxsiyyətin yetişdirilməsi də dəstəkləyici mühitin təşkil olunmasında mühüm vasitədir. Gənc nəsildə ekoloji məsuliyyət hissinin tərbiyəsində ilk addım – şagirdlərin diqqətini ekoloji problemlərə cəlb etməkdən ibarətdir. Onlara başa salmaq lazımdır ki, təbiətin qatili dolayısı ilə insanların, heyvanların, bitkilərin – bir sözlə, digər bütün canlıların qatilidir. Biz təbiətə vurduğumuz zərəri iki qatıyla geri qəbul edirik. Çirkləndirdiyimiz hava ciyərlərimizə, su bütün bədənimizə, torpaq isə qidalarla mədəmizə və oradan orqanizmimizə qayıdır. Bu geri dönüş prosesinin başlanğıcını da elə biz özümüz təşkil edirik. Gözəl başlanğıc sağlam geri dönüşdür (Şəkil 1.5).



**Şəkil 1.5. Ətraf mühiti qorumaq bizim borcumuzdur**

Cəmiyyətlə təbii mühitin qarşılıqlı təsiri indiyə kimi kortəbii baş verib. Bu gün məlum olub ki, cəmiyyət təbiətin gələcəyi üçün məsuliyyəti öz üzərinə götürməli, kortəbii qarşılıqlı təsirdən şüurlu istiqamətləndirməyə keçməlidir. Bəşəriyyət indi daha yaxşı başa düşür ki, təbiətin imkanları, indiki və gələcək nəsillərin maraqları nəzərə alınmadan biosferin ehtiyatlarını, yerin başqa sərvətlərini intensiv və kortəbii mənimsəmək olmaz.

Təhsilalanların cəmiyyətlə vəhdəti elə problemdir ki, onun uğurlu həllini təmin etmədən dəstəkləyici mühitin təşkil olunması çox çətindir. Hər bir təhsilalan – şagird cəmiyyətin alt-komponentidir. Cəmiyyətdə baş verən hər bir dəyişmə və yenilik özünü insanın həyatında da göstərir. Təhsilin tələbyönümlülük prinsipinə istinadən cəmiyyətin, dövlətin və fərdin dəyişən, artan tələb və ehtiyacları daim diqqət mərkəzində

saxlanılmalıdır.

Müəllimlərin özünütəhsilinin fasiləsiz olaraq həyata keçirilməsi bilavasitə şagirdlərin inkişafına və onların yeniliyə, tədqiqatçılığa, müstəqil fəaliyyətə alışmasına səbəb olur. Özü öyrənməyi və inkişaf etməyi bacaran müəllim bu xüsusiyyəti öz şagirdlərinə də aşılayır. Nəticədə müstəqil fəaliyyətə alışmış sinif mühiti yaranır. Müəllimin özünütəhsili, peşəkar bacarıqlarının inkişaf etdirilməsi şagirdlərlə münasibətin və tədris prosesinin optimal qurulmasını şərtləndirir.

### 1.1.4. Dəstəkləyici təlim mühitinin növləri

Dəstəkləyici təlim mühiti şagirdlərin dəyişən və daim inkişaf edən maraqlarını nəzərə almaqla, dəstəkləyici, inkişafetdirici və tərbiyələndirici təlim mühitini yaradaraq tələbatlarını ödəməklə, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, potensial imkanlarının aşkarlanması və müəllim tərəfindən inkişaf etdirilməsi prosesidir. Bu prosesdə mühüm olan şagirdin meyil və maraqlarının optimal yolla təmin olunmasıdır. Təlim prosesini uğurla tətbiq edən müəllim, şagirdlərdə tək biliyi formalaşdırmır, eyni zamanda onların potensialına və qabiliyyətlərinə uyğun bacarıqları formalaşdırır ki, bu da şagirdlərdə həm peşə seçimini asanlaşdırır, həm də bir çox həyati bacarıqlara yiyələnməklərinə şərait yaradır.

Dəstəkləyici mühit amili şagird şəxsiyyətinin inkişaf etdirilməsi üçün mühüm bir məsələdir. Şagird əgər böyüməyə hazır bir fidandırsa, onun düşdüyü mühit torpağa bənzəyir. Əgər bu mühit münbit olarsa, yəni şagirddə həyati bacarıqları formalaşdırmaq imkanları mövcud mühitdirsə, şagird hərtərəfli şəxsiyyət kimi formalaşacaqdır. Əksinə, şagirdin düşdüyü mühit əlverişsiz olarsa, onda mövcud olan fitri qabiliyyət və istedad da getdikcə passivləşər və özünün formalaşma xüsusiyyətlərini itirər.

Dəstəkləyici təlim mühitini təşkil edərkən müəllim şagirddə gedən psixi proseslərə bələd olmalıdır ki, ondan optimal şəkildə istifadə edə bilsin. İbtidai sinif müəllimi şagirdlərin yaş dövrlərinin xüsusiyyətlərini daha yaxşı bilməlidir ki, dəstəkləyici təlim mühitini yarada bilsin. Sinif otağının maddi-texniki baza cəhətdən zənginliyi və şagirdin inkişafına təkan verən müəllim, valideyn və ətraf mühit amilləri birləşərək münbit öyrənmə şəraiti yaradır.

Şagirdlərin meyil, maraq və istəklərinin, tələbatlarının nəzərə alındığı dəstəkləyici mühiti təşkil etmək ibtidai sinif müəllimindən xüsusi istedad və peşəkarlıq tələb edir. Dəstəkləyici təlim mühitinin təşkil edilməsinin müəyyən xarakteristikaları vardır ki, ibtidai sinif müəllimi bunları bilməli və həmin mühitin tələblərinə əməl etməlidir.

Dəstəkləyici təlim mühitinin təşkili şagirdlərin meyil və maraqlarının təmin olunmasına yönəldilmiş praktik fəaliyyətdir.

Dəstəkləyici təlim mühitinin növlərini sxem şəklində aşağıdakı kimi göstərə bilərik (Sxem 1.3).




**Sxem 1.3. Dəstəkləyici təlim mühitinin növləri**

1. Fiziki mühit - təhlükəsiz, estetik, gigiyenik tələblərə cavab verən və səmərəli təlim şəraitinin yaradılmasına imkan verən məktəb binası, sinif otağı, əşyavi mühit, məktəblərin tikilməsində və təmirində istifadə olunan tikinti materialları, rənglər, istilik və hava dövriyyəsinin təmin olunması kimi müxtəlif xüsusiyyətlər, planlaşdırılmış zəruri və uyğun öyrənmə fəaliyyəti fiziki mühit amilinə aiddir.

2. Sosial mühit – kommunikasiya (ünsiyyət) və öyrənmə prosesi (məktəb rəhbərliyi, müəllimlər, şagird kollektivi, əməkdaşlıqla müşayiət olunan qrup işi və digər öyrənmə formaları). Sosial aspekt tələbələrin və müəllimlərin müxtəlif sosial-mədəni kökləri, cinsləri, yaşları, üstünlükləri və s. kimi xüsusiyyətlərə fərq qoyulmadan gündəlik təhsil fəaliyyətinin uğurlu təşkilini şərtləndirir. İnklüziv yanaşma və xüsusi hazırlanmış infrastruktur sosial mühitin təmin olunmasında həlledici rol oynayır və öyrənmə prosesinin formalaşmasında bütün iştirakçılar üçün məqbul şəraitin yaradılmasını şərtləndirir (Şəkil 1.6).



**Şəkil 1.6. Şagirdlərin qrupda fəaliyyəti**

3. Texnoloji mühit – XX əsrin sonlarından etibarən təhsilə və eləcə də ictimai həyata nüfuz edən proseslərdən biri də texnoloji proseslər və texnoloji alətlərdir. İnformasiya-kommunikasiya texnologiyaları, elektron təhsil, onlayn və distant təlim, qarışıq öyrənmə, müxtəlif təhsil və informasiya saytları, bloqlar, təlim platformaları və s. texnoloji mühit amilinə daxildir. Texnologiya didaktik kontekstlərdə, həmçinin sinif daxilində və xaricində virtual mühitlərdə getdikcə daha təsirli və mənalı olur (Şəkil 1.7).




**Şəkil 1.7. Texnoloji təlim mühiti**

4. Dərsdənkənar təlim mühiti - müxtəlif yerli qurumlar (muzeylər, parklar, şəhər yerləri, şirkətlər, tarixi abidələr və s.) və ya landşaftlardan (meşələr, bağlar, dağlar) tədqiqat və ekskursiya səfərləri, təlim üçün səyahətlər, öyrənmə və öyrənməni dəstəkləyən təlim mühiti kimi istifadə imkanları nəzərdə tutulur (Şəkil 1.8).



**Şəkil 1.8. Şagirdlərin çörək zavoduna ekskursiyası**

5. Didaktik mühit - tədris üçün nəzərdə tutulmuş və öyrənməni dəstəkləyən məzmun (məlumat, bilik, bacarıq, dəyər) əldə etməyi təmin edən tədqiqat materialları, dərsliklər, jurnallar, bukletlər və s. kimi resurslar nəzərdə tutulur. Didaktik mühitin müəyyən edilməsi tədris ilinin planlaşdırılmasını və dəstəkləyici təlim mühitinin əsasını təşkil edir və şagirdlər üçün çox vacibdir.

Dəstəkləyici təlim mühitindən bəhs edərkən bu mühit növləri diqqət mərkəzində saxlanılmalıdır və müəllim səmərəli nəticələr əldə etmək üçün dəstəkləyici təlim mühitinin bütün növlərindən yerində istifadə etməlidir. Uğurlu təhsil və tərbiyənin əsasında uğurlu

münasibətlər və öyrənmə üçün əhəmiyyət kəsb edən bütün maddi və mənəvi dəyərlər dayanır.

Bəzən müəllimlər birtərəfli olaraq ya fiziki mühit amilinə, ya da didaktik mühit amilinə daha çox üstünlük verirlər. Burada yol verilən ən böyük nöqsanlardan biri müəllimin tədris prosesini tam təsəvvür etməməsindən qaynaqlanır. Peşəkar müəllim fiziki və didaktik mühit amillərini nəzarətdə saxlamaqla yanaşı, şagirdlərinin öyrənməsinin dəstəklənməsi üçün həm sosial mühiti, psixoloji münasibətləri və ünsiyyət prosesini, həm də dərsdənkənar təlim mühitini və texnoloji mühiti birlikdə istifadə edir.

Tədris zamanı dəstəkləyici mühit növlərindən istifadədə hansı nöqsanlara yol verilir?

Dəstəkləyici təlim mühitindən istifadə edən zaman nəzərə alınması vacib olan nüanslardan biri də qızıl ortanın gözlənilməsi, yəni mühit növlərindən istifadə zamanı ifrata yol verilməməsidir.

Müəllim bəzən şagirdləri öyrədən zaman hansısa mühit növündən daha artıq istifadə edir. Əgər təlim prosesində dəstəkləyici mühitin hansısa bir növünə məqsədsiz olaraq üstünlük verilirsə, bu şagirdin tez yorulmasına və diqqətinin yayılmasına gətirib çıxarır. Məsələn, əyani vəsaitlərdən olduqca çox istifadə edilməsi. Doğrudur, ibtidai siniflərdə əyaniliyin tətbiqi çox mühüm əhəmiyyət kəsb edir. Lakin tədris olunan mövzunun reallaşdırılması zamanı həddindən çox rəngarəng materiallardan istifadə şagirdin məzmundan uzaqlaşmasına, zahiri qavramlara üstünlük verməsinə və diqqətinin dağılmasına səbəb ola bilir. Bu baxımdan müəllim dərsi üçün optimal resurs istifadəsini müəyyənləşdirməli və ona uyğun dərs mərhələlərini təyin etməlidir. Motivasiya hissəsində təqdim olunacaq əşyalarla, nəticə və ümumiləşdirilmənin çıxarılmasında istifadə olunacaq əşyalarda (resurslarda) fərqlər olur və onların hamısını ardıcıllıqla şagirdə təqdim etmək didaktik baxımdan düzgün deyil. Belə olan halda, şagirdlərin öyrənmə prosesi dəstəklənmir, əksinə onlarda fiziki və zehni yorğunluq əlamətləri yaranmağa başlayır.

İkinci yol verilən mühüm nöqsanlardan biri isə texnoloji vasitələrdən yerli-yersiz istifadəyə üstünlük verilməsidir. Kompüterin, elektron lövhənin, təqdimat slaydlarının, eləcə də müxtəlif videofraqmentlərin çoxluq təşkil etməsi şagird beyninin gərəksiz yüklənməsinə və onların sağlamlığının pozulmasına gətirib çıxarır. Bundan başqa elektron vasitələrdən çox istifadə olunması şagirdlərin gözlərində problem yaratmaqla yanaşı, onların texnoloji vasitələrə aludəçiliyinə səbəb olur. Lakin dərsin müəyyən bir hissəsində hansısa video materialın nümayişi, modellərin və maketlərin elektron şəkildə təqdim olunması, animasiyaların, illüstrasiyaların izlənməsi, əlbəttə, dərsin optimallığını artırmaqla yanaşı, şagirdlər üçün də əlavə təlim marağının yaranmasına gətirib çıxarır.

Dəstəkləyici təlim mühitindən bəhs edərkən nəzərə alınması vacib olan bir məsələ də sosial mühitin düzgün təşkil olunması ilə əlaqədardır. Müəllimlərin ən böyük çətinliyi şagirdlərdə sosial mühitlə əlaqədar yaranır. Çünki şagirdin daxil olduğu sosium ancaq məktəb mühitindən ibarət deyildir. Ailə və ətraf aləm elementlərini özündə cəmləşdirən sosial mühit və onun düzgün tənzimlənməsi şagirdlərin öyrənmə fəaliyyətinin dəstəklənməsi üçün çox mühüm əhəmiyyət kəsb edir. Şagirdin daxil olduğu sosial mühit – ailə fərdləri, dostları, küçədə rastlaşdığı insanlar və hadisələr, eləcə də müxtəlif sosial

şəbəkələr onlara birbaşa təsir edir. Müəllim həmin təsirlərin müsbət tərəflərini müəyyənləşdirməli və mümkün olduğu qədər şagirdlərin öyrənmə fəaliyyətini dəstəkləməli və tənzimləməlidir.

### 1.1.5. Dəstəkləyici mühitin yaradılmasında qiymət amili

Qiymətləndirmə, onun nəticələrinin təhlili və inkişafa yönəldilməsi təhsil prosesinin tənzimlənməsində və şagirdlərin nailiyyətlərinin dəstəklənməsində xüsusi rola malikdir.

Qiymətləndirmə sadəcə didaktik anlayış olmayıb öz daxilinə bir çox məqsədlərlə yanaşı, psixoloji dəstəklənmə ünsürlərini də daxil edir. Başqa sözlə, qiymətləndirmədən ibtidai sinif müəllimləri şagirdlərin dəstəklənməsi və onların təhsildə nailiyyətlər əldə etməsi üçün alət kimi istifadə edirlər. Bu baxımdan qiymətləndirmə çox həssas mahiyyət daşıyır. Şagirdi qiymətləndirməklə, onun sadəcə nailiyyətləri dəyərləndirilmir, həm də gələcək fəaliyyətinin istiqamətləri müəyyənləşdirilir.

Müəllimlər qiymətləndirmə prosesini həyata keçirərkən hər şeydən öncə bilməlidirlər ki, onlar şagirdi deyil, onun bacarıqlarını qiymətləndirirlər. Qiymətləndirmənin psixoloji amil olması həm də onunla şərtlənir ki, bu proses nəticəsində şagird yeni təlim motivasiyası əldə edir, və ya əksinə təlimə marağının azalması müşahidə olunur. Burada müəllimin üzərinə böyük vəzifələr düşür. Qiymətləndirmə prosesində müəllim:

- Şagirdi deyil, onun bacarıqlarını qiymətləndirməlidir;
- Qiymət və dəyər anlayışlarını fərqləndirməyi bacarmalıdır;
- Rəqəmlə qiymətləndirmə anlayışından mümkün qədər uzaqlaşmağı nəzərdə tutmalıdır;
- Şagirdi qiymətləndirərkən rəqəmlərə deyil, nailiyyət və inkişafa köklənməlidir;
- Qiymətləndirmənin nəticələrindən yola çıxaraq yaxın və uzaq inkişaf perspektivlərini müəyyənləşdirməlidir;
- Qiymətləndirmə prosesindən şagirdi dəstəkləmə üsulu kimi istifadə etməlidir.

Qiymətləndirmədə uğurlu nailiyyət və səmərə əldə etmək üçün o, dəstəkləyici xarakter daşımalıdır, yəni müəllim qiymətləndirmədən şagirdlərini dəstəkləmək üçün istifadə etməlidir. Bu proses necə həyata keçirilir?

Hazırda məktəblərdə qiymətləndirmənin 3 növü geniş istifadə olunmaqdadır. Bu qiymətləndirmə növləri tədris ilinin bütün dövrlərini və fəaliyyətlərin detallarını müəyyənləşdirməyə kömək edir.

Diaqnostik qiymətləndirmə həyata keçirən müəllim istər dərs ilinin əvvəlində, istərsə də hansısa bir fəaliyyətin başlanğıcında əsas məqsəd kimi şagirdlərin malik olduqları bilik və bacarıqları müəyyənləşdirməklə yanaşı, həm də onları hansı məqamda necə dəstəkləmək lazım olduğunu müəyyənləşdirir. Diaqnostik qiymətləndirmə apararkən qeydə alınmış müşahidə vərəqləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Müəllim dərs ilinin əvvəlində şagirdlərin hər birinin məlumatları daxil olan portfolioları tərtib edir və hər bir şagird üçün müşahidə vərəqlərini də həmin portfoliolara daxil edir. Bu müşahidə vərəqləri imkan verir ki, müəllim il ərzində şagirddə qeydə aldığı boşluqları və zəif halqaları

möhkəmləndirsin. Bu proses olduqca mürəkkəb bir fəaliyyətdir və müəllimdən xüsusi peşəkarlıq tələb edir.

İbtidai sinif müəllimləri diaqnostik qiymətləndirmə və onun nəticələrindən şagirdi dəstəkləmək üçün istifadə edən zaman daha uğurlu nəticələr əldə edə bilər. Çünki ibtidai sinif müəllimi digər müəllimlərə nisbətən şagirdlə daha çox vaxt keçirir, bundan əlavə şagird tədris fəaliyyətinə başladığı ilk gündən müəllimin nəzarəti altında olur və onun fəaliyyətini izləmək imkanı yaranır. Kiçik yaşlı məktəblilərdə xarakterin formalaşması prosesi sürətlə davam etdiyindən bu məsələdə müəllimlər daha diqqətli olmalıdırlar. Şagirdə verilən qiymət onda bir çox müsbət insani keyfiyyətlərin formalaşmasına səbəb ola bilir. Doğruçuluq, humanizm, məsuliyyət, əməkdaşlıq, paylaşma bacarığı və s. kimi insana sonrakı həyatında kömək ola biləcək mühüm keyfiyyətlər artıq ibtidai sinifdən formalaşmağa başlayır. Bu prosesdə qiymətləndirmə mühüm rola malikdir.

Şagirdlərin formativ qiymətləndirilməsinin həyata keçirilməsi isə daha çox dəstəkləyici xarakterə malikdir. Standartların reallaşma səviyyəsinin yoxlanılmasına yönələn bu prosesdə şagirdin hər gün əldə etdiyi nailiyyətlər, irəliləmə və geriləmələr ardıcıl olaraq müşahidə olunur. Şagirddə formalaşdırılacaq hansısa həyati bacarıq, onun inkişaf səviyyəsi müəllim tərəfindən izlənilir. Qiymətləndirmə aparılarkən seçilən meyarlar və nailiyyət səviyyələri imkan verir ki, müəllim təlimdə geridə qalan şagirdləri dəstəkləsin, və ya xüsusi istedada malik şagird üçün daha təkmil xarakterə malik tapşırıqlar sistemindən istifadə etsin.

Yaxşı hazırlanmış və təcrübi materialları çox olan formativ qiymətləndirmə şagirdlərin motivasiyasına və nailiyyətlərinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Ayrıca müstəqil işləmə bacarığını dəstəkləyir. Düzgün tətbiq edilən formativ qiymətləndirmədə şagirdlər nə öyrəndiklərini və hansı bacarıqlara yiyələndiklərini dəqiq başa düşürlər. Formativ qiymətləndirmənin nəticələrini təhlil etməklə şagirdlər, müəyyən edilmiş standartlara çatmaq üçün sonrakı addımlarında müəllim və ümumi tədris sistemi tərəfindən dəstəklənəcəklərini bilməklə, özlərinin və başqalarının nailiyyətlərini qiymətləndirirlər və öyrənmə fəaliyyəti üçün onlarda stimul yaranır.

Formativ qiymətləndirmə həyata keçirilərkən şagirdlərin özünü-qiymətləndirməsindən tez-tez istifadə etmək lazımdır. Bu şagirdlərə imkan verir ki, onlar öz fəaliyyətlərində olan boşluqları dərk etsinlər və anlasınlar ki, qiymətləndirmə rəqəmlərlə məhdudlaşan bir proses deyil. Onların inkişafının təmin olunması daha mühüm məqsəd kimi qarşıya qoyulmuşdur.

Summativ qiymətləndirmənin nəticələrinin təhlil olunması da şagirdlərin dəstəklənməsi üçün əsas pedaqoji alətlərdən biridir. Şagirdin bacarıqlarının dəyərləndirilməsi, yəni summativ qiymətləndirilmənin aparılması müəllimə imkan verir ki, o, bir sonrakı addımında şagirdlə iş prinsipini müəyyənləşdirsin. Nailiyyətə uyğun olaraq təlim strategiyalarında, şagirdə yanaşmada çevik dəyişikliklər etsin və ya fərqli qiymətləndirmə üsul və vasitələrindən istifadə etsin.

Qiymətləndirmə vasitələrinin seçilməsi və tətbiqi də şagirdlərin dəstəklənməsi üçün mühüm əhəmiyyətə malikdir. Müəllim elə qiymətləndirmə üsul və vasitələri seçməlidir ki, həmin alətlər şagirdlərin inkişafını və nailiyyətlərini obyektiv şəkildə üzə çıxarmağa kömək

etsin. Hazırda məktəblərdə geniş yayılmış test üsulundan istifadə etmək çox vaxt müəllimləri öz şagirdini tanımaq imkanlarından məhrum edir. Test üsulundan müəyyən zamanlarda istifadə olunsa belə o, geniş vüsət almamalıdır. Şagirdi dəstəkləyə bilmək üçün daha fərqli qiymətləndirmə alətlərindən istifadə olunmalıdır. Müəllim bu prosesdə birbaşa məsuliyyət daşıyan şəxsdir və o öz şagirdlərinin nailiyyətlərini təhlil etməklə onları doğru şəkildə dəstəkləməyi bacarmalıdır.

Şagirdlərə şans vermək lazımdır ki, onlar özlərini təsdiq etsinlər. Bunun üçün bütün şagirdlərə fərqli və fərdi yanaşmanı həyata keçirmək müəllimin əsas vəzifələrindəndir. Əgər şagirddə yazı bacarığı normal inkişaf etməyibsə, ona öz fikrini sözlərlə ifadə etmək imkanı verilməlidir. Bəzən müəyyən şagirdlərdə istər psixoloji, istərsə də digər amillər səbəbindən ünsiyyət qurmaqda çətinliklər yaşana bilir. Belə olan halda müəllim şagirdə imkan yaratmalıdır ki, o öz bacarığını yazılı şəkildə ifadə etsin. Nailiyyətlərin nümayişinin bir çox yolu vardır və müəllim bu yolların hər birindən öz şagirdinə uyğun istifadə etməlidir. Bu həm şagirdlərin dəstəklənməsinə, həm də təlim prosesinin səmərəli hal almasına səbəb olacaqdır.

Özünüqiymətləndirmə üçün şərait yaratmaq şagirdlərin dəstəklənməsinə və onların öz problemlərini daha aydın görməsinə səbəb olur. Burada ikinci vacib nüans isə şagirdlərin öz həyatları ilə əlaqədar məsuliyyətə yiyələnmələridir ki, şagirdlər özünüqiymətləndirmə prosesi ilə öz bilik və bacarıqlarına adekvat münasibət formalaşdırmağı öyrənsinlər. Şəxsi məsuliyyət hissinin şagirddə formalaşması onun gələcək həyatda yaxşı vətəndaş olmasına və öz qüvvəsini lazımınca dəyərləndirməsinə səbəb olur.

Bunun üçün xüsusi qiymətləndirmə vərəqləri və ya sorğu vərəqləri hazırlayaraq şagirdləri bu prosesə cəlb etmək olar. Sorğu vərəqləri daha çox individual xarakter daşısa da, qiymətləndirmə vərəqləri daha çox sinif üçün hazırlanır. Məsələn, qiymətləndirmə vərəqi hazırlanaraq lövhədən asılır və həmin vərəqdə şagirdin malik olduğu bacarıqların əks edildiyi meyar qrafaları olur. Şagird müəyyən tapşırığı yerinə yetirdikdən sonra həmin özünüqiymətləndirmə vərəqində öz bacarığına aid olan qrafanı seçərək həmin hissəyə işarə qoyur. İbtidai siniflərdə bunu daha da maraqlı şəkildə həyata keçirmək olar. Bunun üçün müəllimin özü tərəfindən hazırlanmış (texnologiya dərslərində şagirdlərin özlərinə də hazırlatmaq olar) “dəyişən smayliklər”dən istifadə etmək olar (Şəkil 1.9).



**Şəkil 1.9. Özünüqiymətləndirmə üçün istifadə edilən “dəyişən smayliklər”**

Şagirdlər öz bacarıqlarına və fəaliyyətlərinə uyğun smayliki seçərək qiymətləndirmə vərəqində özünü qiymətləndirir. Sorğu vərəqlərində isə ya konkret bir mövzuya, ya da ümumi bəhs və ya bölməyə aid bilgilər sistemi sorğu vasitəsilə uşaqlara çatdırılır və onlar hər biri fərdi olaraq öz bacarıqlarını dəyərləndirirlər.

Şagirdlərin qiymətləndirmə vasitəsilə dəstəklənməsi prosesini həyata keçirmək üçün müəllim müəyyən qiymətləndirmə qaydalarına əməl etməlidir: Şagirdin dəstəklənməsini təmin edən qiymətləndirmə üçün aşağıdakılar gözlənilməlidir:

- **Müvafiqlik –** qiymətləndirilməsi aparılan bacarıqlar birbaşa təlim məqsədləri, kurs və tədris standartları ilə əlaqələndirilməlidir;
- **Uyğunluq –** qiymətləndirməni həyata keçirən zaman şagirdə tələb olunan məlumatlar verilməlidir. Müəllimlər demək olar ki, fərqli qiymətləndirmə meyarlarını və təlim məqsədlərini qiymətləndirmək üçün müxtəlif metodlardan istifadə etməli olurlar. Lakin hər dəfə qiymətləndirmənin meyarları və təlimatları şagirdlərə çatdırılmalıdır;
- **Ədalətlilik –** bütün şagirdlərin nailiyyət səviyyələrindən asılı olmayaraq irəliləmələrini, bildiklərini, başa düşdüklərini və edə biləcəklərini nümayiş etdirmələri üçün şərait təmin edilməlidir;
- **Etibarlılıq –** qiymətləndirmə aparılarkən şagirdlərin bilik, bacarıq və anlayışlarını obyektiv və dəqiq yoxlamalı, anlaşılan təlimat sisteminə malik olmalı;
- **Məlumatlılıq –** bu şagirdlərin dəstəklənməsi üçün daha vacib amildir, çünki şagirdlərin artıq nəyi bildikləri, başa düşdükləri və edə biləcəkləri müəyyənləşdirilməlidir. Bundan sonra hər bir şagirdin nələri inkişaf etdirməli olduğu və müəllimin buna necə dəstək verə biləcəyi aydınlaşdırılmalıdır;
- **Nəticəyönümlülük –** şagirdlərin əldə edəcəyi nailiyyətlər əvvəlcədən proqnozlaşdırılmalı və onların fərdi bacarıqlarına uyğun qiymətləndirmə vasitələri hazırlanmalıdır;
- **Məxfilik –** şagirdlərin nailiyyət nəticələri müəllim və şagirdlər tərəfindən inkişaf üçün istiqamətləndirici rolu oynamalıdır. Şagirdin əldə edə bilmədiyi nailiyyət onda utanc hissi deyil, bilmədiklərini öyrənmə ehtiyacı hissi yaratmalıdır. Bunun üçün müəllimlər qiymətləndirmə prosesinə olduqca həssas yanaşmalı və "sən bunu bacarmırsan" ifadəsi əvəzinə "bunu bacarmaq üçün nələri edə bilərsən" ifadəsini işlətməlidirlər.

Təlim-tərbiyə prosesində qiymətləndirmə şagirdlərin psixologiyasına daha dərindən nüfuz edən amil kimi çıxış edir. Ona görə də müəllimlər rəqəmlə qiymətləndirmənin ekvivalenti ola biləcək motivasiyaedici ifadələrdən istifadə etməlidirlər. Şagirdə "2" (qeyri-kafi) yazmaq onu özünün və başqalarının gözündə "yetərsiz", "təlimdə geridə qalan şagird" obrazının yaranmasına səbəb olur. Bu da şagirdin təlim motivasiyasının aşağı düşməsinə, özünü mənəvi cəhətdən pis hiss etməsinə, həmçinin valideynləri də daxil olmaqla ərtafdakıların təzyiqinə məruz qalmasına səbəb olur. Lakin müəllim "2" qiymət əvəzinə, "sənin müəyyən çətinliklərin var, lakin bunlar sənin öhdəsindən gələ biləcəyin

çətinliklərdir" deyirsə, şagirdin zehnində ümid işığı yandırmış olur. Balla qiymətləndirmədə "2" qiymətə ekvivalent olan 20 bal o deməkdir ki, şagird nəyəsə qadirdir, lakin bu, hələ kifayət deyildir.

Şagirdin dəstəklənməsi üçün ilk gündən sinifdə müsbət psixoloji iqlim yaratmaqla bərabər "qiymət üçün oxumaq" anlayışını da onların beynindən "silmək" vacibdir. Şagird bacarıqlarının qiymətləndirildiyini deyil dəyərləndirildiyini gördükdə, təhsilə qarşı marağı azalmır, əksinə onda öyrənmək və nail olmaq istəyi oyanır.

Effektiv, məqsədyönlü həyata keçirilən qiymətləndirmə zamanı şagirdlər öz fəaliyyətlərinin istiqamətini müəyyənləşdirir, öz güclü və zəif tərəflərini aşkara çıxarırlar. Müəllimin başlıca məqsədi qiymətləndirmə nəticələrinə əsasən şagirdlər üçün öyrənmə planını, tapşırıqlar və fəaliyyətlər sistemini müəyyənləşdirməkdir ki, bunun da nəticəsində şagirdlərin təlim fəaliyyəti və öyrənmə maraqları dəstəklənir.

Qiymətləndirmə məlumatlarının təhlili müəllimə imkan verir ki, o öz sinfi üçün lazım olan perspektivi müəyyənləşdirsin. Zəif və güclü şagirdləri aydınlaşdırmaqla onlar arasında əməkdaşlıq münasibətlərinin yaradılmasına da təkan verən qiymətləndirmə məlumatları şagirdlərin dəstəklənməsi üçün didaktik alət rolunu oynamağa davam etməlidir. Qiymətləndirmə nəticələrindən şagirdlərin fəaliyyətini yaxşılaşdırmaq və bütün məktəbin, eləcə də müəllimlərin fəaliyyət planlarını dəstəkləmək üçün istifadə edilməlidir.

Bunun üçün aşağıdakılar tələb olunur:

- Qiymətləndirmədə kəmiyyət və keyfiyyət məlumatlarını şagirdlərin fəaliyyətinin yaxşılaşdırılmasına yönəltmək üçün istifadə etmək;
- Hər mərhələdə daha yüksək nailiyyət əldə etməklə şagirdlərin irəliləmə və geriləmələrinə nəzarət etmək;
- Öyrənmə prosesində mövcud olan çətinlikləri müəyyənləşdirməklə onları yaradan səbəbləri aradan qaldırmaq;
- Təlimdə geri qalan və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün təlim materiallarını daha uyğun şəklə salmaq.

Qiymətləndirmə prosesinin dəstəkləyici funksiyasını nəzərə alaraq ibtidai sinif müəllimləri bu sahədə daha diqqətli olmalı və daim öz peşəkarlıqlarını yüksəltməlidirlər. Bunun üçün müəllim müxtəlif peşəkar təlimlərdən keçməli, şagird qiymətləndirilməsində istifadə olunan üsul və vasitələri doğru şəkildə istifadə etməyi öyrənməli və onu öz fəaliyyətində tətbiq etməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. Dəstəkləyici təlim mühiti anlayışını şərh edin.
2. Dəstəkləyici təlim mühiti təşkil olunmuş sinfi təsvir edin. Nələrə önəm verilməlidir? İzah edin.
3. Mənfi və müsbət təlim mühiti anlayışlarını şərh edin.
4. Şagirdləriniz üçün dəstəkləyici sinif modeli qurun.
5. Sxem 1.1-i təhlil edin. Sxemə nələri əlavə edə bilərsiniz?
6. Valeoloji təhsil-tərbiyə sxemini təhlil edin. Fikrinizi bildirin.
7. Sinifdə sosioloji mühit yaratmağın üsullarını izah edin.
8. İKT-dən sinifdə istifadə imkanları haqqında esse yazın.
9. Didaktik mühit anlayışını şərh edin.
10. Şagirdləri necə qiymətləndirmək olar? Dəstəkləyici qiymətləndirmə modeli hazırlayın.
11. Şagirdlərin diaqnostik qiymətləndirilməsini təşkil etmək üçün nümunə hazırlayın.
12. Şagirdləri müşahidə cədvəli tərtib edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Dəstəkləyici təlim mühitinin yaradılması haqqında məlumat verir".**

1. Dəstəkləyici təlim mühiti yaratmağın şərtləri nələrdir? Esse şəklində fikrinizi bildirin.
2. Dəstəkləyici təlim mühitini təşkil etməyin prinsipləri nələrdir? Pedaqoji müzakirə vasitəsilə fikirlərinizi ifadə edin.
3. Simulyasiya yolu ilə sinif mühitini təşkil edin. Demokratik və avtoritar müəllim modelini canlandırın.
4. Dəstəkləyici təlim mühitinin növlərini izah edin.
5. Müsbət və dəstəkləyici mühit yaratmağın yollarını izah edin. Modelləşdirin.
6. Dəstəkləyici qiymətləndirmə modelini necə hazırlamaq olar? Mühüm nüansları qeyd edin.
7. Qiymətləndirilmənin aparılması yollarını və müsbət psixoloji iqlim yaratmağın şərtlərini izah edin. Sxemləşdirin.

## 1.2. Uşaqların meyil, maraq və qabiliyyətlərini inkişaf etdirən mühitin yaradılmasının vacibliyini əsaslandırır

### 1.2.1. Meyil, maraq və qabiliyyətləri inkişaf etdirən mühitin yaradılması

Müasir təhsil sisteminin inkişaf tendensiyaları araşdırılarkən ən prioritet məsələ kimi şagirdyönlülük, eləcə də şəxsiyyətyönlülük öz aktuallığı ilə diqqəti cəlb edir. Dünya təhsil sistemləri də nəzərdən keçirilərkən görürük ki, şagird şəxsiyyətinin inkişaf etdirilməsi təhsilin qarşısında duran əsas məqsəd kimi özünü göstərir.

Təhsil tələbyönümlüdür. Yəni cəmiyyətin, dövlətin və fərdin tələbləri təhsil standartlarının reallaşmasında özünü göstərməlidir. Burada mühüm məqamlardan biri təhsilalanın öz tələblərinin də ödənilməsini təmin etməkdir ki, müəllimlər bu məqamı daim diqqət mərkəzində saxlamalıdırlar. Uşaqların meyil, maraq və qabiliyyətləri aparıcı mövqedə dayanır. Şagirdə öyrədilən bilik, bacarıq və keyfiyyətlər mütləq onun meyil, maraq və qabiliyyətləri çərçivəsində olmalıdır.

Təhsildə şagirdin meyil, maraq və qabiliyyətlərinin nəzərə alınması müəllimdən, xüsusilə də ibtidai sinif müəllimindən yaradıcılıq tələb edir. Bəzən müəllimlər şagirdin meyil, maraq və istəklərinin, eləcə də qabiliyyətlərinin nəzərə alınması anlayışını səhv başa düşürlər. Şagirdin meyil, maraq və qabiliyyətlərinin nəzərə alınması dərslərdə xaos yaratmağı deyil, hər şagirdə öz bacarığına uyğun tapşırıq verilməsini və onlara öz fərdi xüsusiyyətlərinə uyğun yanaşılmanı tələb edir.

Müəllimin vəzifələrindən biri öz sinfinin şagirdlərini tanımaqla, onların meyil və maraqlarına uyğun təhsil mühiti yaratmaqdır. İbtidai sinif şagirdləri ailədən təzəcə ayrıldıqları üçün onların birdən-birə kəskin şərait dəyişikliyinə salmaq olmaz. Onlar öz maraqlarına uyğun fəaliyyətlərə cəlb olunmaqla təlim şəraitinə alışır və tədricən təlimi qəbul edirlər. Təlim mühiti təşkil edilərkən nə qədər bütün şagirdlər nəzərə alınarsa, təlimin səmərəsi və əldə olunan nailiyyətlər bir o qədər yüksək olar.

### 1.2.2. İbtidai sinif şagirdlərinin meyil, maraq və qabiliyyətləri və ona uyğun dəstəkləmə formaları

Uşaq psixologiyasının fiziologiya ilə əlaqəsi arı-ayrı yaş dövrlərində orqanizmində baş verən fizioloji dəyişikliklərin onun psixi aləminə təsirinin aydınlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Uşağın sinir sistemi tipinin, orqanizmində baş verən funksional dəyişikliklərin nəzərə alınması uşağa pedaqoji-psixoloji təsirdə ciddi amil hesab olunur.

Müasir təlim şagirdin maraq və tələbatlarına, bilik səviyyəsinə, imkan və qabiliyyətinə uyğun təşkil olunmalı, dərsdə problemli situasiya yaratmaqla idrak prosesi və təfəkkür fəallaşdırılmalıdır. Müəllimin bələdçi, istiqamətləndirici rolu, düzgün qurulmuş şagird-müəllim, şagird-şagird münasibətləri şagirdin özünə inamını artırır, onu fəallaşdırır. Qrup işlərinin lazımi səviyyədə aparılması ilə şagirdlər fikirlərini bölüşür, qarşılıqlı faydalanır, biliklərini dərinləşdirir, daha dolğun nəticə, şəxsi keyfiyyətlər (əməkdaşlıq, məsuliyyət, bir-birini dinləmə, digərinin fikrinə hörmətlə yanaşma və s.) əldə edirlər. İnteraktiv təlim

prosesində sinifdə yaradılan işgüzar, psixoloji şərait, tədqiqat prosesinin təşkili, biliklərin müstəqil "kəşfi", sosial bərabərlik, şagird biliyinin obyektiv qiymətləndirilməsi və s. təlimdən gözlənilən nəticənin alınmasına müsbət təsir edir.

İbtidai sinif şagirdlərinin dərsə marağını müxtəlif yollarla formalaşdırmaq və artırmaq müəllimin qarşısında duran vacib məsələlərdən biridir. Kiçik yaş dövründə şagirdlərin dərs öyrənməyə müsbət münasibəti davamlı olmur. Əgər şagirddə öyrənməyə həvəs yaranmışsa, təbii ki, onu öyrətmək asan olacaq. İbtidai sinif şagirdlərinin bütün fənləri eyni maraq və istəklə öyrənməsinə nail olmaq asan iş deyil. Kiçikyaşlı uşaqlar çox hərəkətli, diqqəti yayınıqdırlar.

Kiçik məktəb yaşlı uşaqlar üçün rəngarəngliyi sevmək, qeyri-ardıcıl qəbul etmə, asanlıqla obraza daxil olma və s. kimi xüsusiyyətlər xarakterikdir. İbtidai sinif şagirdləri hər hansı fəaliyyətə, xüsusilə oyuna asanlıqla cəlb olunurlar. Oyun onlar üçün həm tədris, həm də əmək fəaliyyəti ilə məşğul olmaq üçün ciddi tərbiyəedici formadır. Buna görə də uşaqların oyun oynamaq həvəsindən, tələbatından istifadə etməklə onları müəyyən tədrisyönümlü məsələlərin həllinə yönəltmək məqsədəuyğundur.

Kiçik məktəbyaşlı uşaqların meyl və maraqlarının öyrənilməsi müəllim üçün ən birinci vəzifədir. Şagirdin meyl və maraqlarına bələd olan ibtidai sinif müəllimi, onların təfəkkür xüsusiyyətlərindən istifadə edərək onları dəstəkləyə və təfəkkürlərini fəallaşdıra bilir.

6-12 yaşlı uşaqların, yəni ibtidai sinif şagirdlərinin bir sıra xüsusiyyətləri vardır və müəllim tədris zamanı bunları nəzərə almalıdır:

- Onlara hər hansı bir məsələni bir neçə dəfə izah etmək lazımdır;
- Müəllim şagirdləri başa salmaq üçün müxtəlif öyrətmə metodlarından istifadə etməlidir (vizual, audiovizual, yazı və s.);
- Müxtəlif öyrətmə üsulları vizual vasitələrə uyğunlaşdırılmalıdır ki, bütün şagirdlər əyani şəkildə məlumatlarla tanış olsunlar;
- Müəllimlər dərsi daha maraqlı qurmalıdırlar, monoton dərs ibtidai sinif şagirdlərinin təlim maraqlarını azalda bilər;
- Müxtəlif interaktiv oyunlardan istifadə etmək lazımdır, çünki şagirdlər üçün sinif həm öyrənmə, həm də əyləncə məkanı olmalıdır;
- Şagirdlərə öyrədilən hər bir şeyi aktiv yolla öyrətmək lazımdır. Onların şəxsi təcrübəsindən və hər zaman rastlaşdıqları situasiyalardan istifadə olunsa, şagirdlər daha tez və asan mənimsəyərlər;
- Şagirdləri tədrisdə ən yaxşı nəticələri əldə etməyə həvəsləndirmək lazımdır. Bunun üçün müəllim sağlam rəqabət metodlarından və stimullaşdırıcı metodlardan istifadə etməlidir;
- Şagirdləri qiymətləndirən zaman onlar üçün fərqli və əyləncəli üsullar təşkil etmək olar (smayliklərlə, ulduzlarla, xüsusi fərqləndirici rəngli stikerlərlə qiymətləndirmə kimi).

İbtidai sinif şagirdlərinin meyil, maraq və qabiliyyətlərini nəzərə almaq üçün müəllim şagird psixologiyasına, onların yaş və fərdi xüsusiyyətlərinə dərindən bələd olmalıdır. Kiçik

yaşlı məktəblilərin meyil və maraqları daha çox təlimin audio-vizual xarakter daşımasına və əyani vəsaitlərdən geniş istifadəsinə əsaslanır. Onlar üçün öyrədilən hər bir şey rəngarəng və oyun elementlərinə malik olmalıdır ki, şagirdlər məlumatı asanlıqla yadda saxlasınlar. İbtidai sinif şagirdlərinin təfəkkürü daha çox əyani-obrazlı xarakterə malik olduğundan müəllimlər müxtəlif əyani vəsaitlər, resurslar hazırlamalı və şagirdləri interaktiv şəkildə öyrətməlidirlər. Onlar əşyalara toxunan zaman, əşyanın xassəsini bilavasitə dərk edərək öyrəndikdə təlim daha səmərəli xarakter daşıyır. Məsələn, meyvələrdən söhbət edərkən mövsümə uyğun meyvələrə şagirdləri qonaq etmək olar. Bu onlar üçün həm əyanilik, həm əyləncə, həm səmimi sinif mühiti, həm də əlavə təlim marağının yaranmasına səbəb olacaqdır. Yedikləri meyvəni təhlil etmək, dadı, rəngi, qoxusu, möhkəm və ya yumşaq olması (toxunma hissi), digər meyvələrlə fərqi barədə şagirdlər o zaman geniş məlumat verə bilərlər ki, onu bilavasitə dadsınlar. Şagirdin keçmiş təcrübələrinə əsasən meyvəni təhlil etmək mümkündür, lakin bu, birbaşa dərs müddətində aparılan təcrübə ilə eyni olmayacaqdır.

Şagirdlərin meyil, maraq və istəklərini nəzərə alaraq dəstəkləyici mühiti yaratmaq üçün şagirdlərin fikrini fəallaşdırmaq mühüm əhəmiyyətə malikdir. Şagirdin təfəkkürünü canlandırmadan onu öyrənmə fəaliyyətinə cəlb etmək mümkün olmur. Ona görə də müəllim aşağıdakı fikri təhriketmə qaydalarından istifadə etməlidir:

- Motivasiya mərhələsində şagirdləri dərsin mövzusunun müəyyənləşdirilməsinə cəlb etmək üçün mütləq əyani vəsaitlərdən istifadə etmək;
- Öyrətdiyi əşya, hadisə, və ya prosesi daha yaddaqalan etmək üçün məntiqi, tənqidi, yaradıcı və şagirdin təcrübəsinə uyğun tapşırıqlar verməlidir;
- Məlumatlarla əlaqəli açıq suallardan daha çox istifadə etməlidir, məsələn prosesin onlarda hansı hisləri oyatması kimi (yağış yağanda hansı hisləri keçirirsiniz? Musiqini dinləyərkən hansı hisləri keçirdiniz? və s.) xarakter və ya xüsusiyyətlərin aydınlaşdırılmasını istəmək olar;
- Şagirdlərin meyil və maraqlarına uyğun mövzularla əlaqəli onların fikrini dinləmək və dəyərləndirmək;
- Şagirdin fikri fəallığını təmin etmək üçün suallar orta çətinlikdə qoyulmalıdır və yönəldici suallardan istifadə etmək lazımdır;
- Şagirdlərin özlərinin düşünərək tapa biləcəyi fikir və sözləri onların əvəzinə ifadə etmək, mətndə olan mənanı müəyyənləşdirmək, başqa sözlə fikri hazır şəkildə şagirdə vermək olmaz, şagirdlərin təfəkkürünü oyatmaq və onları fikri fəaliyyətə təhrik etmək müəllim üçün vacib məsələdir;
- Fikrini ifadə etmək üçün şagirdə imkan yaradılmalıdır, burada həm də şagirdin ünsiyyət bacarıqları, fikrini qısa və aydın şəkildə ifadə etmək bacarıqları da formalaşır;
- Şagirdlərin irəli sürdükləri fərziyyələr dəyərləndirilməli və onlar harada səhv etdiklərini dərk etməlidirlər;
- Şagirdləri doğru şəkildə dəstəkləmək üçün onların liderlik fəaliyyətinə imkan

yaratmaq vacibdir. Müasir dövrün əsas tələblərindən biri şagirdlərdə sahibkarlıq, eləcə də qərar vermə və risk alma kimi bacarıqların formalaşdırılmasıdır ki, bunun üçün mütləq şagirdə liderlik imkanı yaradılmalı və müəyyən vaxtlarda onun qərarları ilə "hesablaşdırılmalıdır";

- Şagirdlərin fikri fəallığının təmin edilməsi, digər yoldaşları ilə əməkdaşlıq şəraitində öyrənməsi və biliklərinin bölüşdürülməsi üçün uyğun situasiyalar tərtib edilməlidir.
- İbtidai sinif şagirdlərinin meyil və marağının daha çox əyani şəkildə toxuna və görə biləcəkləri əşya və hadisələrə olduğu qeyd olundu. Bu prosesdə müəllim uşaqları dəstəkləmək üçün onların fərdi maraq dairəsini də öyrənməlidir.

İbtidai sinif müəllimi ilk gündən şagirdlərini izləməli və onların meylinin, marağının, eləcə də qabiliyyətlərinin istiqamətlərini müəyyənləşdirməlidir. Şagirdlər daha çox əyani-obrazlı təfəkkürə malik olduqlarına görə bu yaşda onlarda rəsmə, musiqiyə, əl işlərinə, şahmata, riyaziyyata maraq güclü olur. Bu baxımdan müəllim şagirdlərini qruplara bölməli və onların maraqlarına və qabiliyyətlərinə uyğun fəaliyyətlə məşğul olmalarını dəstəkləməlidir. Musiqi, rəsm sahəsində xüsusi qabiliyyəti olan şagirdləri məktəb və sinif tədbirlərinə cəlb etməli, onların fərdi fəaliyyətlərinin məhsulu olan əl işlərini (musiqidə ifa bacarıqlarını) nümayiş etdirmələri üçün şərait yaratmalıdır (Şəkil 1.10).



**Şəkil 1.10. Kiçik yaşlı məktəblilərin tədbir zamanı çıxışı**

İbtidai siniflərdə şagirdlərin maraqlarına uyğun dəstəklənməsinin təmin olunması üçün müəllim xüsusi dərnəklər təşkil edə bilər. Musiqi dərnəyində ifa bacarıqlarının formalaşdırılması üçün məktəbin musiqi müəllimi ilə birgə əməkdaşlıq edilməli və şagirdin nailiyyəti dəstəklənməlidir (Şəkil 1.11).



**Şəkil 1.11. Skripka musiqi alətində ifa**

Musiqi dərnəyi ilə yanaşı, məktəbdə rəqs dərnəkləri də təşkil etmək və bura daha çox şagirdi cəlb etmək olar, çünki şagirdlərin estetik zövqünün, plastikasının inkişaf etdirilməsi mühüm məsələdir. Kiçik yaşlı məktəblilər bu cür dərnəklərə və əlavə fəaliyyətlərə xüsusi maraqları ilə seçilirlər (Şəkil 1.12).



**Şəkil 1.12. Rəqs zamanı şagirdlər**



Şəkil 1.13. Şagirdlər rəsm festivalında

Musiqi ilə yanaşı, kiçik yaşlı məktəblilərin bu dövrdə rəsmə də böyük marağı olur. Şagirdlərin əl işləri, onların sərgilənməsi, respublika rəsm yarış və festivallarına qoşulmaları, nailiyyətlərinin dəyərləndirilməsi onların təlim marağının artmasına, özlərini yaxşı hiss etmələrinə səbəb olur. Təlimdə geri qalan şagirdləri də birbaşa zehni fəaliyyətə cəlb etmək əvəzinə onlarda öncə estetik baxımdan hansısa bacarığı formalaşdırmaqla psixoloji cəhətdən şagirdi yenidən tədrisə cəlb etmək olar (Şəkil 1.13).



Şəkil 1.14. Müəllimlərin şagirdlərin peşəyönümünün müəyyənləşdirilməsində köməkçi rolu

İbtidai sinif şagirdlərinin meyl və maraqları nə qədər dərindən öyrənilərsə, onların təlim fəaliyyətini dəstəkləmək bir o qədər səmərəli alınar. Şagirdləri öz xüsusi bacarıqlarından yola çıxaraq tərbiyə etmək onlara gələcək peşə seçimində də kömək edir. Şagirdlər artıq kiçik yaşlardan öz qabiliyyətlərini, meyl və maraqlarını, eləcə də hansı peşəyə yiyələnmək istədiklərini müəyyənləşdirirlər. Bu prosesdə isə ibtidai sinif müəlliminin peşəkarlıq səviyyəsinin rolu çox böyükdür (Şəkil 1.14).

İbtidai sinif şagirdlərinin meyil, maraq və istəklərini bilməyən, qabiliyyət və bacarıqlarına bələd olmayan müəllim müsbət dəstəkləyici təlim mühiti yarada bilməz. İbtidai sinif müəllimi bir çox fəaliyyətlərdə olduğu kimi, şagirdin şəxsiyyət kimi yönəlişliyinin müəyyənləşdirilməsində də aparıcı qüvvədir. Bu baxımdan müəllim şagirdlərini tanımalı və ehtiyaclarını müəyyənləşdirərək təlimdə onlar üçün dəstəkləyici mühit yaratmalıdır.

### 1.2.3. Müəllim və şagirdlər arasında əməkdaşlıq və müsbət psixoloji iqlim

Motivasiyaedici mühit. İbtidai siniflərdə tədrisi optimal qurmağın ən əhəmiyyətli hissəsi şagird üçün motivasiyaedici mühiti yaratmaqdan ibarətdir. Müəllim şagirdlərə tədrislə əlaqədar meyil və maraqlarına uyğun bacarıqlarını ən yaxşı şəkildə nümayiş etdirmək və nailiyyətlərindən həzz almaq imkanı yaratmalıdır. Müəllim motivasiyaedici mühiti yaratmaq üçün şagirdə onun gördüyü işin dəyərini bildiyini hiss etdirməlidir. Belə olan halda şagird daha çox nailiyyət əldə etməyə cəhd edəcəkdir. Şagirdlərin dəstəklənməsində bunun çox böyük əhəmiyyəti vardır. Şagird təlim prosesində əldə etdiyi hər nailiyyətin, irəliyə doğru atdığı hər addımın öz müəllimi, eləcə də məktəb rəhbərliyi tərəfindən dəyərləndirildiyini dərk edəndə özü üçün daha geniş imkanlara malik nailiyyət istiqaməti əldə edir.



**Şəkil 1.15. Sinifdə müsbət psixoloji iqlim müəllimdən asılıdır**

Motivasiyaedici iqlimi yaratmaq üçün müəllim hər şeydən öncə öz şagirdlərini tanımalıdır. Kimin nəyə marağı var, kim hansı sahədə qabiliyyətə və istedada malikdir, kim nəyi daha yaxşı bacarır – bütün bunlar müəllimə imkan verir ki, o, şagirdin nailiyyətini düzgün qiymətləndirsin. Məsələn, rəsm sahəsində qabiliyyəti olmayan şagirdin cəhd edərək daha yaxşı nəticə əldə etməsi mütləq müəllim tərəfindən dəyərləndirilməlidir. Bu, şagirdə “mən sənin cəhd etdiyini görürəm və bunu dəyərləndirirəm” deməkdir. Xərclədiyi enerjinin müsbət dəyərləndirildiyini görən şagird isə növbəti addımda daha çox enerji xərcləyəcək və daha uğurlu nailiyyət əldə etməyə cəhd göstərəcəkdir (Şəkil 1.15).

İbtidai sinif müəllimi şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq onlarla daha fərqli münasibət qurmalıdır. Bildiyimiz kimi, 6-12 yaşlı şagirdlərin mühüm xüsusiyyətlərindən biri onların hələ ailə mühitindən tam ayrıla bilməmələridir. Onlar çox zaman ailədə gördükləri mehriban münasibətləri məktəbdə görməyəndə davranışlarını idarə edə bilmirlər, daha doğrusu şagirdin gözləntiləri ilə rast gəldiyi münasibət sistemi arasında ziddiyyət yaranır. Bu ziddiyyəti həll etmə istəyi şagirdi olduğundan fərqli davranmağa məcbur edir. Belə hallarda çox vaxt şagirdlərdə aqressivlik, içinə qapanma, digər yoldaşlarına qarşı qısqanclıq, yalançılıq, məsuliyyətsizlik kimi bir çox mənfi davranış əksiklikləri meydana gələ bilər. Ona görə də ibtidai sinif müəllimi öz şagirdləri ilə münasibətlərini ailə münasibətlərinə yaxın zəmində qurmalıdır. Bu yaş aralığında şagirdlər özlərinə qarşı xüsusi diqqət və maraq tələb edirlər. Ona görə də müəllim şagirdlərlə münasibətində takesik (toxunma vasitəsi) ünsiyyətdən daha çox istifadə etməyə üstünlük verməlidir. Dördüncü sinifdən etibarən bu ünsiyyət tərzini nisbətən azaltmaq lazımdır ki, onlar orta təhsil müddətinə keçərkən kəskin ziddiyyətlə üzləşməsinlər.

Müəllimin peşə və insani keyfiyyətlərinin mühüm tərəflərindən biri şagirdlərlə münasibətlərin idarə edilməsi, yalnız özü ilə deyil, həm də şagirdlər arasında pozitiv və dəstəkləyici münasibətlərin təmin edilməsidir. Müəllimlər şagirdlər ilə qarşılıqlı əlaqədə olmaq, şagirdlər arasında qarşılıqlı əlaqələri dəstəkləmək və sövq etməklə sinifdə hörmət və qarşılıqlı anlaşma mühiti yaradırlar.

Hörmət və qarşılıqlı anlaşma prinsipinə əməl etmək müəllimdən xüsusi pedaqoji bacarıq tələb edir. Burada əsas yük müəllimin üzərinə düşür. Müəllim şagirdləri ilə münasibətləri necə tənzimləyirsə, bu onların sonrakı fəaliyyətinə mütləq şəkildə təsir edir. Hörmət və qarşılıqlı anlamanın mövcud olduğu siniflər məktəbdə daha səmərəli nailiyyət əldə etmələri ilə seçilirlər, çünki münasibətlərin tərzi şagirdə birbaşa psixoloji təsir edir. Sinif mühitində aqressiv münasibətlə qarşılaşmayan şagird dərslərinə daha yaxşı diqqət

ayıra bilir.

Qarşılıqlı ünsiyyət formaları sinfin ümumi birliyinə böyük təsir göstərir. Hörmətin mövcud olduğu mühitdə bütün şagirdlər özlərini dəyərli, təhlükəsiz və rahat hiss edirlər, yoldaşları və müəllimləri ilə düşündüklərini və ideyalarını bölüşməkdən çəkinmirlər. Onlar başa düşürlər ki, söylədikləri fikir heç kim – nə müəllimləri, nə sinif yoldaşları tərəfindən qeyri-adi qarşılanmayacaq.

Müsbət psixoloji iqlim yaratmaqda əhəmiyyət kəsb edən qarşılıqlı əlaqə tipləri aşağıdakılardır:

- Müəllimin şagirdlərlə qarşılıqlı əlaqəsi. Müəllimlərin şagirdlərlə qarşılıqlı əlaqəsi ümumi sinifdaxili münasibətlərin tənzimləyicisi rolunda çıxış edir. Çünki bütün digər münasibət növləri müəllimin şagirdlərlə ünsiyyətindən qaynaqlanır. Şagirdlərin bir-biri ilə ünsiyyəti də, valideynlərlə məktəb arasında olan ünsiyyət də, məktəb rəhbərliyi ilə şagirdlər arasında olan ünsiyyət və şagirdlərin digər cəmiyyət fərdləri ilə ünsiyyət tərzləri sinifdə gördükləri ünsiyyət modelindən qaynaqlanır;
- Şagirdin digər şagirdlərlə qarşılıqlı əlaqəsi. Müəllimin şagirdlərlə ünsiyyətindən əlavə şagirdlərin bir-biri ilə ünsiyyəti də sinifdaxili münasibətlərin tənzimlənməsində rol oynayır. Sinifdəki şagirdlərin bir-biri ilə ünsiyyət tərzinin müsbət tonlarda qurulması şagirdlərin özlərini həmyaşıdları tərəfindən təcrid olunmuş kimi hiss etmələrinə mane olur. Şagirdlər arasında pozitiv qarşılıqlı əlaqələr dəstəkləyici xarakterə malikdir və öyrədici, dəstəkləyici təlim mühitinin formalaşmasına səbəb olur. Qeyd etdiyimiz kimi, şagirdlərin bir-biri ilə ünsiyyətinin tənzimlənməsində müəllimin böyük rolu vardır;
- Valideynlərin məktəblə qarşılıqlı əlaqəsi. Valideynlərin məktəblə qarşılıqlı əlaqəsinin düzgün qurulması birbaşa ibtidai sinif müəllimindən asılıdır. Çünki valideynlər qarşısında ilk məsul şəxs, cavabdehlik daşıyan insan ibtidai sinif müəllimi hesab olunur. Ona görə də müəllim ilk gündən valideynlər ilə kollektiv və fərdi söhbətlər aparmalı, onların məktəblə münasibətlərinin müsbət qurulmasını təşkil etməlidir. Valideynlərin məktəblə qarşılıqlı əlaqəsi nə qədər yaxşı qurularsa, onların övladları, yəni şagirdlər üçün o qədər çox dəstəkləyici təlim mühiti yaranmış olar;
- Müəllimlərin bir-biri ilə qarşılıqlı əlaqəsi. Müəllimin öz şagirdləri ilə, şagirdlərin bir-biri ilə qarşılıqlı əlaqəsi necə əhəmiyyət daşıyırsa, müəllimlər arasında qarşılıqlı müsbət ünsiyyət modelinin qurulması da o qədər əhəmiyyətə malikdir. Müəllimləri arasında dostluq və əməkdaşlıq münasibətini müşahidə edən şagirdlər təlimdə hansısa bir çətinliklə üzləşdikləri zaman onu bütün müəllimləri ilə bölüşürlər. Onlar anlayırlar ki, mövcud problem bütün müəllimləri üçün maraqlıdır və müəllimlər birgə əməkdaşlıqla onun öhdəsindən gələcəklər. Məktəblərdə müəllimlərin ünsiyyət tərzinin normal olmaması şagirdləri öz problemlərini gizli saxlamağa vadar edir;
- Şagirdin digər cəmiyyət fərdləri ilə qarşılıqlı əlaqəsi. Düzgün təşkil olunmuş

ünsiyyət tərzi şagirdi ictimai həyata hazırlamaqda böyük qüvvədir. Şagird məktəbdə və ailədə gördüyü ünsiyyət modelini digər insanlarla ünsiyyətində istifadə edir. Başqa sözlə, şagirdlər böyüklərin təqlidedicisidirlər. Ona görə də müəllim şagirdlərlə əməkdaşlığı elə şəkildə qurmalıdır ki, şagird müsbət ünsiyyət tərzini həyat amalına çevirsin. İnsanlarla ünsiyyət tərzini yaxşı şəkildə qurmaq onda əqidəyə çevrilmiş olsun. Bildiyimiz kimi, tərbiyə prosesində hislərin dərk olunması və fəaliyyətin formalaşması prosesləri bir-birindən asılıdır. Bu baxımdan şagird düzgün ünsiyyətdən, müsbət qarşılıqlı əlaqələrdən zövq almalıdır və bu onda vərdişə çevrilməlidir. Yaşlılara kömək etmək, kiçiklərə qayğı göstərmək, heyvanlara mərhəmət hissi, humanizm, nəzakətli davranış və danışıq tərzinin formalaşması bilavasitə müəllimin sinifdə qurduğu və şagirdlərə ötürdüyü münasibət sistemindən asılıdır.

Müəllim və şagirdlər arasında qarşılıqlı münasibətin dəstəkləyici xarakter daşımasında aşağıdakı ünsiyyət taktikalarından istifadə etmək olar:

- Dəstəkləyici səs tonundan istifadə etmək. Müəllimin öz səsini idarə edə bilməsi dəstəkləyici mühitin yaradılması üçün çox lazımlı bir bacarıqdır. Müəllim ünsiyyətdə istifadə etdiyi mümkün 5 səs tonundan elə yararlanmalıdır ki, şagird müəlliminin dəstəyini hiss edə bilsin. Normal halda üçüncü səs tonundan istifadə edən müəllim şagirdə dəstəyini və onu anladığını nümayiş etdirmək üçün ikinci səs tonundan istifadə edə bilər. Bu halda şagird müəllimindən özünə qarşı empatiya hiss edəcək və problemini paylaşmağa çəkinməyəcək;
- Şagirdlərə qulaq asmaq və onları ciddi şəkildə qəbul etmək. Əgər müəllim şagirdə qulaq asırsa, daha doğrusu şagird nəsə anladırsa müəllim onu dinləməli və söylədiklərini ciddi qəbul etməlidir. Şagirdi dinləyirmiş kimi davranmaq, əslində isə onun nə dediyini eşitməmək müəllimlə şagirdlər arasında ciddi ünsiyyət probleminin yaranmasına gətirib çıxara bilər;
- **Şagirdin fəaliyyətini dəyərləndirdiyini nümayiş etdirmək.** Yuxarıda da qeyd etdiyimiz kimi, müsbət əməkdaşlıq mühiti və dəstəkləyici təlim mühitini yaratmaq üçün müəllim şagirdlərin fəaliyyətini düzgün dəyərləndirməlidir. Fəaliyyəti dəyərləndirilən şagird daha çox çalışmağa və başqalarının işini dəyərləndirməyə alışır;
- Fərqli istedada malik şagirdləri dəyərləndirmək. Hər bir sinifdə müəyyən istedadları və fərqli bacarıqları ilə seçilən şagirdlər vardır. Bu şagirdləri dəyərləndirmək və onların fəaliyyətini işıqlandırmaq, eləcə də onların istedadlarına dəstək olmaq müəllimin vəzifələrindən biridir. Fərqli istedada malik şagirdlərin bacarıqlarından sinfin və məktəbin tədbirlərində istifadə etmək də bura aiddir;
- Yumor hissi nümayiş etdirmək. Müəllim həmişə yumor hissinə malik olmalıdır. Bu, pedaqoji kvalifikasiyalarda müsbət insani xüsusiyyət kimi özünü göstərir. Yumor hissinə malik müəllimin sinfi heç vaxt gərgin və aqressiv olmur, eyni zamanda

şagirdlər də fikirlərini deməkdən çəkinmirlər. Baş verən hansısa neqativ bir hadisəni belə yumor hissi ilə qarşılayan müəllim, optimist şagirdlər yetişdirir;

- Şagirdləri sinif və sinifdənkənar fəaliyyətlərin təşkili işinə cəlb etmək. Şagirdlər nə qədər çox məşğul olarlarsa, onlarda mənfi xüsusiyyətlərin yaranması bir o qədər azalar. Bu baxımdan müəllim şagirdləri daim fəaliyyətə cəlb etməlidir. Bu həm də dəstəkləyici təlim mühitinin yaradılması üçün vacib elementdir. Hər zaman müəyyən fəaliyyətə cəlb olunan şagird özünü dəyərli və lazımlı hiss edir. Bu onlara cəmiyyət üçün faydalı olduqları mesajını da ötürür. Bundan başqa müxtəlif fəaliyyətlərə cəlb olunan şagirdlər hansısa təlim çətinliklərindən utanmırlar. “Əgər sənin yaxşı rəsm bacarığın yoxdursa, ya da riyaziyyatda zəifsənsə, bu o demək deyil ki, sən pis lidersən, və ya yaxşı qiraətçi deyilsən”. Bu o deməkdir ki, şagirdlər mütləq hansısa bacarığa sahibdirlər və o bacarıq kəşf olunmalı və ondan istifadə olunmalıdır;

- Şagirdlərin fəaliyyət və davranışında inkişafı diqqətdə saxlamaq. İbtidai sinif müəllimi öz şagirdlərinə birinci sinifdən dördüncü sinifə qədər elə nəzarət və müşahidə sistemi yaratmalıdır ki, hər bir şagirdin davranış və fəaliyyətini izləyə və ondakı irəliləmə və geriləmələri görə bilsin. Şagird hansısa davranışı etdikdə müəllim artıq onu dəyərləndirə bilməlidir ki, bu davranış inkişafı yoxsa geriləməni xarakterizə edir. İnkişafı diqqətdə saxlanılan şagirdi davranış və fəaliyyətinə görə dəstəkləmək daha asan olur.

Müəllim-şagird münasibətlərində əməkdaşlığın pedaqoji əsasları şagirdlərə humanist münasibətdə öz əksini tapır. Müəllimin şagirdlərlə əməkdaşlığını bir pedaqoji prinsip və ya üsul kimi, yaxud da yanaşma kimi başa düşmək olar.

Müəllim və şagirdlər arasında müsbət psixoloji iqlim və əməkdaşlıq münasibətlərinin yaranmasında müəllim təlim-tərbiyə prosesini idarə edərək şagirdlərlə əməkdaşlıq edir, onları özünə köməkçi hesab edir, təlim-tərbiyə prosesinin təşkilində onların fikirlərini, rəy, arzu və təkliflərini nəzərə alır, onlarla hesablaşır. Bu, şagirdə sərbəst şəxsiyyət kimi formalaşmaq imkanı verir.

Birgə həvəs və yaradıcılığa əsaslanan ünsiyyət müəllim və şagirdlərin mənəvi yaxınlığı əsasında qurulur. Bununla bərabər, ünsiyyət dostluq, mehribanlıq, qarşılıqlı hörmət əsasında qurulmalıdır. Bu ünsiyyət tərzinin həyata keçirilməsində səmimiliyi qorumaqla yanaşı, müəllim-şagird ünsiyyətinin sərhədlərini də unutmamaq lazımdır.

Müəllimin şagirdlərlə əməkdaşlığı məqsədə çatmağın, dəstəkləyici təlim mühitini təmin etməyin ən səmərəli yolu hesab edilir. Əməklaşlıq prosesində bu və ya digər bilik hazır şəkildə şagirdlərə verilmir, əksinə şəxsiyyətin hərtərəfli inkişafına, şagirdlərin özlərini tam ifadə etməsinə, şüurlu həyata, azad fikir və davranışa, onların öz həyat yolunu özlərinin müəyyənləşdirməsinə geniş şərait yaradılır.

Demokratik əməkdaşlıq tərzinin aparıcı ünsiyyət tərzi kimi seçilməsi şagirdlərin məktəbdə dəstəklənməsi və onların düzgün şəkildə formalaşdırılması üçün əsas amildir. Bu ən düzgün və humanist əməkdaşlıq hesab edilir. Belə əməkdaşlıqda müəllim şagirdlərlə

işgüzar münasibətdədir. Müəllim uşaqların arzu və maraqlarını, fərdi psixoloji xüsusiyyətlərini ciddi nəzərə alır. O, uşaqların səviyyəsinə enməyi bacarır, onların dilində danışa bilir. Demokratik əməkdaşlıq quran müəllim sinifdə tək olmadığını və şagirdlərin də onunla bərabərhüquqlu vətəndaşlar olduğunu bilir.

Demokratik əməkdaşlığa malik müəllim hər bir şagirdə böyük hörmət və ehtiramla yanaşır. O öz fəaliyyəti ilə uşaqlarda azadfikirlilik, yaradıcılıq, təşəbbüskarlıq, tənqidi təfəkkür, qeyri-standart düşüncə formalaşdırır. Bu baxımdan müəllim və şagird arasında müsbət münasibətlərin və ünsiyyət tərzinin yaranması çox vacibdir.

### 1.2.4. Təlimdə geri qalan şagirdlərin və istedadlı şagirdlərin fərqli dəstəklənmə yolları

Təhsil bütün şagirdlər üçün eyni təşkil olunsa da, onun nəticəsi bütün şagirdlərdə eyni olmur. Təlim mühiti, təhsil prosesi hər bir şagirddə fərqli şəkildə müşahidə oluna bilər. Bunun əsas səbəbi hər bir şagirdin özünəməxsus idrak fəaliyyətinə, emosional sabitliyə, iradəyə, xarakterə malik olması və özünəməxsus fərdi xüsusiyyətlərinin olmasıdır. Təhsil prosesində müsbət nəticələr əldə etmək üçün hər bir şagirdə fərdi yanaşmaq və onun imkanlarından düzgün istifadə etmək lazımdır. Təlimdə geri qalan və ya istedadlı şagirdlərin də dəstəklənmə yolları bu baxımdan fərqlidir.

Təlimdə geri qalan şagirdləri necə dəstəkləmək olar?

Təlimdə geri qalan şagirdlər anlayışı hazırda pedaqogikada geniş yayılmış bir anlayışdır. Təlimdə geri qalmadan bəhs edərkən qeyd etmək lazımdır ki, bütün şagirdlərin təlimdə geri qalmasının səbəbləri eyni deyil. Bu səbəblərin müxtəlifliyi şagirdlərə də fərqli yanaşmanın və onları dəstəkləmə üsullarının fərqli olmasının vacibliyini önə sürür.

Təlimdə geri qalan şagirdləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. **Motivasiya zəifliyi.** Təlimdə geri qalan şagirdlərin böyük bir qismi motivasiya zəifliyindən təlimdə geri qalırlar. Öyrənməyə marağın olmaması, təlimin cansıxıcı və gərgin keçməsi, dərsin maraqsız tədris olunması və s. kimi hallar şagirdlərin motivasiyasının azalmasına səbəb olur. Xüsusən ibtidai siniflərdə şagirdlər dərs maraqsız olarsa, ona qulaq asa bilmirlər. Onların ixtiyari diqqəti zəif və qısamüddətli olduğundan dərsdən tez yayınırlar. Nəticədə təlimdə anladılan mövzunun mühüm tərəflərini itirir və mənimsəmədə çətinlik yaşayırlar. Təlimdə geri qalmanın bu növünü aradan qaldırmaq üçün müəllim dərslərini daha maraqlı etməli və şagirdi ona maraqlı olan təlim fəaliyyətinə cəlb etməlidir. Təlimin müxtəlifliyi, materialların rəngarəngliyi imkan verir ki, təlimdə motivasiya zəifliyi olan uşaqlar yenidən dərsə cəlb edilsin.

2. **Tənbəllik.** Zəif oxuyan şagirdin müəyyən qismini səhv olaraq əqli cəhətdən geri qalmış hesab edirlər. Belə şagirdlər təlim materialını anlamağa, onun haqqında müstəqil düşünməyə cəhd göstərmir, ən çox mexaniki əzbərləməyə meyil edirlər. Şagirddə bu nöqsanı arada qaldırmaq üçün müəllim çox sadə mətnlərdən başlayaraq şagirdi düşünməyə sövq etməli və onu bu şəkildə dəstəkləməlidir.

Şagirdin təlimdə geri qalması tənbəllikdən qaynaqlanırsa, şagirdi sadəcə daha çox fəaliyyətə cəlb etmək və onda çalışma hissi yaratmaq lazımdır. Sərbəst çalışmanı vərdiş halına keçirəndən sonra bu şagirdlərdə təlimdə geridə qalma aradan qaldırılmış olur.

3. **Öyrənmədə yanlış taktika.** Təlimdə bu cür geridə qalan şagirdlər dərsi öyrənmə tərzlərindən düzgün istifadə etmirlər və ya istifadə etdikləri tərzlər çoxlu zəhmət tələb edir və az səmərə verir. Bu qrupa daxil olan şagirdlərin bəziləri mətni oxuyarkən mühüm cəhətlərə fikir vermir, materialı məntiqi hissələrə bölmürlər. Şagirdlərin əksəriyyəti dərsi bir-iki dəfə oxuduqdan sonra öz-özünə nağıl etmir, hafizədə canlandırmır, yalnız oxumaqla kifayətlənir. Beləliklə, şagird materialı nə dərəcədə mənimsəməsini yoxlaya bilmir. Bu cür şagirdlərin dəstəklənməsi müəllimdən bir az çox məsuliyyət və diqqətlə izləmə bacarığı tələb edir. Çünki müəllim belə olan halda yenidən tərbiyəyə müraciət etməli olur. O, ilk növbədə şagirdin yanlış öyrənmə tərzini ləğv etməli və yeni üsulları şagirdə mənimsətməlidir;
4. **Tələskənlik.** Şagirdlərin bir qisminin təlimdə geri qalmasına məhz tələskənlik səbəb olur. Bu daha çox hiperaktiv şagirdlərdə müşahidə olunur. Onlar tələskənlik və bir işin üzərində diqqətlərini uzun müddət cəmləyə bilməmək üzündən təlimdə geri qalırlar. Məsələnin mahiyyətinə varmamaq, tələsik öyrənmək, ümumiləşdirmə aparmaq üçün hövsələnin olmaması bu şagirdlərin əsas problemidir. Bu cür şagirdləri dəstəkləmək üçün müəllim dərsdə daha çox mahiyyətin açılmasını tələb edən suallar verməlidir ki, şagird mətni, məsələni bir daha oxusun və gözdən qaçırdığı nüansı dərk edə bilsin. Əslində, təlimdə geri qalan uşaqların bu tipi çox dərrakəli və iti təfəkkürlü olurlar. Onlar sadəcə hiperaktivlik üzündən materialı tam oxumurlar.
5. **Tədris işinin düzgün təşkil olunmaması.** Təlimdə şagirdlərin geri qalmasının mühüm səbəblərindən biri də tədris işinin düzgün təşkil olunmamasıdır. Buna iki şey səbəb ola bilər: müəllimin seçdiyi metodika şagirdə uyğun deyil, və ya şagird tədris rejiminə düzgün riayət etmir, dərsi istirahət etmədən hazırlaşmağa başlayır və s. Dərsdə geridə qalan şagirdlər içərisində elələri də var ki, müstəqil iş icra edərkən uzun vaxt sərf edir, bir işdən digərinə vaxtında keçə bilmirlər. Belə şagirdlərin dəstəklənməsi üçün müəllim həm öz tədris metodikasında dəyişiklik edə bilər, həm də şagirdi fərqli yanaşmaya sövq etməklə təlimdə geri qalmanı aradan qaldıra bilər;
6. **Təlim əməyinə yanlış münasibət.** Təlimdə geri qalan şagirdlərin bir qismi də təlim əməyinə yalnış münasibət bəsləyən şagirdlərdir. Onlar üçün təlim əməyi əziyyətdir. Belə şagirdlər öyrənməni məcburiyyət hesab edir, təlimi sevmirlər. Şagirdləri çətinliyə qarşı, maneələri aradan qaldırmaq uğrunda elə tərbiyə etmək lazımdır ki, onlar çətinlikdən qorxmasınlar və onlarda əməyə düzgün münasibət formalaşsın. Belə şagirdlərdə əməksevərlik tərbiyə etmək üçün onları məktəbin

ictimai işlərinə cəlb etmək lazımdır. Şagirdin nələri sevdiyini öyrənib təlim elementinə daxil etmək də onlarda geridə qalmanı dəstəkləyə bilər.

7. **İdrak maraqlarının fərqliliyi.** Təlimdə geri qalan şagirdlərin bir qismi də idrak maraqlarının fərqliliyi üzündən bu problemi yaşayırlar. Məsələn, riyaziyyata xüsusi marağı olan şagirdlər bəzən yazı yazmaq istəmirlər, bu onlar üçün maraqsız və yorucu gəlir. İdrak maraqlarının şagirdlərin müvəffəqiyyətlə oxumaları üçün böyük əhəmiyyəti vardır. Bu marağa malik şagirdlər üçün təlim prosesi cəlbedici və asan olur, belə marağı olmayan şagird isə dərsi oxuyursa da səthi mənimsəyir. Bu da şagirdin geri qalmasına səbəb olur. Buna görə də şagirdlərdə maraqları inkişaf etdirmək vacibdir. Uşaqlarda maraqların inkişaf etdirilməsi üçün onların müxtəlif fənn dərnəklərində iştirakı, müəllimin pedaqoji məharəti, marağı olan fəaliyyət sahəsinə yönləndirilməsi mühüm əhəmiyyətə malikdir.

8. **Müxtəlif xəstəliklər.** Bədənin sağlam olmaması zəif oxumağa səbəb olur. Belə şagirdlər dərsdə diqqətsiz olur, materialı uzun müddət yadda saxlaya bilmir, tez yorulur və s. Sağlam olmayan şagirdlər istər-istəməz tədris prosesindən fasilələrlə kənarda qalır və onlarda öyrənmə zənciri qırılır. Materialın davamlı mənimsənilməməsi isə belə şagirdlərin təlimdə geri qalmasına səbəb olur. Belə şagirdlərə fərdi yanaşılmalı, lazım gələrsə onlarla əlavə məşğul olunmalıdır ki, onlar da materialı mənimsəyə bilsinlər. Müəllim onların sağlamlığının qeydinə qalmalı, müalicəsinə, istirahətinə, gün rejiminə, hər səhər idmanla məşğul olmasına ciddi fikir verməlidir. Belə şagirdləri dəstəkləmək üçün müəllim onun sinif yoldaşlarının köməyindən də istifadə edə bilər. Həmin şagirdə nisbətən yaxın ərazidə yaşayan başqa bir şagirdin onunla əməkdaşlıq etməsini, evlərinə gedərək tapşırıqlarında kömək etməsini və s. təmin etmək olar.

9. **Dərs buraxmaq.** Dərslərə müntəzəm davam etmədikdə də təlimdə geri qalma baş verir. Şagird bəzən gecikir, arabir dərs buraxır və ya dərsə bir neçə gün gəlmir. O bu günlərdə keçilmiş dərsləri öyrənmir. Buraxılan dərsləri hazırlamamaq müəyyən dərslərin müvəffəqiyyətlə mənimsənilməsinə mənfi təsir edir, şagirdin geri qalmasına, zəif oxumasına səbəb olur. Müəllim dərs buraxmanın qarşısını vaxtında almalıdır. Əks halda bu şagirddə adətə çevrilir, sonra da şagirdə bunu tərgitmək çox çətin olur. Müəllim belə şagirdlərə fərdi yanaşmalı, onların dərs buraxmalarının səbəbini öyrənməli, lazımi tədbirlər görməlidir. Məktəb rəhbərləri, uşaq və gənclər təşkilatları bu işdə müəllimə yaxından kömək etməlidir;

10. **Ailə problemləri.** Təlimdə geri qalmanın səbəblərindən biri də ailədə şagirdin dərsə hazırlaşmasına lazımi şəraitin yaradılmamasıdır. Bəzən evdə valideynlərdən birinin, və ya hər ikisinin yoxluğu, düzgün olmayan həyat tərzi, şagirdə diqqət ayırmaması onların təlimdə geri qalmasına səbəb olur. Bəzi ailələr evdə uşağı nəzarətsiz buraxır, yaxud ev işləri ilə həddindən artıq yükləyirlər. Hətta, bəzi ailələr şagirdləri işləməyə təhrik edir. Belə olan halda təbii ki, şagird təlimdə geri qalmağa məcbur olur. Bu cür şagirdləri dəstəkləmək üçün müəllim məktəb

psixoloqu ilə birlikdə ailələrlə yaxın əlaqə yaratmalı, bu işdə valideynlərə düzgün göstəriş verməli, kömək göstərməlidir. Şagirdin içində olduğu mənfi durumun aradan qaldırılması onun həm psixoloji, həm də təhsil durumunun yaxşılaşmasına səbəb olur.

11. **Şagirdin qabiliyyətinin düzgün qiymətləndirilməməsi.** Şagirdin qüvvə və qabiliyyətini düzgün qiymətləndirmədikdə də təlimdə geri qalma halları baş verir. Şagirdlərin malik olduğu qabiliyyətlərdən düzgün istifadə etmək lazımdır. Musiqi sahəsində qabiliyyəti olmayan bir şagirdi musiqini öyrənməyə sövq etmək onun təlimdə geri qalmasına səbəb olmaqdır. Yəni şagirdi öz təbii qabiliyyətlərindən kənar fəaliyyətə sövq etmək, onda psixoloji yorğunluq yaradır və şagirdin təlimdə geri qalmasına səbəb olur. Buna görə müəllim şagirdləri dəstəkləmək üçün onlara qabiliyyətlərinə uyğun fəaliyyətlə məşğul olmaqda köməklik göstərməlidir;
12. **Şagirdin həddən artıq yüklənməsi.** Şagirdlərin böyük bir qismi də həddən artıq yüklənmə səbəbindən təlimdə geri qalırlar. Məktəbdə ev tapşırıqlarının həddən artıq verilməsi, valideynlərin öz uşaqlarını müxtəlif əlavə kurs və dərnəklərə yazdırması, şagirdi qüvvəsindən artıq iş görməyə məcbur etmək fiziki yorğunluq yaradır və şagirdlər təlimdə geri qalırlar. Bu tip geridəqalmanın qarşısını almaq üçün müəllim şagirdlərə gün rejimi cədvəli tərtib edə bilər. Ev tapşırıqlarının azaldılması da dəstəkləyici tədbirlər sırasındadır. Bundan başqa, valideynlərlə maariflənidirici söhbətlər aparmaq, onları şagirdin yaş və fərdi xüsusiyyətləri, imkanları ilə tanış etmək müsbət nəticə verər.

Təlimdə geri qalan şagirdlər kimi istedadlı şagirdlər də dəstəklənməlidir. İstedadlı şagirdlərin dəstəklənmə metod və formaları isə təbii ki, təlimdə geridə qalan şagirdlərin dəstəklənmə metodlarından fərqlidir. Müəllim bu fərqləri nəzərə almalı və öz fəaliyyətində geniş istifadə etməlidir.

Bəzən müəllimlər elə düşünürlər ki, təlimdə dəstəkləyici mühit ancaq müəyyən çətinlikləri olan şagirdlər üçün yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, hər bir şagirdin dəstəyə və müsbət öyrədici təlim mühitinə ehtiyacı vardır. Təhsildə dəstəkləyici mühit yaradılarkən istedadlı uşaqlara dəstək məsələsi də diqqətdə saxlanılmalıdır. Əslində təlimdə geri qalan şagirdlər üçün nə qədər fərqli dəstəkləmə üsulları mövcuddursa, istedadlı uşaqlar üçün də dəstəkləyici mühiti yaratmağın müxtəlif üsulları vardır.

İstedadlı şagirdlərin vaxtında aşkarlanması, dəstəklənməsi və inkişaflarının təmin edilməsi təlimin və müəllimin qarşısında duran mühüm vəzifələrdəndir. İstedadlı şagirdlər üçün sinifdə və ümumi məktəb mühitində elə şərait yaratmaq lazımdır ki, onların xüsusi bacarıqları daha da inkişaf etsin və şagird özünü psixoloji komfort zonasında hiss etsin. Dəstəkləyici mühiti təşkil edərkən müəllimlər hər şeydən öncə psixoloji komfort zonasının təşkilini nəzərdə tutmalıdırlar. Şagird ancaq özünü təhlükəsiz və əmin mühitdə hiss edərsə, onun təfəkkürü problemsiz stimullaşar və şagird təlimdə yüksək nailiyyətlər əldə edə bilər.

İbtidai sinif müəllimlərinin istedadlı uşaqlarla işi mürəkkəb və çoxtərəfli bir prosesdir. İstedadlı şagirdlərlə iş müəllimdən öz peşəkarlığını daim yüksəltməyi, şagirdlərin inkişafını

daim nəzarətdə saxlamağı, psixoloqlarla, digər müəllimlərlə, valideynlərlə əməkdaşlığı nəzərdə tutur. İstedadlı şagirdlər üçün dəstəkləyici mühiti yaratmaq müəllimdən sistemli komanda işi tələb edir.

Məktəbdə təlim mühiti elə təşkil olunmalıdır ki, bütün şagirdlər öz fərdi bacarıqları daxilində mümkün olan maksimal inkişaf səviyyəsinə çata bilsinlər. İstedadlı şagirdlərin hamısı üçün fərqli məktəblər və xüsusi proqramlar tətbiq etmək mümkün deyil. İstedadlı şagirdləri dəstəkləmək üçün onlara fərdi qabiliyyətləri daxilində tapşırıqlar vermək, əyani vəsaitləri zənginləşdirmək, istedadlı şagirdlərin məhsullarından (elmi biliklər, yaradıcılıq işləri, əl işləri və s.) sinfin ümumi inkişafı üçün istifadə etmək vacibdir.

İstedadlı şagirdlərin dəstəklənməsi üçün tədris olunan fənlərin ən dərin elmi-nəzəri materiallarını ümumiləşdirmək və şagirdlərə istedadları daxilində bacarıq və vərdişləri aşılamaq üçün təlim işini elə təşkil etmək lazımdır ki, şagirdlərdə yaradıcılıq təffəkürü və idrak fəaliyyəti daha da inkişaf etsin. İstedadlı şagirdlər hadisə və proseslər arasında səbəb və nəticə əlaqələrini aşkara çıxarmaq, onlar arasında müqayisə aparmaq, müşahidə və faktlardan müstəqil nəticə çıxarmaq, analiz və sintez etmək, mücərrədləşdirmək, ümumiləşdirmək, idrak fəaliyyətinin aktivləşdirilməsi üçün tapşırıqlardan optimal istifadə etmək bacarığına malik olurlar.

İstedadlı şagirdlərin dəstəklənməsi üçün müəllimlər müstəqil işlərin müxtəlif növlərindən geniş istifadə etməlidirlər. Şagirdin müstəqil tədqiqat aparma bacarığı, elmi faktları təhlil edə bilməsi, fəaliyyətlərini yaradıcı şəkildə davam etdirməsi onun mühüm keyfiyyətlərindəndir. Şagirdlər müstəqil işlərlə sərbəst məşğul ola bilsinlər deyə onlar bir çox materiallarla təmin olunmalıdırlar. Müxtəlif məlumat kitabları, elmi-kütləvi xarakterli kitabçalar və s. üzərində iş, referatlar, məruzələr, əyani vasitələrin (sxem, cədvəl, stend, cihaz, model və s.) hazırlanması bu materiallara aid edilə bilər.

İstedadlı şagirdlər öz yaşıdlarından müxtəlif xüsusiyyətlərinə görə fərqlənirlər. Belə ki, onlar yaşıdlarına nisbətən qabiliyyətlərinin yüksək səviyyəsinə çatır və buna görə də fərqli nailiyyətlər əldə edirlər. İstedadlı şagirdlər təlim fəaliyyətində digər yoldaşlarına nəzərən daha aktivdirlər. Onlar yorulmadan çalışma bacarığına malik olurlar və daim özlərində əlavə təlim motivasiyası yarada bilirlər. Müəllimlər istedadlı şagirdləri dəstəkləmək üçün onlara xüsusi qayğı ilə yanaşmalı, şagirdlərin fərdi qabiliyyətlərini inkişaf etdirmələrinə yardımçı olmalıdırlar.

İstedadlı şagirdlərdən bəhs edərkən onların təlim zamanı daha aktiv olmasını və çox çalışma istəyini vurğuladıq. Lakin elə istedada malik uşaqlar vardır ki, onlar təlimdə müəyyən çətinlik yaşamaları ilə seçilirlər. Bu qism istedadlı şagirdlər daha çox bədii sahədə xüsusi qabiliyyəti ilə seçilən şagirdlərdir. Onlar mükəmməl rəsm bacarığına, musiqi və bədii yaradıcılığa malik şagirdlər ola bilər. Bu şagirdlərin təlimdə rastlaşdığı ən böyük çətinlik onların digər fənlərə marağının az olmasıdır ki, həmin şagirdlər müxtəlif fənlərdən aşağı qiymətlər alsalar da, fərdi qabiliyyətlərini əhatə edən fənlərdən yüksək nəticələr əldə edirlər. Belə şagirdlərin dəstəklənməsi üçün müəllimlər digər fənlərə də maraq oyatmalı, həmin fənnin materiallarını istedadlı şagirdin meyil və maraqlarına uyğunlaşdırmalıdırlar.

İstedadlı şagirdlər hər şeyi ətraflı öyrənmək və əlavə məlumat almaq istəyi ilə

seçilirlər. Belə şagirdlərin dəstəklənməsi üçün müəllim əlavə ədəbiyyatlar tövsiyə etməli, şagirdin fəaliyyətini dəyərləndirməyi bacarmalıdır. Hansısa faktı dəqiqləşdirmiş şagirdə imkan yaratmaq lazımdır ki, o öz uğurunu şagird yoldaşları ilə bölüşsün və lazım gələrsə, onlara da öyrəndiklərini öyrətsin. İstedadlı şagirdlər öz bacarıqlarına əsaslanaraq, digər yoldaşlarından daha yaxşı müstəqil çalışa bilirlər.

İstedadlı şagirdlərlə aparılan işin dərs prosesi ilə məhdudlaşdırılmaması, dərsdənkənar məşğələlərin müxtəlif növlərindən bu məqsəd üçün istifadə olunması onların idrak maraqlarının aktivləşməsinə, qabiliyyətlərinin inkişafına təsir göstərir.

### 1.2.5. İnkişafetdirici tapşırıqlar vasitəsilə şagirdlərin dəstəklənməsi

İbtidai sinif şagirdlərinin meyil, maraq və qabiliyyətlərinə görə dəstəklənməsi onlarla xüsusi tapşırıqlar üzərində işləməyi tələb edir. Şagirdlərin ibtidai sinif səviyyəsində ümumi yaş xüsusiyyətləri olsa da, onların hər biri öz fərdi xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Bu fərqlənmə prosesinin aşkara çıxarılmasında inkişafetdirici tapşırıqların mühüm rolu vardır. Ümumiyyətlə, tapşırıqlar sistemi bütün şagirdlər üçün eyni şəkildə nəzərdə tutulmur. Müəllimlər bəzən yanlış olaraq elə fikirləşirlər ki, dərslikdə və ya hansısa didaktik vəsaitdə verilən tapşırıqlar bütün sinif şagirdləri üçün nəzərdə tutulmuşdur. Məsələn, ana dili və riyaziyyat kimi fənlərdə verilmiş tapşırıqları şagirdlərin fərdi bacarıq və istedadlarını, eləcə də təlimdə geri qalan şagirdləri nəzərə almadan bütün sinfə təqdim edirlər. Lakin bu davranış yanlışdır və müəllimin pedaqoji cəhətdən təcrübəsizliyinin sübutudur. Tapşırıqlar müəllim tərəfindən təhlil edilməli və çətinlik dərəcəsinə görə şagirdlərə təqdim edilməlidir. İnkişafetdirici tapşırıqları verərkən də müəllim bu xüsusiyyətlərə əməl etməlidir. Şagirdlərin hər birinin fərdi xüsusiyyətlərini nəzərə almalı və onları fəaliyyətə cəlb etməlidir. İnkişafetdirici tapşırıqlar digər tapşırıqlardan yaradıcı mahiyyətə malik olmaları və şagirdin təfəkkürünü hərəkətə gətirmələri ilə seçilir. Müəllim əvvəlki paraqrafda qeyd etdiyimiz kimi, istedadlı və təlimdə geri qalan şagirdlər üçün bu tapşırıqları müəyyənləşdirməli və səviyyələrinə uyğun şagirdlərə tapşırmalıdır.

Müəllim bilməlidir ki, bütün şagirdlərin öyrənmə üsulları və qəbuletmə kanalları müxtəlifdir. Onlar müxtəlif yollarla, müxtəlif anlarda öyrənirlər:

- Şifahi: danışılan və ya yazılan sözlər ilə öyrənmə (yaddaş, xatırlama);
- Məntiqi: mülahizələr (rəqəmlər, nümunələr, ölçülər) və hesablamalar vasitəsilə öyrənmə;
- Vizual (əyani/görmə): əyani vəsaitlər ilə öyrənmə (xəritələr, diaqramlar, şəkillər);
- Bədən: hərəkət vasitəsilə öyrənmək (oyun, səhnəcik);
- Musiqi: səslər (qafiyə, ritm, təkrarlama) vasitəsilə öyrənmə;
- Şəxsiyyətlərarası: qrup işi vasitəsilə öyrənmə (sosial əlaqələr);
- Şəxsiyyətdaxili: fərdi təhlil üsulu ilə öyrənmə (fərdi iş, fikri cəmləmək).

Hovard Qarnerin şəxsiyyətin inkişaf tiplərinə aid nəzəriyyəsi də bununla əlaqədardır. Hər bir şagird öz fərdi xüsusiyyətlərinə uyğun vasitələrlə təmin olunarsa, onda öyrənmənin səmərəsi optimal həddə çatar.

Şagirdlərin təfəkkürünün canlanması və onların təlim fəaliyyətinin dəstəklənməsi üçün müəllim hər zaman müxtəlif inkişafetdirici tapşırıqlardan istifadə etməlidir. Bu tapşırıqları həm dərs daxilində, həm də dərsdənkənar fəaliyyətlərdə tətbiq etmək olar. Bundan başqa, şagirdlərə ev tapşırığı verərkən də nəzərilikdən yayınmaq, daha çox praktik və şagirdin təfəkkürünü inkişaf etdirən yaradıcı tapşırıqlardan istifadə etmək lazımdır. Məsələn, dördbucaqlı və düzbucaqlıları və ya dairə mövzusunu öyrədərkən şagirdlərə dərslikdəki tapşırıqlar əvəzinə daha yaradıcı tapşırıqlar vermək olar. Onlara evlərində rastlaşdıqları dördbucaqlı və ya dairə formasında olan əşyaları müəyyənləşdirmələri, onların şəklini çəkmələri, haqqında təqdimat etmələri (nisbətən yuxarı, III-IV siniflərdə) tapşırıla bilər. Belə olan halda şagird ev tapşırığını icra etməyə əziyyət çəkməyəcək, və ya valideyndən bu sahədə yardım istəməsinə ehtiyac qalmayacaqdır. Onlar öz təcrübələrinə əsasən həmin əşyaları müəyyənləşdirəcəklər. Daha sonra bu tipli tapşırığı dərsdə davam etdirmək olar. Bunun üçün şagirdlərə müəyyənləşdirdikləri əşyaların ortaq və fərqli cəhətlərini tapmaq, onları müqayisə etmək, hansı əşyaların çoxluq təşkil etdiyini və bunun səbəbini araşdırmaq tapşırıla bilər (Sxem 1.4).




**Sxem 1.4. Təfəkkürün növləri**

Müəllimlərin şagirdləri düzgün dəstəkləməsi üçün onların peşəkarlığı ilə yanaşı, yaradıcı olmaları da mühüm rol oynayır. Müəllim özü yaradıcı ruha malik deyilsə, onun sinfindəki şagirdlər də müəyyən çətinliklər yaşamağa məcbur olacaqlar. Maraqsız və sönük təşkil olunan dərs, tapşırıq şagirdin diqqətini çəkə bilməz. Xüsusilə ibtidai sinif şagirdlərinin yaş səviyyəsi təlimin rəngarəng və yaradıcı, bütün tapşırıqların əyani-obrazlı olmasını tələb edir.

İnkişafetdirici tapşırıqların bir sıra xüsusiyyətləri vardır:

- Motivasiyaedicilik;
- Təfəkkürün stimullaşdırılması;
- Rəngarənglik;
- Çətinlik dərəcəsinə maliklik;
- Praktiklik;
- Yaradıcılıq;
- Əyanilik;
- Çoxfunksiyalılıq və s.

Şagirdlərin fəza fiqurları ilə işləmələri onların təfəkkürünün inkişaf etməsində mühüm rola malikdir. Fəza fiqurları ilə işləmək şagirdlərə 3 ölçülü düşünmək imkanı verir və onların görmədən təsəvvüretmə imkanlarını inkişaf etdirir. Məsələn, silindir, prizma, kub və s. kimi fəza fiqurlarını düzəltmək, onları özlərinə aid boşluqlara yerləşdirmək şagirdlərə imkan yaradır ki, onlar öz düşüncələrini inkişaf etdirsinlər. Şəkildə gördüyünüz əşyaların hazırlanması və onlar üzərində işi inkişafetdirici tapşırıq kimi II-III sinif şagirdlərinə təqdim etmək olar (Şəkil 1.16).



**Şəkil 1.16. Fəza fiqurlarının hazırlanması və onlar üzərində iş**

Birinci sinif şagirdlərinin toplama və çıxma əməlləri üzərində əməliyyatlar aparmaları üçün aşağıdakı tipli çalışmalar vermək olar. Müəllim tərəfindən hazırlanmış plakatda hesablama əməllərini yerinə yetirmək üçün xüsusi boş damaları olan karton lövhə yerləşdirilir. Bu lövhənin üzərinə isə hesablanması tələb olunan rəqəmlərin (toplananlar, azalan və çıxılan) yazıldığı kağız yapışdırılır. Rəngli yapışqan kağızlardan və ya maqnitlərdən istifadə edərək şagirdlərin hesablama əməlini həyata keçirməsi istənilir. Bu, rəngləri qavramağı, hesablama aparmağı, həm də praktik şəkildə çalışaraq öyrənməni təbliğ edir (Şəkil 1.17 ).




**Şəkil 1.17. Əyani vəsaitlərlə hesablama əməliyyatlarının həyata keçirilməsi**

Hesablama əməliyyatlarının əyani şəkildə həyata keçirilməsi üçün daha bir tapşırıq nümunəsinə nəzər salaq. Qeyd edək ki, ibtidai siniflərdə müəllim nə qədər əyaniliklə öyrətməyi bacarsa, şagirdlərin təlimdə nailiyyətləri bir o qədər səmərəli nəticə verər. Çünki ibtidai sinif şagirdləri mücərrəd düşünmə bacarıqlarına tam malik olmurlar. Onlar vizual şəkildə materialı gördükdə, mənimsəmə daha da asanlaşır və şagirdlər göz yaddaşı ilə öyrəndiklərini daha tez xatırlayırlar (Şəkil 1.18).




**Şəkil 1.18. Hesablama əməliyyatını yerinə yetirmək üçün inkişafetdirici tapşırıq nümunəsi**

Burada şagirdlərin dəstəklənməsi üçün inkişafetdirici tapşırıqlara qoyulan tələblər gözlənilmişdir. Müəllim şəkildə verilən tapşırıqlara daha çox şeylər əlavə edə bilər. Məsələn, kəpənək və güllərin sayını tapmaq, əgər elektron lövhə varsa müxtəlif rəngli çiçəklərə fərqli rəngdə kəpənəkləri qondurmaq və s. Bu tapşırıqlar həm də şagirdlərin estetik zövqünün formalaşmasına da səbəb olur.

Şagirdlərin rəngləri və rəqəmləri bir yerdə qavramaları üçün də inkişafetdirici tapşırıq nümunələri vermək olar. Bunun üçün 1-dən 10-a qədər rəqəmlərin düzüldüyü boş xanaları uşaqlara vermək və hər xananın rəngini və sayını tapmaq tapşırıla bilər. Qeyd edək ki, inkişafetdirici tapşırıqları verərkən müəllim öz yaradıcılığından da istifadə etməklə şagirdlərə daha çox tapşırıq verə və onları daha çox inkişaf etdirə bilər. Məsələn, aşağıda gördüyünüz şəkildə 1-dən 10-a qədər rəqəmlər iki fərqli sıra ilə düzülmüşdür. Şagirdlərdən hər xanaya və rəngə uyğun gələn rəqəmi soruşmaqla yanaşı, onlara müxtəlif hesablama əməllərini də yerinə yetirməyi tapşırmaq olar. “2 narıncı xana ilə 4 sarı xananın cəmini tapın”, “qırmızı xanalardan 4 ədəd götürsək neçə xana qalacaqdır” və s. (Şəkil 1.19).



**Şəkil 1.19. I sinif şagirdlərinə 1-dən 10-a qədər rəqəmlər üzərində əməliyyatlar aparmağı öyrədən əyani vasitə**

Şagirdlərin dəstəklənməsi və onların təfəkkürünün stimullaşdırılması üçün bir çox əyani vəsaitlərdən istifadə etmək mümkündür. I sinif şagirdlərinə rəqəmləri öyrətmək və onlar arasındakı asılılıqları müəyyənləşdirmək üçün aşağıdakı tipli inkişafetdirici tapşırıq nümunəsi vermək olar (Şəkil 1.20).




**Şəkil 1.20. Ədədləri və onlar arasındakı asılılıqları öyrədən əyani vasitə**

İbtidai sinif şagirdlərinin dəstəklənməsi üçün sadəcə riyazi tapşırıqlar deyil, eyni

zamanda digər fənlərə aid inkişafetdirici tapşırıqlar da tərtib etmək olar.

Ana dili fənni üzrə söz və cümlə düzəltmə, mətnin improvizə edilməsi, şeirin məzmununa uyğun rəsm işlənməsi, şagirdin öz düşüncələrini hekayə və nağıl kimi uyduraraq danışması və s. kimi inkişafetdirici tapşırıq nümunələri hazırlamaq olar. Məsələn “sehrli qutu” adlandırılan bəzəkli qutuya müxtəlif peşə və sənət adları bildirən sözlər və adi sözlər kəsilərək atılır, eyni zamanda həmin peşə və sənəti (heyvanlar, geyim nümunələri, əşyalar və s. də ola bilər) bildirən şəkilləri də qutuya atmaq olar. Şagirdlər həmin qutudan sözləri və ona uyğun gələn şəkli tapıb uyğunlaşdırmalıdırlar.

Rəsm bacarıqlarının inkişaf etdirilməsinin dəstəklənməsi üçün müxtəlif şəkillərin hissələri olan pazlları yığmaq, şəkilləri rəngləmək, kompozisiya qurmaq və s. şagirdlərə tapşırıla bilər. Eləcə də digər fənlər, məsələn, musiqi, həyat bilgisi, xarici dil və s. fənlərdən də bu kimi inkişafetdirici tapşırıq nümunələri hazırlamaq və şagirdlərin öyrənmə fəaliyyətini və təfəkkürünü dəstəkləmək olar.

### 1.2.6. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün dəstəkləyici mühitin yaradılması

Hazırkı təhsil sisteminin özünəməxsus xüsusiyyətlərindən biri, dövlətin də xüsusi önəm verdiyi inklüziv təhsil modelinin yaradılmasıdır. Təhsildə inklüzivlik hər kəsə bərabər şəkildə qiymət vermək, müxtəlifliyə hörmət etmək və qəbul etmək deməkdir. İnklüzivliyin təhsilə tətbiq olunması ilə sağlamlıq imkanları məhdud olan şagirdlərin ehtiyacları, eyni zamanda, onların təhsildən kənarlaşdırılmasının qarşısının alınması təmin olunur.

İnklüziv təhsilin tətbiq olunması və sağlamlıq imkanları məhdud şagirdlərin dəstəklənməsi üçün dövlət ümumtəhsil məktəblərini elə qurmalıdır ki, şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırılmış zəruri dəstək tədbirləri təmin olunmuş olsun.

Hər hansı formada seqreqasiya (şagirdlərin fiziki məhdudiyyətlərinə görə cəmiyyətdən, məsələn, adi təhsildən zorla ayrılması) və ya təhsildən kənarlaşdırılma, məsələn, əlilliyi olan şagirdlərin xüsusi məktəblərdə və ya adi məktəblərin daxilindəki xüsusi bölmələrdə təhsil alması, yaxud natamam inteqrasiya inklüziv təhsilə daxil deyil (Şəkil 1.21).

İnklüziv təhsil bütün şagirdlərin keyfiyyətli təhsil almaq hüququna əsaslanır. Bir sıra beynəlxalq konvensiyalar, milli qanunvericilik çərçivələri müvafiq ölkələrdə inklüziv təhsilin tətbiqini təmin edir. İnklüziv təhsildə təhsil alan şagirdlərin dəstəklənməsi üçün məktəblərin maddi təminatı və pedaqoji kollektivin yaxşılaşdırılması mütləqdir.

İnklüziv təhsili tətbiq edərkən müəllimlər bilməlidirlər ki, yalnız əlilliyi olan şagirdlər deyil, istənilən şagird məktəbdə çətinliklər yaşaya bilər. Şagirdlərin dəstəklənməsi onların meyil, maraq və istəkləri çərçivəsində əyani və texniki resurslarla, o cümlədən uyğun tədris resursları ilə təmin olunmasını şərtləndirir.




**Şəkil 1.21. İnklüziv təhsil**

İnklüziv təhsilin tətbiq olunması cəmiyyətdə heç bir xüsusiyyətinə fərq qoyulmadan bütün uşaqların eyni anda, eyni imkanlarla, eyni sinif və mühit daxilində təhsil almaları deməkdir. Bu, sağlamlıq imkanları məhdud olan uşaqların özlərini cəmiyyətdən təcrid olunmuş kimi hiss etmələrinin qarşısını alır, bütün şagirdlərin öyrənmə imkanlarına açıq olduğu qənaətinə gətirir (Şəkil 1.22).



**Şəkil 1.22. İnklüziv siniflər bütün şagirdlərin eyni imkanlara malik olması deməkdir**

Bütün şagirdlərin müxtəlif çətinliklər yaşaması müəllimləri aşağıdakıları düşünməyə yönəldir:

- Şagirdlərin rastlaşdıqları çətinliklər tədrisin təkmilləşdirilməsinin vacibliyini vurğulayır;
- Təkmilləşdirmə işləri bütün şagirdlər üçün daha yaxşı təhsil şəraitinə gətirib çıxaracaqdır;
- Sağlamlıq imkanları məhdud olan şagirdlərlə işləmək üçün mütəxəssisləri məktəbə gətirmək əvəzinə inklüziv mühitdə dərs deyə bilmələri üçün müəllimlərin təcrübəsi artırılmalıdır.

Məktəbdə müəllimlər fərqli bilik, bacarıq, maraq və öyrənmə ehtiyacları olan şagirdlərlə işləyirlər. Əlilliyi olan şagirdlər üçün xüsusi təlim üsulu olmadığından inklüziv mühitdə müəllimlər bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün dərs zamanı vəziyyətdən asılı olaraq sinfin müvafiq yerlərində durur, sinifdəki resurslardan istifadə edir, şagirdlər ilə ünsiyyət qurur və şagirdlərin öyrəndikləri bilikləri qiymətləndirir.

Təlim mühitinin inklüziv təhsilə adaptasiyası üçün:

1. Məkanın hədəfə uyğun təşkili. Müəllim öncə təlim hədəflərini müəyyən etməlidir. Bundan sonra fiziki məkanı müxtəlif fəaliyyətlərə müvafiq olaraq dəyişdirə bilmək imkanını dəyərləndirmək lazımdır. Məsələn, şagirdlərlə qrup işi aparılacaqsa, sinif ona uyğun şəkildə təşkil olunmalıdır və dəstəkləyici mühiti tam təşkil etmək üçün inklüzivliyi olan şagirdlərin imkanları da nəzərə alınmalıdır;
2. Şagirdlərin hər kəs üçün əlçatan resurslarla təmin edilməsi. İnklüziv şagirdlərin dəstəklənməsi üçün müxtəlif resurslar, məsələn, lüğətlər, kalkulyatorlar, yazı vasitələri, qrafik orqanayzer, müxtəlif növ dəftərlər, rəngli kağızlar və s. şagirdlərin öyrənməsi üçün optimal təlim mühiti yaradır. Linqafonlar, qulaqcıqlar, vizual vəsaitlərin yayımlanması üçün ekranlar və rahat stullar olan sakit sinif mühiti imkan verir ki, sağlamlıq imkanları məhdud uşaqlar öz meyil və maraqlarına, eləcə də fiziki və əqli qabiliyyətlərinə görə təhsil alsınlar. İnklüziv şagirdlərin təlimini dəstəkləmək üçün resursların əlçatan olması mühüm xüsusiyyətdir;
3. Rəqəmsal resurs və materialların inteqrasiya edilməsi. Rəqəmsal resurslar ənənəvi çap olunmuş materialların vermədiyi çevikliyi təklif edir. Rəqəmsal mətn şagirdlər üçün vacib olan bir sıra xüsusiyyətlərə malikdir:
   - Mətnin səsləndirilməsi alətindən istifadə edərək ucadan oxuma imkanı;
   - Məzmunun təsvirində çeviklik (rəng, kontrast), mətn şriftini böyütmək imkanı;
   - Lüğətlər, mətnin rənglər və ya qeyd etməklə vurğulanması, mətnin içində müvafiq qeydlər aparılması üçün dəstəkləyici hazır vasitələr;
   - Söndürülüb-yandırıla bilən titrlər;
   - Video üçün audio təsvirlər (izahatlar);
   - Əşyaların 3d modelləri;
   - Şəkil təsvirləri.

İnklüziv şagirdlərin meyil və maraqlarına uyğun dəstəklənməsi üçün təlim materiallarının və qiymətləndirmə vasitələrinin akkomodasiya və modifikasiya olunması ibtidai sinif müəlliminin işini xeyli dərəcədə asanlaşdırır. Akkomodasiya təlim materiallarının uyğunlaşdırılması, modifikasiya isə təlim materiallarının sağlamlıq imkanları məhdud uşaqların istifadəsinə uyğun dəyişdirilməsidir.

Akkomodasiya tədris materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir. Təlim materiallarının akkomodasiyası sağlamlıq imkanları məhdud olan uşağın cəmiyyətə adaptasiyasına şərait yaradan mühit və ya təchizatın yaradılmasını şərtləndirir. Akkomodasiya öyrənməni fərdiləşdirən, materialı dəyişdirmədən öyrətməyə təşviq edən taktika və strategiyadır. Akkomodasiya nümunələri bunlardır:

1. Eşitmə məhdudiyyəti olan şagirdlər üçün işarət dili tərcüməçiləri;
2. Görmə məhdudiyyətli şagirdlər üçün elektron mətn danışma sistemləri;
3. Kiçik motorika məhdudiyyətləri, görmə məhdudiyyətli və ya öyrənmə çətinliyi olan şagirdlər üçün əlavə zamanın verilməsi;
4. Görmə məhdudiyyətli şagirdlər üçün böyük hərfli kitablar və mətni böyüdən elektron vasitələr;
5. Eşitmə məhdudiyyətli şagirdlər üçün audio mətnlərin yazı versiyasının hazırlanması və s.

Akkomodasiyalar imkan verir ki, müəllimlər bütün şagirdlərə təlim prosesində bərabər imkanlar yaratsınlar. Başqa sözlə, akkomodasiyalar şagirdlərə təlim prosesində iştirak etmək imkanı verir, onlara hansısa bir üstünlük vermir.

Təlimin modifikasiyası tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir. Modifikasiya termini dəyişikliyi ifadə etmək üçün istifadə olunur. Müəllimin öyrətdiyi materialı başa düşməyən sağlamlıq imkanları məhdud olan şagirdlər üçün dəyişiklik edilir. Məsələn, tapşırıqların sayı azaldılır, material hissələrə bölünür və s.

İnklüziv siniflərdə bütün şagirdlərin dəstəklənməsi üçün müəllim hər şagirdin fiziki imkanlarını nəzərə almalıdır. İnklüziv sinifdə tədris prosesinin tətbiqi digər siniflərə nəzərən çətin və məsuliyyətlidir. Çünki müəllim dəstəkləyici mühiti elə təşkil etməlidir ki, təlimin imkanlarından kənarda qalan şagird olmasın.

Bütün şagirdlərin dəstəklənməsi üçün:

- Dərsin, mövzulara dair fəaliyyətlərin planlaşdırılması;
- İstedadlı uşaqlar üçün əlavə fəaliyyətlərin hazırlanması- dərsdə müxtəlif vasitələrdən - vizual, eşitmə, kinestetik və s. – istifadə olunması;
- Dərsdən öncə şagirdlərə öyrənəcəkləri mövzu barədə məlumatın verilməsi – təlimdə çətinlikləri olan uşaqlar üçün təkrar izahatın verilməsi;
- Dərs müddətində şagirdlərlə qarşılıqlı münasibətlərin qurulması, şagirdlərin əməkdaşlığının təmin edilməsi;

- Gözləntilərin şagirdlərə izah olunması;
- Sağlamlıq imkanları məhdud olan şagirdlərin onlara dəstək ola biləcək şagirdlərlə qruplaşdırılması;
- Tapşırığı bitirmək üçün daha çox vaxta ehtiyacı olan şagirdlərə şəraitin yaradılması.

Eşitmə məhdudiyyəti olan şagirdlərin dəstəklənməsi üçün:

- Lövhədə yazılanları daha asan anlamaları üçün eşitmə məhdudiyyəti olan şagirdlərin qabaq partalarda otuzdurulması;
- Oxumada çətinliyi olan şagirdlərin məlumatı daha yaxşı mənimsəməsi üçün vizual vasitələrdən istifadə edilməsi;
- Eşitmə məhdudiyyəti olan şagirdlərlə göz təmasının qurulması və dodaq oxuma texnikası ilə başa salınması;.
- Dərsdə xaric səslərin azaldılması;
- Eşitmə məhdudiyyəti olan şagirdlərin əyani vasitələri daha yaxşı görməsi üçün otağın yaxşı işıqlandırılması;
- Ünsiyyət zamanı qeyd olunan məlumatların yazılı şəkildə təqdim edilməsi;
- Sinif müzakirələrini və elanları əlavə etmək üçün yazılı materialların təqdim olunması;
- Sinifdə nümayiş etdirilən videoların alt-yazılarla verilməsi;
- Qeydlər aparаrkən şagirdlərin yaşıdları ilə işləməsinin təmin edilməsi;
- Məlumatın aydın və sadə şəkildə təqdim olunması;
- Sözlərin aydın və qüsursuz tələffüz edilməsi.

Fiziki məhdudiyyəti olan uşaqlar üçün:

- Sinifdə hərəkət etmək üçün genişliyin təmin olunması. Fiziki məhdudiyyətli şagirdlər üçün sinfin hər yeri, əyani vəsaitlər, informasiya materialları və təchizatlardan istifadə əlçatan olmalıdır;
- Fiziki imkanları məhdud şagirdlərin sinfə daxil olması və sinifdən çıxması üçün şərait və vaxtın yaradılması. Onlar başqa şagirdlər kimi sərbəst və cəld hərəkət edə bilmirlər;
- Qrup işi və yerdəyişmə zamanı sinifdə hərəkət etməsi üçün şagirdə kifayət qədər vaxt verilməsi;
- Şagirdin yazı çətinliyi varsa, ona qeydləri aparmaqda köməkçi vasitələrdən istifadə etməyə icazə verilməsi. Şagirdin məlumatı öyrənmək üçün kompüter, kiçik səsyazan və ya kamera kimi vasitələrlə qeydə almağına icazə verilməsi.

Görmə məhdudiyyəti olan şagirdlərin dəstəklənməsi üçün:

- Görmə məhdudiyyəti olan şagirdlərin yazı lövhəsinə yaxın otuzdurulması;
- Sinifdə iri şriftlə çap edilmiş təlim materiallarından istifadəyə üstünlük verilməsi;

- Ehtiyac olduqda diktafona yazılmış mətnlərdən istifadə olunması;
- Şagirdlərə qeydlər aparmaq əvəzinə dərsləri və təlimatları diktafona yazmağa icazə verilməsi;
- Yazılı təlimat və ya tapşırıq verdikdə materialın qısa şəkildə, böyük hərflər ilə yazılması və ya səsli şəkildə ifadə edilməsi;
- Görmə məhdudiyyəti olan şagirdlərə tapşırıqlarını daha qısa yazılmış variantda təqdim etməyə və ya öyrəndiyini fərqli vasitə ilə nümayiş etdirməyə icazə verilməsi;
- Görmə məhdudiyyəti olan şagirdlərin vizual vasitələrdən daha çox audio vasitələrlə təlim almasının təmin edilməsi;
- Görmə məhdudiyyəti olan şagirdlərə sinif otağında və məktəb daxilində oriyentasiya və səfərbərlikdə köməyin təmin olunması. Onlara imkan yaratmaq lazımdır ki, sinifdə, kitabxanada, yeməkxanada və məktəbin digər əsas ərazilərində onlar üçün köməkçi vasitələrdən, yoldaşlarının köməyindən istifadə edərək ərazini tanısınlar;
- Görmə çətinliyi olan şagirdlərin dəstəklənməsi üçün son illərdə ixtira olunmuş Braille Teach adlı aparatdan da istifadə etmək olar. Bu zaman uşaqlar Brayl əlifbası ilə mətni kompütərə daxil edirlər və sonda kompüter onların məlumatlarını səsli şəkildə digərlərinə çatdırır (Şəkil 1.23).



**Şəkil 1.23. Braille Teach aparatı**

Ünsiyyət və inteqrasiya problemləri olan şagirdlərin dəstəklənməsi üçün (əqli problemləri, nitq çətinlikləri və autizm spektr pozulmaları olan uşaqlar):

- Təlimatların bir neçə dəfə təkrarlanması;
- Böyük tapşırıqların kiçik hissələrə ayrılması və modifikasiya olunması;
- Eyni anda yalnız bir mərhələnin təlimatlarının verilməsi;
- Təlimat və tapşırıqları verərkən mümkün olduğu qədər sadə sözlərdən istifadə edilməsi;
- Dərsin müxtəlif üsullarla təqdim edilməsi (əyani, səsli, təcrübi dərs);
- Şifahi verilən təlimatlar vasitəsilə yazılı təlimatların möhkəmləndirilməsi;
- Gündəlik nizam-intizam qaydalarının tərtib edilməsi;
- Fəaliyyətin bitməsi və digər fəaliyyətin başlaması haqqında məlumat verilməsi;
- Seçim çoxvariantlılığının azaldılması (şagirddən bir rəng seçməsi istənilirsə, ona seçməsi üçün iki və ya üç seçimin verilməsi);

- Daha dəqiq seçimlərin verilməsi ( şagirdin məlumatı hansı yollarla təqdim etməsi istənilirsə, nitqdə bunu istifadə etmək lazımdır).

İnklüziv şagirdlərin dəstəklənməsi üçün müəllim peşəkar təlimlərdən keçməli və sağlamlıq imkanları məhdud olan şagirdlərin xüsusiyyətlərini hərtərəfli öyrənməlidir. İnklüziv siniflərdə şagirdlərin dəstəklənməsi prosesində sinfin digər şagirdləri də müəllimə kömək edir və öz sağlamlıq imkanları məhdud olan yoldaşlarına dəstək olurlar.

## Tələbələr üçün fəaliyyətlər

1. İbtidai sinif şagirdlərinin yaş və fərdi xüsusiyyətləri hansılardır?
2. 6-12 yaşlı uşaqların xüsusiyyətlərini izah edin və esse yazın.
3. Əyani-obrazlı təfəkkürün inkişafına xidmət edən nümunələr göstərin.
4. Şagirdi peşə seçməyə istiqamətləndirmək üçün yolları aydınlaşdırın.
5. Sinifdə müsbət psixoloji iqlim yaratma modelini tərtib edin.
6. Müsbət psixoloji iqlim yaratmaqda əhəmiyyət kəsb edən qarşılıqlı əlaqə tipləri haqqında təqdimat nümunəsi hazırlayın.
7. Rollu oyun vasitəsilə demokratik əməkdaşlıq mühitini səhnələşdirin.
8. Şagirdlərin təlimdə geri qalma səbəbləri haqqında sxem tərtib edin. Məktəblə əlaqəli olanları təhlil edin.
9. İstedadlı şagirdləri dəstəkləmə yolları haqqında təqdimat edin.
10. İnkişafetdirici tapşırıq nümunələri hazırlayın.
11. İnklüziv təhsil anlayışını şərh edin.
12. İnklüziv sinif modeli hazırlayın və şagirdləri dəstəkləmək yollarını şərh edin.
13. İnklüziv siniflərdə tətbiq oluna biləcək texnoloji vasitələr haqqında araşdırma aparın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşaqların meyil, maraq və qabiliyyətlərini inkişaf etdirən mühitin yaradılması yollarını şərh edir”.**

1. Kiçik yaşlı məktəblilərin psixoloji xüsusiyyətlərini izah edin.
2. Təfəkkürün növlərini izah edin. Kiçik yaşlı məktəbliyə xas olan təfəkkür növü haqqında təqdimat edin.
3. Müəllim və şagird arasında müsbət psixoloji iqlim yaratmağın şərtləri nələrdir? Fikrinizi əsaslandırın.
4. Müsbət psixoloji iqlim yaratmaqda əhəmiyyət kəsb edən qarşılıqlı əlaqə tipləri haqqında esse yazın.
5. Demokratik əməkdaşlıq anlayışını izah edin.
6. Təlimdə geri qalan və istedadlı şagirdləri fərqli dəstəkləmə yolları haqqında təqdimat edin. Fikirlərinizi əsaslandırın.
7. İnkişafetdirici tapşırıqlar vasitəsilə ilə şagirdi dəstələmək yollarını izah edin.
8. İnklüziv siniflərdə şagirdləri dəstəkləmək yolları haqqında təqdimat edin.

## 1.3. Təlim üçün zəruri resursları hazırlayır

### 1.3.1. Təlim üçün zəruri resurslar

Tədris prosesinin səmərəli təşkil olunması və optimal nəticələrə nail olmaq üçün təlim zamanı istifadə olunan zəruri resursların sinif otağında istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Təlim resursları anlayışı özündə həm təlim zamanı istifadə olunan çap resurslarını, həm elektron resursları, həm də maddi-əşyavi resursları ehtiva edir.

Bütün dərslik və dərs vəsaitləri, şagirdlərin istifadə etdiyi kitablar, jurnallar, maarifləndirici buklet və bülletenlər, müəllim tərəfindən tövsiyə edilən əlavə vəsaitlər çap resurslarına aiddir. Çap resurslarının faydası onun daha əlçatan olmasındadır. Çap resursları ilə yanaşı, elektron resurslar da özünəməxsus əhəmiyyətə malikdir. Vaxt və kağız materiallarına qənaət, eləcə də informasiya müxtəlifliyi və çoxçeşidlilik elektron resurslar üçün xarakterikdir. Müasir dövrdə mobil cihazların, elektron vasitələrin müxtəlifliyi kömək edir ki, şagirdlər elektron resurslardan faydalana bilsinlər.

Çap və elektron resurslarla yanaşı, maddi-əşyavi resurslar da şagirdlər üçün öyrədici mühit yaratmaqda əvəzsiz rola malikdir. Bu resursların müəllim və şagirdlər tərəfindən hazırlanması və sinifdə istifadəsi çox mühüm əhəmiyyət kəsb edir. İbtidai sinif müəllimlərinin yiyələnməli olduqları bacarıqlardan biri də təlim üçün zəruri resursların hazırlanmasıdır.

Sinifdə müəllim və şagirdlər tərəfindən hazırlanan zəruri resurslar mühafizə olunaraq sonra da istifadə oluna bilər və bu da şagirdlərin iqtisadi tərbiyəyə yiyələnməsinə kömək olur. Eyni zamanda, şagirdlər texnologiya dərslərində bu vəsaitləri hazırlamaqla həyati bacarıqlara yiyələnmiş olurlar.

### 1.3.2. Təlim üçün zəruri resurslar: əyani və texnoloji vasitələr

Təhsil prosesinin optimal qurulması üçün tədrisin əyani və texniki resurslarla təmin olunması, sinif otağının öyrədici resurslarla zənginləşdirilməsi vacibdir. Bir sinif otağı təsəvvür edin. Bu sinif otağında hansı resurslar olmalıdır ki, şagirdlərin öyrənmə fəaliyyəti dəstəklənsin, onlar çətinlik çəkmədən öyrənə bilsinlər? Hər şeydən öncə qeyd etmək lazımdır ki, sinifdə istifadə olunan hər şey resursdur, sinifdəki ən balaca əşya (dəmir bərkidici), tədris üçün istifadə olunan mətn, simvol, şəkil və s. gördüyümüz, toxunduğumuz, duyduğumuz, oxuduğumuz, yazdığımız bütün əşya və materiallar təlimin optimallaşdırılmasına və dəstəkləyici təlim mühitinin yaradılmasına xidmət edir.

Təlim üçün zəruri resursların seçilməsi xeyli dərəcədə müəllimdən asılıdır. Burada ona görə tam məsuliyyəti müəllimin üzərinə qoymaq olmur ki, məktəbin infrastrukturunun təşkilində müəllimlərin rolu olmur. Məsələn, məktəbin tikilmə tərzi, sinif otaqlarının forması, qapı və pəncərənin yerləşdirilməsi, sinifdə istifadə olunan mebellər və s. Bununla yanaşı, tədris üçün zəruri resursların bir qisminin seçilməsi və istifadəsi isə məhz müəllimin məsuliyyətindədir.

Təlim üçün zəruri resurslardan bəhs edərkən onun mahiyyətini anlamaq, zəruri anlayışı altında nələrə diqqət yetirildiyini bilmək vacibdir. Təlim üçün zəruri resurslar

dedikdə, təlim zamanı şagirdlərin mütləq şəkildə istifadə etməli olduğu, onların öyrənmə mühiti üçün vacib olan əşyalar, didaktik materiallar nəzərdə tutulur.

Tədris fəaliyyətinin həyata keçirilməsi üçün resursların seçilməsində aşağıdakı xüsusiyyətləri bilmək vacibdir:

- Dərsin məqsədinə uyğunluğu. Təlim üçün resurs seçərkən onun dərsin məqsədinə uyğun olub-olmadığını dəqiqləşdirmək lazımdır. Sinfə gətirilən əyani və texniki resurslar dərsin mövzusuna uyğun olub, mövzunun daha yaxşı qavranılmasına və yadda saxlanmasına səbəb olmalıdır. Mövzu ilə əlaqədar xəritələr, şəkillər, cədvəllər, portretlər, diaqramlar, audio və vizual vasitələr hər biri öyrədilən mövzunun məqsədinə xidmət etməlidir;
- Resursların düzgünlüyü. Təlimdə resursun məqsədəuyğunluğu vacib olduğu kimi onun düzgünlüyü və etibarlılığı da mühüm amildir. Şagirdlərə öyrətmək üçün nümayiş etdirdiyimiz hər bir material elmi cəhətdən etibarlı olmalıdır. Resursda göstərilən məlumatlar, şəkillər, yer adları, tarixi hadisələr, tarixi şəxsiyyətlər – bütün bunlar hamısı yoxlanılmalı, daha sonra şagirdlərə təqdim edilməlidir;
- Təlim resurslarının şagirdə uyğunluğu. Resurslar təhsilin hər pillə və səviyyəsində şagirdlər nəzərə alınaraq hazırlanmalıdır. Təhsilin səviyyəsinə aid olmayan resurs öyrədici xarakter daşımır, əksinə şagirdin zehnini yükləməyə və onlarda anlaşılmazlığın yaranmasına səbəb olur. Şagirdə uyğun olmayan resurs onu öyrədə bilməz. Məsələn, ibtidai sinif şagirdləri üçün vizual xarakterli və əyani-obrazlı resurslar uyğundur. Onlar hadisə və əlamətlərin zahiri görüntüsünə daha çox əhəmiyyət verirlər, mücərrəd anlayışlar, proseslərin çətin yolla izah edilməsi onların yaş və fərdi səviyyəsinə uyğun deyil. Məsələn, həyat bilgisi dərsində insanın daxili orqanlarını şagirdə tanıtmaq, təqdim etmək lazım gələrsə, müəllim bu orqanların iş fəaliyyətini elmi şəkildə, mücərrəd anlayışlarla şagirdlərə çatdırmır. Orqanları alleqorik şəkildə, təmsil formasında danışdıra, onların ilkin funksiyası ilə şagirdləri tanış edə bilər. Bunun üçün müəllim öz dərsində şagirdlərlə birgə hazırladığı şəkil və əyani modellərdən istifadə edə bilər (Şəkil 1.24);




**Şəkil 1.24. İnsan orqanlarının əyani şəkildə şagirdlərə göstərilməsi**

- Resursların estetik cazibədarlığı. Təlim üçün sinfə gətirilmiş əyani resurslar estetik cəhətdən gözoxşayan olmalı, şagirdin zövqünü korlamamalıdır. Şəkildə, videoda, modellərdə cızıq və ləkələrin olması, yöndəmsiz əl işləri şagirdlərin bədii zövqünü

korlamaqla yanaşı, onların təlim marağını da azaldır. İbtidai sinif şagirdləri üçün hazırlanmış əyani vəsaitlərdə canlı rənglərdən, təmiz kağızlardan istifadə etmək lazımdır. Aqressiv və qaranlıq rənglərdən qaçmaq, şagirdlərdə gələcəyə ümid oyandırmaq mühümdür;

- Təlim resurslarının asan istifadə olunan və dözümlü olması. Resurslar istifadə üçün rahat olmalıdır. Onların ölçüsü, forması, rəngi, keyfiyyəti şagirdlərin anlama səviyyəsinə uyğun olmalı və dözümlülüyü ilə seçilməlidir. Tez qırılan və şagirdlərə zərər verə biləcək resursların istifadəsindən yayınmaq lazımdır;
- Resursların sadəliyi. İbtidai sinif şagirdləri üçün hazırlanan (və ya hazır) əyani resurslar öz sadəliyi ilə seçilməlidir. Qarışıq rənglər, dolaşıq məlumatlar şagirdin təlim materialını öyrənməsini çətinləşdirir. Standartların reallaşdırılmasına uyğun, həyati bacarıqlar aşılayacaq, sadə və estetik dizayna malik resursların istifadəsi mütləqdir.

Sinifdə istifadə olunan zəruri audio-vizual resurslar:

- Kitablar (dəftər, qələm);
- Lövhələr (yazı, elan);
- Şəkillər, qrafiklər, xəritələr və s.;
- Həqiqi əşyalar və ya onların modelləri;
- Proyektorlar;
- Audio alətlər və materiallar (maqnitafon, disk, səsgücləndirici, mətni səsləndirmək üçün texniki vasitələr (inklüziv şagirdlər üçün) və s.);
- Texnoloji vasitələr.

Sinif otağında öyrədici materiallarla, əyani resurslarla yanaşı, şagirdlərin istifadə edəcəyi, onları dəstəkləyən fiziki mühit resursları da vardır. Bunlar daha çox avadanlıq anlayışı altında ümumiləşdirilirlər:

- Parta;
- Stol;
- Stul;
- Pəncərə;
- Qapı;
- Gül dibçəkləri;
- Qızdırıcılar;
- Şkaflar.

Yuxarıda sadalanan əyani və texniki vasitələr də həmçinin sinfin ümumi fiziki mühitinə aiddir. Təlimdə əyani və texniki resurslardan istifadə edilməsi imkan verir ki, təlim daha səmərəli nəticə versin, şagirdlərin dərsə və öyrənməyə marağı artsın. Təlimdə zəruri resurslardan istifadənin əhəmiyyəti böyükdür. Təlim zamanı zəruri əyani və texniki (texnoloji) vasitələrdən istifadə şagirdin təlim materialını daha tez və obyektiv şəkildə

mənimsəməsinə, onların öyrəndiklərini uzun müddət yadda saxlamalarına, cansıxıcı və mücərrəd təlimdən yaxa qurtarmalarına gətirib çıxarır.

Tədris zamanı resurslardan istifadənin faydaları:

- Şagirdin dərsə diqqətini daha yaxşı cəmləməsi;
- Əlavə təlim marağının yaradılması;
- Öyrənmənin maddiləşdirilməsi (mücərrədlikdən konkretliyə keçid);
- Tədris prosesinin rəngarəngliyi;
- Təcrübə mühitinin yaranması;
- Daha çox duyğu orqanına xitab olunması;
- Sözçülüyün qarşısının alınması və optimal nəticənin əldə edilməsi;
- Vaxta qənaət;
- Göz yaddaşının inkişaf etdirilməsi;
- Ünsiyyət üçün şərait yaratması;
- Öyrənilən materialın daha yaxşı yadda saxlanması;
- Yaradıcılıq və s.

Audio-vizual resurslardan istifadə təlimin dəstəklənməsi və şagirdlərin təfəkkürünün inkişaf etdirilə bilməsi üçün bir çox imkanlara malikdir:

- Audio-vizual vasitələri əvvəlcədən dinləmək mümkündür;
- Hər dərsdə istifadə etmək mümkündür;
- İstifadəsi asandır;
- Vəsaitlər çox baha deyil;
- Audio-vizual vasitələr sinfə gətirilməsi mümkün olmayan hadisə və əşyaları birbaşa nümayiş yolu ilə izləmə imkanı yaradır (bitkilərin böyümə prosesi, heyvanlar aləminin təbii arealında izlənməsi, müxtəlif ölkələr, onların insanları haqqında məlumatlar və s.);
- Vizual vasitələr (TV, videomateriallar) şagirdlərin marağını cəlb edir;
- Şagirdləri öyrənməyə və tədqiqata sövq edir;
- Şagirdlərə əlverişli və az vaxtda öyrənmə imkanı təqdim edir;
- Audio-vizual vasitələrlə şagirdlər öyrənilən materialın səs, rəng, hərəkət, ölçü və formalarını əyani şəkildə görmə imkanı qazanır;
- Nümayişdən sonra müzakirə imkanları genişdir;
- Şagirdlərin təfəkkürünü canlı saxlayır;
- Öyrənilən materialın hansısa hissəsinə yenidən qayıtmaq olur və s.

Audio-vizual əyani vəsaitlərdən bəhs edərkən onların növlərinə də aydınlıq gətirmək lazımdır. Sadə əyani vəsaitlərə şəkil, cədvəl, qrafik, tablolar, kitab, dəftər, qələm və s. aiddir.

3 ölçülü vasitələr təlim zamanı şagirdlərin görüb, toxuna bildikləri resurslardır. Bunlar:

- Əşyaların özləri;

- Modelləri;
- Maketləri.

3 ölçülü resurslardan təlim zamanı istifadə olunması müəllimi və şagirdləri daha çox dərsə cəlb edir. Onlar əməkdaşlıq şəraitində çalışa bilir, əşyaların gerçək vəziyyətini, dadı, qoxusu, forması, ölçüsü və s. kimi xüsusiyyətlərini bilavasitə hiss edə bilirlər.

Həqiqi əşyaların bir çoxu müəllimin özündə və ya elə sinifdə ola bilir. Məsələn, güllər, sinif əşyaları, bir çox öyrətmə məqsədli sinifdə saxlanılan əşyalar və s. Şagirdlər bu əşyalara toxunaraq, onlarla müəyyən bir fəaliyyət icra edərək öyrənirlər. Məsələn, çəkic alətdir. Ondan düz səthə bərk cisimlərin (mismar) bərkidilməsi üçün istifadə olunur. Bundan sonra şagirdlərlə çəkiclə taxta parçası üzərinə mismar bərkitmə əməliyyatını yerinə yetirmək olar (təhlükəsizlik qaydalarına riayət etməklə).

Ümumiyyətlə didaktik materialları (resursları) iki yerə ayırırlar: çap və elektron resurslar. Çap resurslarına aşağıdakılar aiddir:

- Çap resurslar;
- Elektron resurslar.

Çap resurslarına aşağıdakılar aiddir:

- Kitablar;
- Dərs materialları;
- Jurnallar;
- Broşuralar;
- Buklet və bülletenlər;
- Əlavə çap resursları, yəni çap şəklində olan mətnlər;
- Hekayələr;
- Romanlar;
- Şəkillər, cədvəllər, sxem və qrafiklər;
- Tapşırıq materialları;
- İş vərəqləri;
- Təlimatlar və s.

Çap resurslarının əsas üstünlüyü onların rahat daşına bilməsi və ucuz başa gəlməsidir. Bundan başqa çap materiallarının üzünün çoxaldılması da asan və mümkündür.

Elektron resurslara:

- Videodərslər;
- Təqdimatlar;
- CD, DVD, videokassetlər;
- Elektron materiallar;
- Slaydlar;
- Səsli və görüntülü dərs materialları;
- Sayt materialları və s. aiddir.

Təlimdə zəruri sayılan bir sıra resurslara nəzər salaq: məktəb ləvazimatları adlandırılan kağız, qələm, karandaş, dəftər, marker, yapışqan, qayçı, bərkidici, flomaster, rəngli qələm və s. (Şəkil 1.25).



**Şəkil 1.25. Məktəb ləvazimatları**

Təlim üçün zəruri resurslardan biri də geniş şəkildə istifadə olunan flipçart adlandırılan vəsaitdir. Flipçart vasitəsilə müəllim və şagirdlər müxtəlif qeydlər apara, lazım gələrsə əvvəlki materiallara qayıda bilərlər. Flipçartlar ayaqlı portativ dayağa birləşdirilir və sinifdə şagirdlərin təhlükəsiz şəkildə istifadə edə biləcəyi bir yerə qoyulur (Şəkil 1.26).



**Şəkil 1.26. Flipçart və portativ dayaq**

Sinifdə zəruri təlim avadanlığı kimi istifadə olunan resurslardan biri də lövhələrdir. Lövhələr müxtəlif növ ola bilər. Adi qara lövhə, ağ lövhə, elan lövhəsi, elektron lövhə və s. Lövhə şagirdlərin təlim materialını daha böyük ölçüdə və bütün kollektivlə görə bilmələri üçün istifadə olunur. Müəllimin zəruri qeydləri, tapşırıqlar, həyata keçiriləcək fəaliyyətin planı, elanlar və s. bu lövhələr vasitəsilə şagirdlərə çatdırılır (Şəkil 1.27).



**Şəkil 1.27. Lövhələr: ağ lövhə (solda), elan lövhəsi (sağda)**

Sinifdə son vaxtlar geniş istifadəsi ilə seçilən texnoloji vasitələrdən biri də elektron ağıllı lövhələrdir ki, müəllim bu faydalı lövhə vasitəsilə bütün əməliyyatları, dərsin gedişini, hazırlanmış şablonları, modelləri kompüterin daimi yaddaşında saxlaya, eyni zamanda onu təkrar dərs nümunəsi kimi istifadə edə bilir. Belə imkanlar müxtəlif səbəbdən dərsləri buraxan şagirdlər və ya təlimdən geri qalan uşaqlar üçün xüsusi əhəmiyyətə malikdir. Belə

ki, şagird iştirak edə bilmədiyi dərsin elektron variantı ilə sonradan tanış ola bilər və ya təlimdən geri qalanlar həmin materialı tam qavrayana kimi təkrar-təkrar kompüterdə izləyə bilərlər (Şəkil 1.28).

Elektron lövhələrin iş prinsipi dörd elementdən ibarətdir:

1. İntellektual lövhə;
2. Proyektor;
3. Lövhəni idarəetmə pultu;
4. Noutbuk üçün çıxış.



**Şəkil 1.28. Elektron lövhə**

Müəllimin tədrisdə istifadə etdiyi faydalı vasitələrdən biri də proyektorlardır. Proyektor vasitəsilə müəllim tədris materialını audio-vizual şəkildə şagirdlərə nümayiş etdirə bilir (Şəkil 1.29).

Müəllim dərsdə bir çox əyani və texniki resurslardan istifadə edir. Hər il cəmiyyət daha çox inkişaf edir, elektron vasitələr artır, təlimin səmərəliliyini və optimallığını artırmaq üçün çoxlu vasitələr yaranır. Müəllim bu yenilikləri izləməli, sinfində şagirdlərin dəstəklənməsi və sağlam öyrədici mühit yaratmaq üçün lazım olan bütün zəruri resursları əldə etməyə çalışmalıdır.



**Şəkil 1.29. Proyektor**

**İş vərəqlərinin hazırlanması zəruri təlim materialı kimi**

İbtidai şagirdlərin ən böyük dəstəklənmə formalarından biri onların tədris prosesində dəstəklənməsi və öyrənmə imkanlarının genişləndirilməsidir. Didaktik materiallarla davranış, bildiklərini və bacardıqlarını təcrübəyə tətbiq etmək, müstəqil işlərlə məşğul olmaq şagirdlərin sərbəst öyrənməsi üçün ən optimal üsullardan biridir.

İş vərəqlərindən müasir təhsil sistemində geniş istifadə olunur. Onlar dərsin daha çox tədqiqat hissəsində istifadə olunsa da, istənilən dərs mərhələsində iş vərəqlərindən istifadə etmək, onun öyrədici imkanlarını dəyərləndirmək mümkündür. Müəllimlərin fəaliyyətinin mühüm bir hissəsini tədris üçün əyani vəsaitlərin hazırlanması tutur. Əyani vəsaitlər müxtəlif ola bilər. Lakin onların arasında iş vərəqləri daha böyük didaktik təsirə malik vasitə kimi seçilir.

Şagirdlərin müstəqil fəaliyyətinin təmin olunması və tənzimlənməsi müasir tədris prosesinin mühüm tərkib hissəsidir. Şagirdin müstəqil fəaliyyətə alışdırılması ona sonrakı

həyatında daha yüksək nailiyyətlər əldə etməsinə, sərbəstliyə, fikirlərini ifadə etmə bacarığına, bildiklərini tətbiq etməsinə imkan yaradır.

İş vərəqlərinin əsas tətbiq mərhələsi qruplarla iş həyata keçirmə mərhələsidir ki, burada şagirdlərə təfəkkürün müxtəlif növlərini inkişaf etdirən tapşırıqlar qoyulur. Tapşırıqların icrası və nəticələrin digər şagird yoldaşları ilə müzakirə olunması şagirdin həm öyrənməsinə, həm də əməkdaşlıq etmə, ünsiyyət qurma, liderlik, məsuliyyət hissi, bildiklərini və bacardıqlarını bütün siniflə bölmə bacarığına, həm də müstəqilliyini inkişaf etdirməsinə kömək edir (Şəkil 1.30).




**Şəkil 1.30. İş vərəqi: İdeyalar ağacı**

Yuxarıda verilən iş vərəqinin hazırlanması və müstəqil fəaliyyətdə tətbiq olunması həm müəllimlərin, həm də şagirdlərin geniş istifadəsi üçün çox əlverişlidir. Bu vəsaiti həm iş vərəqi kimi, həm də gündəlik istifadə edilməsi mümkün əyani resurs kimi istifadə etmək olar. Şagirdlərin yaradıcı fikirlərinin, müsbət ideyalarının dəyərləndirilməsi onların həm təfəkkürünü stimullaşdırır, həm də əlavə təlim marağının yaranmasına gətirib çıxarır.

Şagirdlərin müstəqil işlərlə məşğul olması pedaqogikada köhnə anlayış olsa belə, o öz mahiyyətinə və imkanlarına görə daim yenilikçi xarakter daşıyır. İstər ənənəvi təhsildə, istərsə də müasir şəxsiyyətyönlü təhsildə şagirdin müstəqil fəaliyyətlə məşğul olması təhsilin və müəllimlərin qarşısında mühüm vəzifələrin qoyulması və onun həyata keçirilməsi ziddiyyətini yaratmışdır. Bu ziddiyyətlərin həll olunması şagirdin təhsildə nailiyyətlər əldə etməsi, bildiklərini və bacardıqlarını sərbəst şəkildə tətbiq etmə bacarığına yiyələnməsi ilə nəticələnmişdir.

İş vərəqlərinin hazırlanması müəllimdən xüsusi zəhmət və məsuliyyət tələb edən bir prosesdir. Müəllimlər bəzən iş vərəqlərinin, eləcə də digər əyani vəsaitləri, yəni resursları hazırlamağın mühüm bir didaktik vəzifə olduğunu unudurlar. Halbuki iş vərəqləri şagirdi

sərbəst düşünməyə vadar edən və müstəqil fəaliyyətə hazırlayan ən mühüm didaktik materiallardan biri kimi nəzərdə tutulmuşdur (Şəkil 1.31).




**Şəkil 1.31. İş vərəqi nümunəsi**

İbtidai təhsil səviyyəsində iş vərəqlərinin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin təfəkkürünün əyani-obrazlı xarakter daşıması, oyun fəaliyyətindən təlim fəaliyyətinə keçid, bununla yanaşı, oyun elementlərinin hələ də təlim fəaliyyətində saxlanması ibtidai təhsil səviyyəsini və bu səviyyədə təhsil alan kiçik yaşlı məktəbliləri xarakterizə edən mühüm xüsusiyyətdir. İbtidai sinif şagirdlərinin bu cür əyani-obrazlı təfəkkürə malik olması müəllimdən tələb edir ki, onlar iş vərəqlərini hazırlayarkən bir sıra xüsusiyyətlərə, şərtlərə əməl etsinlər.

İş vərəqlərindən istifadənin təhsildə müsbət tərəfləri nələrdən ibarətdir?

Tədris zamanı iş vərəqlərindən istifadənin bir çox müsbət tərəfləri vardır:

- İş vərəqlərinin tərtib olunması zamanı istifadə edilən rəngarənglik şagirdlərin fəallaşmasına gətirib çıxarır;
- Tədqiqat zamanı şagirdlərin təşkilinə və birgə fəaliyyətinə kömək edir;
- Vaxta qənaət etməyə imkan verir;
- Şagirdlər işlərin nəticələrini müxtəlif formada təqdim etməyi öyrənirlər;
- Şagirdlərin estetik zövqünün formalaşmasına və inkişafına kömək edir;
- Əlavə təlim resursu kimi istifadə oluna bilir;
- Şagirdlərdə ruh yüksəkliyi və əlavə təlim marağı yaradır;

Müəllimlər iş vərəqi hazırlayarkən aşağıdakı tələbləri nəzərə almalıdırlar:

- İş vərəqləri cəlbedici məzmun və tərtibata malik olmalıdır;
- Məqsəd və sual konkret olmalıdır;
- Uşaqların səviyyəsinə uyğun olmalıdır.

İbtidai sinif müəllimləri iş vərəqlərini hazırlayarkən onun tərtibedilmə tələblərinə mütləq riayət etməlidirlər. Müəllim dərk etməlidir ki, iş vərəqləri şagirdin tapşırıq həll etməsi üçün adi kağız deyil. İş vərəqi vasitəsilə şagird öyrənir, inkişaf edir və tərbiyə olunur. Yəni göstərilən bu üç istiqamətin həyata keçirilməsi və iş vərəqlərinin tərtib olunması pedaqoji prosesin tamlığını təmin etməlidir. Bu baxımdan da iş vərəqlərinin hazırlanması zamanı tapşırıqların həcmi, sualların miqdarı və növləri, tərtibetmə qaydaları, onların estetik dizaynı mütləq nəzərə alınmalıdır. Yəni, sualların miqdarı qoyulan müddət üçün uyğun olmalıdır. Əlavə olaraq, tapşırıqlar hazırlanarkən, bir sual üçün nə qədər (neçə dəqiqə) vaxt lazım olduğu müəyyən edilməlidir. Tapşırıqların həcmi də bir dərs ərzində həll edilə biləcək qədər olmalıdır. Çox uzun, həlli çətin tapşırıqlar uşaqları həvəsdən sala bilər. Müəllim tapşırıq yazarkən unutmamalıdır ki, həmin tapşırıqlar bütün qruplar üçündür. Bir qrup üçün asan, digəri üçün isə çətin sualların tərtibi yolverilməzdir. Bu həm də müəllimin fasilitasiya qaydalarına əməl etməsini şərtləndirir. Tapşırıqlar şagirdlərin təfəkkürünün inkişafı üçün nəzərdə tutulduğundan suallara ayrılan vaxta və asan-çətinliyinə diqqət etmək lazımdır.

İş vərəqində verilən tapşırıqlar aşağıdakı istiqamətləri əhatə etməlidir:

- Hafizənin inkişafına yönələn;
- Tənqidi təfəkkürün inkişafına yönələn:
  a) Məntiqi;
  b) Tənqidi;
  c) Yaradıcı.

İş vərəqi hazırlanarkən dərsin məqsədinə, dərsin mövzusuna və məzmununa uyğun olmalı, eyni zamanda formalaşdırılmalı olan bilik, bacarıq və vərdişləri əks etdirməlidir (məntiqi və ya tənqidi təfəkkürü, yaradıcılıq qabiliyyətlərini, müstəqil işləmək bacarığını, elmi-tədqiqat bacarıqlarını, estetik qavramanı və s.). İş vərəqləri dərsin məqsədindən kənar olduqda, o, öz didaktik əhəmiyyətini itirər və şagirdlər üçün əlavə yükə çevrilə bilər.

Tapşırılar mütləq dərsin məqsədlərinə uyğun olmalı və qarşıya qoyulmuş tədqiqat işinin həllinə yönəlməlidir (təfəkkür növü üzrə, informasiya mənbəyi üzrə, nəticələrin təqdimat forması üzrə və s). Şagirdin yaşı, bilik səviyyəsi və intellekt səviyyəsinin nəzərə alınması vacibdir.

İş vərəqlərini tərtib edərkən nəzərə alınması vacib olan xüsusiyyətlərdən biri nəticələrin təqdimat formalarının müəyyənləşdirilməsi və açıq şəkildə vərəqdə qeyd olunmasıdır. Müəllim iş vərəqi hazırlayan zaman tapşırığın xarakterindən asılı olaraq aşağıdakı təqdimetmə formalarından birini seçə bilər:

- İfadə yazılar, təsvirlər, əsərlər, şeirlər, esselər;

- Sxemlər, cədvəllər, qrafiklər;
- İllüstrasiyalar, kitablar, qəzetlər;
- Nağıllar, tapmacalar, atalar sözləri, zərb məsəllər, uydurmalar, yanıltmaclar;
- Təcrübələr, eksperimentlər;
- Maketlər, modellər, rəmzlər;
- Layihələr;
- Qaydalar, qanunauyğunluqlar;
- Səhnələşdirmələr;
- Kollajlar;
- Faktlar və nümunələr kataloqu;
- Musiqilər;
- Referatlar;
- Krossvordlar, rebuslar, bağlamalar və s.

Müəllimlər iş vərəqini hazırlayan zaman şagirdlərin köməyindən də istifadə edə bilərlər. Məsələn, texnologiya dərslərində növbəti dərslərdə istifadə olunacaq əyani resursları, o cümlədən iş vərəqlərini də hazırlatdırmaq olar. Belə olan halda şagirdlər iş vərəqləri ilə çalışmağa daha həvəsli olurlar. Çünki iş vərəqləri öz əməklərinin nəticəsi kimi özlərinə təqdim olunur. Vərəqin estetik dizaynı üçün hazır şablon çərçivələrin hazırlanması, plastilindən, kartondan, müxtəlif rəngli kağızlardan istifadə olunaraq iş vərəqinin tərtib edilməsi şagirdlərdə bədii zövq və yaradıcı bacarıqları da inkişaf etdirmiş olur (Şəkil 1.32).




**Şəkil 1.32. İş vərəqi nümunəsi**

Müəllimlərin diqqət yetirməli olduqları məsələlərdən biri də iş vərəqinin tərtibatının

müəyyənləşdirilməsidir. İş vərəqlərini:

- Səliqəli;
- Yığcam (tapşırıq dəqiq verilməlidir);
- Estetik;
- Əyani;
- Rəsmi məlumatları (tarixi, sinif, qrup iştirakçılarının siyahısı və s.) əks etdirən formada tərtib etmək lazımdır.

İş vərəqlərini hazırlayan zaman ibtidai sinif müəllimi nəzərə almalıdır ki, tapşırıqların icrası zamanı müxtəlif məlumat mənbələrindən istifadə etmək imkanı yaranmalıdır. Şagirdlərə verilən tapşırıqlarda onlar aşağıdakı mənbələrdən istifadə edərək işi müstəqil şəkildə yerinə yetirməlidirlər:

- **Çap resurslardan istifadə.** Müəllim iş vərəqini hazırlayanda sualları elə qoymalıdır ki, şagirdlər əllərinin altında olan çap resurslarından istifadə edə bilsinlər. Dərslik, jurnal, qəzet, bülleten - bunlar şagirdə imkan verir ki, çap resurslardan istifadə edərək tədqiqatı davam etdirsinlər. Müəllimlər bəzən tapşırıq və iş vərəqi təqdim edərkən yanlış olaraq düşünürlər ki, şagird heç bir vəsaitdən istifadə etməməlidir. Lakin düşünülənin əksinə olaraq, şagird tədqiqat zamanı bir çox mənbələrdən istifadə etməlidir. Sualların qoyuluşu və tapşırığın xarakteri elə olmalıdır ki, şagird hazır biliklərdən çox tədqiqat aparma istəyi və ehtiyacı hiss etməlidir. Dərslikləri araşdırmalı, əlavə materiallara baxmalı, nəticə və ümumiləşdirmə aparma bacarığına malik olmalıdır;
- **Əyani vəsaitlərdən istifadə.** Şagirdlər onlara verilən tapşırıqları əyani vəsaitlərin köməyi ilə həll etməyə çalışmalıdırlar. Məsələn, riyaziyyatdan hansısa bir tapşırıq verilərkən müxtəlif hesablama və ölçmə əməliyyatlarını yerinə yetirmək lazım gəlir. Bu zaman təbii ki, şagird sinifdə istifadə etdiyi əyani vəsaitlərin köməyinə ehtiyac duyacaqdır. Bu baxımdan tapşırığı elə vermək lazımdır ki, şagird əyani vəsaitlərdən istifadə edə bilsin. Hesab edək ki, tapşırıqda (həyat bilgisi) suyun və ya havanın temperaturunun ilkin təcrübə ilə ölçülməsi nəzərdə tutulur. Bu zaman əyani vəsait yoxdursa (termometr), şagird bu tapşırığı yerinə yetirə bilməyəcəkdir.

Qeyd etmək lazımdır ki, iş vərəqləri şagirdlərin ancaq qrup şəklində istifadəsi üçün nəzərdə tutulmur. Ondan kollektiv, fərdi və cütlərlə iş formasında, eləcə də ev tapşırıqlarının həyata keçirilməsində istifadə etmək mütləqdir. Şagirdlərin fərdi və ya digər formada həyata keçirəcəkləri layihələrlə bağlı olan iş vərəqlərinin icra və təqdimetmə müddəti dəyişə bilir. Məsələn, hansısa kompozisiyanın, aplikasiya işlərinin həyata keçirilməsi, və ya hansısa model və maketin hazırlanması buna misal ola bilər. Şagirdlərin öyrəndikləri bəzi mövzu və fənlər müstəqil işin kağız üzərində deyil, bilavasitə maket və ya model üzərində, konstruktorlarla aparılmasını tələb edir.

Buradan da iş vərəqlərinin işlənməsində digər bir mənbə olan təcrübi materiallardan istifadə üzə çıxır. Müəyyən sadə təcrübələrin aparılması, fəaliyyətin həyata keçirilməsi

şagirddən daha aktiv və çevik olmağı və təcrübə yolu ilə öyrənməni tələb edir. Bu iş vərəqləri özünü daha çox praktik fəaliyyət tələb edən dərslərin icrası zamanı göstərir. Texnologiya, musiqi, təsviri incəsənət, fiziki tərbiyə, həyat bilgisi, informatikanın bəzi mövzuları, eləcə də daha çox kağız üzərində aparılmasını hesab etdiyimiz dərslərdə belə (ana dili, riyaziyyat) bəzən təcrübi vasitələrdən istifadə etmək vacibdir. Şagirdləri dəstəkləmək və onları müstəqil həyata hazırlamaqda təcrübi tapşırıqların rolu daha böyükdür.

İş vərəqlərindən və onun hazırlanmasından bəhs edərkən diqqətə çatdırmaq istərdik ki, iş vərəqi anlayışı ancaq kağız materialların üzərində iş kimi başa düşülməməlidir. İş vərəqində tapşırıq verilsə belə, onun icrasının əyani və texniki vasitələrlə icrası daha çox səmərə verir. Şagirdlərə tapşırıq verərkən daha çox yaradıcılıq elementlərini şagirdə icra etdirmək lazımdır ki, o müstəqilliyə və fikir yürütməyə, fərqli ideyalar düşünməyə meyilli olsun.

### 1.3.3. Sinif üçün əyani vəsaitlərin hazırlanması yolları

İbtidai sinif müəlliminin mühüm peşəkar keyfiyyətlərindən biri öz sinfini idarə edə bilməsi və ona nəzarəti həyata keçirmə bacarığıdır. Sinfini idarə edə bilən və ona nəzarəti davamlı həyata keçirən müəllim şagirdləri tanıyır, sinfin ehtiyaclarını, şagirdlərinin daha çox nələrdən öyrənə biləcəyini, necə öyrənəcəyini və onlara nəyi öyrədəcəyini bilir. Sinfinə hakim olan, yəni onu tanıyan müəllim sinfin ehtiyaclarını da özü qarşılamağı bacarmalıdır.

Şagird necə öyrənir? İbtidai sinif müəllimləri bu sualın cavabını illərlə təcrübə qazanaraq öyrənirlər. Şagirdlər üçün ümumi olan yaş və fərdi xüsusiyyətlərdən əlavə, hər bir şagirdin də ayrıca öyrənmə üsulları, qəbuletmə formaları vardır. İbtidai sinif müəllimi şagirdlərlə digər həmkarlarına nəzərən daha çox ünsiyyətdə olur, onları müşahidə edir, dəyərləndirir, şagirdlərinə uyğun müsbət sinif mühiti yaradır.

Dəstəkləyici, öyrədici və müsbət sinif mühitini təşkil etməyin mühüm yollarından biri müəllimin öz şagirdlərinin ehtiyaclarına və öyrənmə maraqlarına uyğun əyani vəsaitləri hazırlamasıdır. Müəllim bu vəsaitləri əksər vaxt şagirdlərin özləri ilə birgə hazırlayır. Birgə fəaliyyət prosesi özü də şagirdlərin daha yaxşı öyrənməsinə və həyati bacarıqları mənimsəməsinə gətirib çıxarır.

Təlim resurslarının bir qismi müəllimə dövlət və məktəb tərəfindən təqdim edilir. Bu resurslar daha çox fiziki mühitin təşkili ilə bağlıdır və sinifdəki avadanlıqlar, alət və ləvazimatları buna misal göstərmək olar. Dərslik və iş dəftərləri də dövlət tərəfindən təqdim olunur. Texnoloji resurslar da müəllimin bilavasitə özünün hazırlamadığı resurslar sırasına aiddir. Bu ümumi resurslarla yanaşı, şagirdin öyrənməsi və bildiklərini daha sərbəst tətbiq edə bilməsi üçün daha çox təlim resursuna ehtiyac vardır. Müəllimlər bu təlim materiallarını özləri hazırlamalı və siniflərində dərsin məqsədinə uyğun şəkildə istifadə etməlidirlər.

Təlim resurslarının hazırlanması üçün müəllim təlim prosesində istifadə olunacaq əyani vəsaitlərin formasına qoyulan tələbləri bilməlidir. Təlim resursu:

- İnteraktiv (şagirdin üzərində işləyə bildiyi vəsait) olmalıdır. İnteraktiv təlim resurslarına iş vərəqlərini aid etmək olar. Bu resurslar hazırlanarkən şagirdlərin

yaş və anlaq səviyyəsinə uyğun tapşırıqlarla hazırlanır və şagirdlər onlar üzərində iş apara bilirlər. İş vərəqlərinin hazırlanması haqqında ətraflı yuxarıda bəhs edilmişdir.

- Aydın görünməlidir. Təlim resursunu hazırlayarkən onun şəffaflığı, qüsursuzluğu, aydın görünə bilməsi diqqət mərkəzində saxlanılır. Təlim resursunu hazırlayarkən elə məsuliyyətli olmaq lazımdır ki, şagird həmin resursdan əlavə material kimi və təlim marağının artırılmasına xidmət edən əyani vəsait kimi istifadə edə bilsin. Şagirdi psixoloji cəhətdən yoran, onu yükləyən təlim resursu nəinki əlavə vəsait kimi yardımçı xarakter daşımır, həmçinin təlim marağının azalmasına səbəb olur;
- Cəlbedici, rəngli və ya qalın şriftlə yazılmalıdır. İbtidai sinif şagirdlərinin təfəkkür forması tələb edir ki, əyani vəsaitləri hazırlayarkən onun estetik xüsusiyyətlərinə diqqət yetirilsin. Cəlbedici və rəngli şriftlər hər zaman şagirdlərin marağının oyanmasına və onların dəstəklənməsinə səbəb olmuşdur.
- Təhlükəsiz şəkildə uşaqların tutacağı və ya toxuna biləcəyi ölçüdə olmalıdır. Təlim resursu hazırlanarkən onun şagirdlər üçün təhlükəsizliyi ən vacib məqamlardan biridir. Resursları hazırlayarkən çalışmaq lazımdır ki, o, iti kənarlı, ağır, kəsici və şagirdlərin sağlamlığı üçün təhlükə törədən materiallardan olmasın. Şagird sərbəst fəaliyyət göstərə bilmək üçün əyani vəsaiti daşıya bilməli və ya onun üzərində rahatca işləyə bilməlidir;
- Dözümlü və asan təmir oluna biləcək möhkəm materiallardan hazırlanmalıdır. Təlim üçün zəruri resurs hazırlayarkən tez sına bilən əşyaların istifadəsindən yayınmaq lazımdır. Bu şagirdlərə təhlükə törətməklə yanaşı, dərsin də ümumi axınının pozulmasına səbəb olur. Ona görə də şagirdlər üçün daşınılabilən resursların əksəriyyəti kartondan və yüngül taxta parçalarından hazırlanır;
- Yalnız müvafiq məlumat və ya detallardan ibarət olmalıdır. Zəruri təlim resursu dərsin hansı məqsədi üçün istifadə olunacaqsa yalnız o məlumatları özündə əks etdirməlidir. Əgər hansısa bir fiqurun hazırlanma texnologiyasından söhbət gedirsə, hazırlanan detal və model dərsin mərhələlərinə uyğun təqdim olunmalıdır;

➢ İstifadəsi əyləncəli olmalıdır. İbtidai sinif şagirdləri əyani-obrazlı təfəkkürə malik olduqlarından onlar üçün hazırlanmış əyani vəsaitlər əyləncəli xarakter daşımalı və özündə oyun elementlərini birləşdirməlidir. Məsələn, sinif üçün müəyyən guşələrin yaradılması. Şagirdlərin nə qədər bədii əsər oxuduğunu müəyyənləşdirmək üçün sinfin bir hissəsində aşağıdakı şəklə uyğun əyləncəli əyani vəsait hazırlamaq olar (Şəkil 1.33).



**Şəkil 1.33. Əyləncəli sinif guşəsi**

Bu əyani vəsaitin hazırlanması və tətbiqi şagirdlərdə müsbət təlim əhval-ruhiyyəsi yaradır. Hər şagirdin özünə uyğun cibciklər qoymaq və şagirdi oxumağa təşviq etmək olar. Bu vəsaitin hazırlanmasında rəngli arxa fon şəklindən, yapışqandan, ağ rənglənmiş kartondan və əyləncəli fiqurlardan istifadə olunmuşdur. İbtidai sinif müəllimləri buna uyğun maraqlı sinif guşələri yarada və şagirdlərin öyrənməsi üçün daha canlı şərait təmin edə bilərlər.

- **Dərsin məqsədlərinə müvafiq olmalıdır.** Hazırlanan əyani vəsait mütləq dərsin məqsədinin reallaşmasına xidmət etməlidir. Rənglilik və canlılıq xatirinə sinfə əyani vəsait gətirmək doğru deyildir. Əyani vəsaiti vaxtında və məqsədinə müvafiq şəkildə təqdim etmək vacibdir;
- **Tullantı materiallarından hazırlanmış olması üstünlükdür.** Əyani vəsaitləri hazırlayarkən istifadə oluna biləcək və təhlükə törətməyən tullantı vasitələrindən istifadə olunması üstünlükdür. Belə ki, artıq atılacaq olan, istifadəyə yararsız bəzi məhsullardan müəllim öz sinfi üçün əyani vəsait hazırlamağa istifadə edə bilər. Məsələn, karton kağız hissəcikləri, şirniyyat qutuları, taxta parçacıqları, parça qalıqları, əşyaların müəyyən hissələri və s. bunlardan yaradıcı müəllim öz sinfi üçün zəruri təlim resurslarının hazırlanmasında istifadə edir;
- **Bir dəfədən çox istifadə edilə bilən olmalıdır.** Təlim üçün resursları hazırlayarkən ondan sadəcə bir sinifdə və dərsdə yox, başqa siniflərdə və dərslərdə

də istifadə etmək lazımdır. Bu baxımdan hazırlanan əyani vəsaitin uzunömürlü olması, bir neçə dəfə istifadəyə uyğun olması mühüm xüsusiyyətdir.

İbtidai sinif müəllimi təlim resursları hazırlayarkən bu tələbləri nəzərə almalı və fəaliyyətində istifadə etməlidir.

Təlim üçün resurslar hazırlayarkən müəllim onların didaktik olmasına diqqət yetirir, əyani vəsaiti nümayiş xatirinə deyil, öyrətmə vasitəsi kimi istifadə etmək lazımdır. Müəllimlər zəruri təlim resursları hazırlayarkən iki əsas istiqamətdən istifadə edirlər. Birincisi, çap resurslarının hazırlanmasıdır ki, bunun üçün müəllim dərslikdən əlavə materiallardan istifadə edir və materialı əyani şəkildə, yəni cəzbedici mətn formasında, böyük və qalın şriftlərlə, müxtəlif şəkillərlə şagirdlərə təqdim edir.

İkincisi isə müəllimlərin bilavasitə özləri hazırladıqları və ya şagirdlərlə birgə hazırladıqları 2 ölçülü, 3 ölçülü, həcmli tədris materiallarıdır ki, bunların bəzisinin hazırlanmasına indi diqqət yetirəcəyik.

Müəllimlər daha çox riyaziyyat dərsləri üçün əyani vəsaitlər hazırlayır. Sonrakı yerləri isə dil dərsləri tutur. Bu materialların hazırlanmasının texnologiya və təsviri incəsənət dərsləri ilə inteqrasiya olunması isə çox yaxşı nəticələr verir. Belə olan halda şagirdlər həm praktiki dərslərdə faydalı fəaliyyət göstərir, həm də nəzəri dərslər üçün əyani vəsait əldə etmiş olurlar.

Təlim resurslarının hazırlanmasında əsas yeri riyazi materialların hazırlanması tutur. Müxtəlif fiqurlar, onların 2 ölçülü və 3 ölçülü formalarının yaradılması, müstəvi və fəza fiqurlarının düzəldilməsi, hesab əməllərinin həyata keçirilməsi üçün hazırlanmış vəsaitlər buna misal ola bilər.

Riyaziyyat dərslərində şagirdləri əyani şəkildə hesablama bacarıqlarına yiyələndirmək üçün müəllimlər özləri hesablama sayğacı hazırlaya bilərlər. Hesablama maşınlarından fərqli olaraq bu alət təlimin daha canlı olmasına və şagirdlərin əyani şəkildə hesablama əməliyyatlarını yerinə yetirməsinə kömək edir. Sayğacın hazırlanması üçün lazım olan avadanlıqlar taxta parçaları, istifadəyə yararsız çətir dəmirləri, taxta və ya plastik aşıqlar (kürəciklər), mismar və ya yapışqan ola bilər. Bunun üçün çətir dəmirlərinin birləşdirilməsi üçün iki taxta hissəcik, həmin taxtaları saxlamaq üçün dayaqcıqlar (taxtadan) və rəngli kürəciklər lazımdır (Şəkil 1.34).



**Şəkil 1.34. Hesablama sayğacı (şotkə)**

Riyaziyyat dərslərində istifadə olunması üçün hazırlanan digər əyani vəsaitlərə fiqurların hazırlanmasını aid etmək olar. Bu fiqurları hzırlamaq üçün rəngli kağız, xətkeş, qayçı və əgər fiqur hansısa bir səthə yapışdırılacaqsa yapışqan kifayətdir. Şagirdlər müxtəlif fiqurları əyani şəkildə görərək öyrəndikdə təlim onlar üçün daha asan və canlı xarakter alır

(Şəkil 1.35).




**Şəkil 1.35. Riyazi fiqurlar**

Bu fiqurların hər birini müəllim ayrıca kəsib hazırlaya və riyaziyyat dərslərində müstəvi fiqurları öyrədərkən istifadə edə bilər. Riyaziyyat dərslərində vurma cədvəlinin öyrənilməsi üçün də maraqlı vəsait hazırlamaq mümkündür. Bunun üçün vurma cədvəllərinin yazılmış olduğu dairəvi kağızlar, yapışqan, rəngli karton parçaları və birləşdirici lazımdır (Şəkil 1.36).



**Şəkil 1.36. Vurma cədvəlini öyrətmək üçün resurs**

Bu resursu vurma cədvəlinin öyrədilməsi zamanı istifadə etməklə yanaşı, sinifdə saxlamaq da mümkündür. Estetik dizaynı baxımından sinfin dekorasiyasında ondan istifadə etmək olar. Həmçinin birləşdirici ilə bərkidildiyindən sinif otağında çox yer də tutmayacaqdır və lazım gələrsə hər dərs şagirdlər ondan istifadə edə bilər.

**Hesablama üçün əyani resursun hazırlanması.** Bu təlim resursunun hazırlanması üçün karton kağızlar, böyük karton parçası (səth kimi), yapışqan və rəqəmlər qeyd olunmuş kağızlar kifayətdir. Böyük bir karton parçasının üzərinə cibciklər yapışdırılır, onlara sonradan rəqəmləri qoyub, götürmək mümkün olur və şagirdlər hesablama zamanı ondan

rahat istifadə edirlər (Şəkil 1.37).

Riyaziyyat dərslərində istifadə üçün nəzərdə tutulan resurslardan biri də ölçmə əməliyyatını yerinə yetirmək üçün hazırlanan tərəzidir. Qeyd etmək lazımdır ki, tərəzini sadəcə riyaziyyat dərsi üçün deyil, başqa dərslərdə də istifadə etmək olar. Tərəzinin hazırlanması üçün taxta parçalar, qarmaqlar (2 ədəd), tərəzi gözləri üçün istifadəyə uyğun plastik nəlbəkilər (istifadə edilməyən qapaqlar da ola bilər), əyilə bilən yumşaq alüminium dəmirlər (qabları saxlamaq üçün) və tərəzi qollarını saxlamaq üçün yivli bolt və müxtəlif çəkiyə malik çəki daşları lazımdır (Şəkil 1.38).




**Şəkil 1.37. Hesablama əməliyyatı aparmaq üçün vasitə**



**Şəkil 1.38. Tərəzi**

Riyaziyyat dərslərini maraqlı etmək və şagirdləri daha yaxşı dəstəkləmək, onları öyrətmək üçün daha yaradıcı yanaşmalardan da istifadə etmək olar. Yaradıcı yanaşma dərsin mahiyyətini təşkil edir. Müəllim öyrətdiyi hər bir mövzuya yaradıcı yanaşmalı və sinifdə gördüyü hər bir şeydən resurs kimi istifadə etməyi bacarmalıdır. Məsələn, qapıdan dərəcələrin ölçülməsi kimi istifadə etmək olar. Bunun üçün qapının divara birləşdiyi yerdə döşəməyə dərəcələrin yazılması kifayət edir. Belə ölçmə nümunəsini artıq dördüncü sinifdə uşaqlara təqdim etmək mümkündür (Şəkil 1.39).



**Şəkil 1.39. Qapının ölçmə vasitəsi kimi istifadə olunması**

Dil dərsləri üçün də müəllimlər yaradıcı və didaktik məqsədli vəsaitlər hazırlaya bilərlər. Məsələn, şəkilçiləri sözə birləşdirmək üçün açılıb bağlanan kağızlardan ibarət vəsait hazırlamaq olar. Sözlərin bu cür öyrədilməsinə dair nümunə Azərbaycan dili dərsi üzrə təqdim olunur (Şəkil 1.40).




**Şəkil 1.40. Azərbaycan dili dərslərində şəkilçilərin öyrədilməsi üçün resurslar**

Müəllimlər bu cür əyani vəsaitləri hazırlamaq üçün özləri mövzunu təhlil etmə və yaradıcı yanaşma bacarığına malik olmalıdırlar. Müəllim hər dəfə dərsə başlamamışdan əvvəl onu planlaşdırmalı, diaqnoz və proqnoz qoyma bacarıqlarını inkişaf etdirməli və dərsi necə maraqlı tədris edə bilməyin yolları barədə düşünməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. Əyani və texnoloji vasitələr haqqında təqdimat hazırlayın.
2. Resursların seçilməsinə verilən tələbləri şərh edin.
3. Resurslardan istifadənin faydaları haqqında təqdimat hazırlayın.
4. Dərsdənkənar vaxtda "Resursların faydaları" adlı dərs-seminar təşkil edin. Təcrübələrinizi və təəssüratlarınızı qeyd edin.
5. Elektron resurs nümunələri hazırlayın.
6. Çap resursları hazırlayın.
7. Məktəb ləvazimatları haqqında sxem tərtib edin.
8. İş vərəqlərinə hansı tələblər verilir?
9. Mövzu təyin edin və ona uyğun iş vərəqləri hazırlayın.
10. Mövzuya uyğun əyani resurslar hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlim üçün zəruri resursları hazırlayır”.**

1. Əyani və texnoloji vasitələri müqayisəli şəkildə təhlil edin, üstünlük və çatışmazlıqları qeyd edin.
2. Sinif daxilində istifadə olunacaq resursların sxemini tərtib edin. Zəruri resurslar haqqında məlumat verin.
3. Audio vasitələr, vizual vasitələr və audiovizual vasitələr anlayışı haqqında esse yazın.
4. Elektron və çap resursları haqqında məlumat verin. Fikrinizi nümunələrlə əsaslandırın.
5. İş vərəqlərinin hazırlanması texnologiyasını izah edin.
6. Mövzuya uyğun iş vərəqləri hazırlayın.
7. Məktəb ləvazimatları və resurslar haqqında təqdimat edin.
8. Təlim resurslarına qoyulan tələbləri şərh edin.
9. Mövzuya və bəhsə uyğun əyani vəsaitlər hazırlayın.

# TƏLİM NƏTİCƏSİ 2

## TƏHLÜKƏSİZ TƏLİM MÜHİTİNİ YARATMAQ

## 2.1. Sinif avadanlıqlarının təhlükəsiz şəkildə təşkilini izah edir

### 2.1.1. Sinif avadanlıqlarının təhlükəsiz təşkili

Tədris prosesi təşkil olunarkən bütün fiziki, mənəvi, pedaqoji, psixoloji məsələlər diqqət mərkəzində saxlanılmalıdır. Təhlükəsiz təlim mühitində öyrənmək hər bir şagirdin hüququdur. Təlim mühitinin təhlükəsizlyinin mühüm bir hissəsi infrastruktur məsələsinə aid olub, binanın tikilməsi, avadanlıqların quraşdırılması ilə bağlı olsa da, bir çox məsələlər sinif daxilində ibtidai sinif müəllimindən asılıdır. Bu baxımdan ibtidai sinif müəllimliyi ixtisasına yiyələnən tələbələrin təhlükəsiz təlim mühitini yaratmaqla bağlı bacarıqları olmalıdır. Müasir təhsil sisteminin tələbləri daha çox həyati bacarıqlara yiyələnməni vacib edir. Bu, həm müəllimlər, həm də şagirdlər üçün xarakterikdir.

Sinif avadanlıqlarının təhlükəsiz şəkildə təşkili müəyyən dərəcədə ibtidai sinif müəllimindən asılıdır. Əlbəttə ki, avadanlıqlar özü müxtəlif zavod və fabriklər tərəfindən istehsal edilir, lakin həmin avadanlıqların təhlükəsiz şəkildə düzülüşünü müəllim təşkil edə bilər. Sinif otağının imkanlarından asılı olaraq müəllim sinifdə olan avadanlıqları bu və ya digər formada düzə bilər. Burada əsas məqsəd şagirdlərin təhlükəsizliyini təmin etmək və onların sərbəst hərəkət edə bilməsinə şərait yaratmaqdır.

Məktəblər tikilərkən sinif otaqlarının lazımi ölçüdə götürülməməsi bəzən müəllimlər üçün bu məsələdə problem yarada bilər. Lakin təcrübəli müəllim sinif otağına uyğun avadanlıqları elə təşkil edə bilər ki, maksimum təhlükəsizlik və səmərəli öyrənmə mühiti yaransın.

### 2.1.2. Sinfin təhlükəsiz təşkil olunması formaları

Sinfin necə təşkil olunması və dərslərin necə aparılması bir şagird üçün, eləcə də bir müəllim üçün çox əhəmiyyətlidir. Fiziki mühit, müəyyən bir sinif otağının və onun tədris materiallarının ümumi dizayn və tərtibatını nəzərdə tutur. Müəllimlər ətraf mühitin dizaynını, əşyalarını və materiallarını hər bir uşağın öyrənmə imkanlarını və fəaliyyətlərini artırmaq üçün tərtib etməlidirlər. Bunu effektiv şəkildə həyata keçirmək üçün müəllimlər ətraf mühitin və içindəki materialların hamı üçün əlçatan olmasının vurğulandığı "Universal Öyrənmə Dizaynı"nı bir konsepsiya kimi tətbiq edə bilərlər. Bu əlçatanlığın yaradılması müxtəlif oxu səviyyələrində kitabların verilməsini, materialların asan bir rəfə yerləşdirilməsini və ya əlil arabasından istifadə edən uşağın sinifdə hərəkət edə bilməsi üçün geniş yer yaratmağı əhatə edə bilər.

Sinifdə şagirdlərin fəaliyyət məkanının təhlükəsizliyini təşkil edə bilmək üçün müəllim bəzi xüsusiyyətləri nəzərə almalıdır. Bu xüsusiyyətlər ona imkan verir ki, əşya və maddi-texniki mühitin təşkil edilməsi zamanı təhlükəsizliyi təmin edə bilsin:

- Otağın ölçüsü;
- Otağın forması;
- Qapının yeri;
- Pəncərələrin yeri;

- Sinif daxilində şagirdlərin hərəkəti.

Məktəb mühitinin təhlükəsiz təşkilinin əsas prinsipləri onun:

- Sistemli olması;
- İnklüzivliyi;
- Dəyərlərə istiqamətlənməsidir.

Maksimum öyrənməyi və təhlükəsizliyi təşviq etmək üçün fiziki mühit yaradarkən işıqlandırma, temperatur, məkan və səs-küy elementləri nəzərə alınmalıdır. Otağın düzgün işıqlandırılması və ya günəş işığının otağa necə düşməsi, eləcə də otaqda əşyaların düzülüşünün təşkil olunması öyrənmənin optimallığını artıran vasitələr kimi diqqət çəkir. Öyrənmək üçün təhlükəsiz təlim mühitinin yaradılması prosesi hər zaman fiziki qüsurlu tələbələrin ehtiyaclarını nəzərə almalıdır.

Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin tikintisinə qoyulan tələblər, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri Respublikanın ali icra orqanı (Nazirlər Kabineti) tərəfindən təsdiq olunur.

Fiziki cəhətdən yaxşı qurulmuş və mütəşəkkil görünən bir sinif müsbət öyrənmə mühitini təşviq edir. Təhlükəsiz təşkil olunmuş bir sinifdə:

- Şagirdlər fiziki hüdudlara hörmət etməyi öyrənirlər. Şagirdlərə aid olan ərazilərlə müəllimə aid olan sahələr arasında, habelə şagirdin fərdi iş sahələri arasında sərhədlər mövcuddur. Bu, şagirdlərə digər insanların məkanlarına və əşyalarına hörmət etməyi öyrətmək üçün fürsət verir;
- Şagirdlər sinfin müəyyən sahələrində baş verəcək xüsusi fəaliyyət növlərini təxmin etməyi öyrənirlər. Bu, şagirdlərə fəaliyyət zamanı daha aktiv iştirak etməyə kömək edir, çünki əraziyə gözlənilən fəaliyyətə uyğun düşüncə tərzi ilə daxil olacaqlar;
- Şagirdlər, eyni zamanda sinfin hər bir xüsusi yerində hansı davranışların məqbul və gözlənilən olduğunu, sinfin digər yerlərində hansı davranışların qeyri-məqbul və ya yolverilməz olduğunu da öyrənirlər. Bu da evdə, cəmiyyətdə və gələcək həyatda vacib olan dəyərli bilgilərdir. Otağın düzgün təşkili bir çox şagirdə sakitləşdirici təsir göstərir;
- Sinifdə mövcud olan tədris materiallarını asanlıqla əldə edə bilirlər. Sinifin müəyyən sahələrində müəyyən fəaliyyətlər baş verdikdə, bu fəaliyyətlər üçün lazım olan materiallar istifadə ediləcək ərazidə yerləşdirilə bilər, bu da onları tez və asanlıqla əldə etməyə imkan verir.

Sinif təşkil olunarkən uşaqların hər birinin təhlükəsizliyini təmin etmək üçün əlilliyi olan şagirdlər da daxil olmaqla hər bir şagird nəzərə alınmalı və fiziki mühit ona uyğun təşkil olunmalıdır. Müəllimlər, əlilliyi olan şagirdlərin təcrübə əldə etmələrini və öyrənmə təcrübələrində tam iştirak etmələrini təmin etməlidirlər. Bunu fiziki mühitə kiçik dəyişikliklər etməklə əldə edə bilərlər, məsələn:

- Uşaqların ehtiyaclarını ödəmək üçün stulları dəyişdirmək və ya fərqli formada

yerləşdirmək;

- Uşaqların istifadə edəcəyi materialları onların əli yetəcək yerlərə qoymaq;
- Uşaqların daha müstəqil olmasına kömək etmək üçün fiziki terapevt tərəfindən tövsiyə olunmuş və ixtisaslaşmış avadanlıqlarla (quraşdırılmış qaşıqlar, uyğunlaşdırılmış qayçı) sinfi təmin etmək;
- Xüsusi avadanlıq (gəzən) və ya köməkçi texnologiya (rabitə lövhəsi) üçün otaqlar təşkil etmək;
- Uşaqlara gündəlik fəaliyyətlərdə iştirak etmək üçün fərdi vizual materialların yaradılması və s.

Sinfi təşkil edərkən dizayndakı dəyişikliklər və təlim mühiti işıqlandırmaya uyğun olmalıdır. İşıqlandırma aspekti vacibdir, çünki bu, şagirdlərə müəllimlərin izah etdiklərini aydın görmək imkanı verir. Hal-hazırda kompüter, kabel televiziyası və rəqəmsal proyektor kimi texnoloji cihazların artması səbəbindən sinif tədris mühitində işığın düzgün təşkil olunması getdikcə çətinləşir. Təlim mühitinin təhlükəsiz təşkilində texnologiyanın bütün elementləri və istifadə olunan işığın parlaqlığından əlavə işıqlandırma növünün seçilməsi də nəzərə alınmalıdır.

Tədris mühitinin fiziki tərəfləri tədris və təlim prosesinin səmərəliliyini artırmaq üçün optimallaşdırılmalıdır. Fiziki təlim mühitinin yaxşı vəziyyətdə olması müəllim və şagirdlərin ehtiyaclarını ödəməsi tədris və təlim prosesinin səmərəliliyini və uğurunu yaxşılaşdıra bilər.

Müəllim sinfi təşkil edərkən aşağıdakı nüansları diqqət mərkəzində saxlamalıdır:

- Şagird stol və stullarının yerləşdirilməsi;
- Kiçik qrup sahəsinin yaradılması;
- Kompüterlə iş yerlərinin yaradılması;
- Müəllim masası və avadanlıqları;
- Kitab şkafları;
- Sinif guşələri;
- Bitkilər üçün ayrılmış sahə;
- Hərəkət sahələri;
- Dərsliklər və əlavə tədris resursları;
- Tələbələrin əl işlərinin yerləşdirilməsi;
- Şəxsi sənədlər və portfolioların yerləşdirilməsi;
- Tez-tez istifadə olunan təlim materialları;
- Müəllimə aid olan ləvazimatların yerləşdirilməsi;
- Mövsümi və ya nadir hallarda istifadə olunan əşyalar.

Bütün bunların düzgün və təhlükəsiz yerləşdirilməsi müəllimdən mühüm bacarıq tələb edir.

Sinif otağının təhlükəsizliyini təşkil etmək üçün müəllim aşağıdakılara əməl etməlidir.

- Hərəkətin intensiv olduğu sahələri maneələrdən azad etmək;

- Şagirdlərin müəllim tərəfindən asanlıqla görünə biləcəyinə əmin olmaq;
- Tez-tez istifadə olunan tədris materiallarını asanlıqla əldə edilə biləcək yerlərdə yerləşdirmək;
- Şagirdlərin bütün sinif təqdimatlarını və nümayişlərini görə biləcəkləri şəkildə əyləşdirmək;
- Müəllim üçün kiçik sahə yaratmaq, bu zaman müəllim mövqeyindən sinfin qalan hissəsi sərbəst izlənə bilməlidir.

Şagird masalarının necə yerləşdirilməsi sinfin təşkil olunmasında əsas yerlərdən birini tutur. Bir çox sinif otağında ən çox yer fərdi tələbə masalarının təşkili üçün ayrılmışdır. Müəllimlər üstünlük verdikləri tənzimləmələrlə sinifdə təhlükəsiz təlim mühitini təşkil edə bilərlər. Bəzi müəllimlər ənənəvi sinif formasına üstünlük verdikləri halda, digər müəllimlər dörd nəfərdən ibarət kooperativ qruplarda masalar təşkil etməyi sevirlər, bir çoxları isə hamının ön sırada oturduğu U şəkilli konfiqurasiyaya üstünlük verirlər.

Şagird masalarının sinif otağında yerləşdirilməsinin 5 əsas forması vardır:

- “Sinif” forması – ənənəvi qayda;
- “Kafe” forması (“diskussiya klubu”);
- “U” hərfi formasında sinif;
- “Dairə” formasında sinif;
- Sağlam təhsil sinifləri.

“Kafe” forması qruplarda iş üçün əlverişlidir (Şəkil 2.1).




**Şəkil 2.1. Ənənəvi və “kafe” formalı sinif təşkili**

“U” hərfi forması rollu oyunlar zamanı, tanışlıq vaxtı, diskussiyaların gedişində daha səmərəlidir.

“Dairə” forması müxtəlif diskussiyaların, dairəvi masaların keçirilməsi üçün daha rahatdır (Şəkil 2.2).




**Şəkil 2.2. "U" hərfi formalı və "dairə" formalı sinif təşkili**

"Sağlam təhsil" siniflərində tədris hərəkətli təlim şəraitində həyata keçirilir. Şagird masaları həm oturaraq, həm də ayaq üstə çalışmaq imkanı verir. Bu sinif formasının təşkili Azərbaycanda "Sağlam təhsil-sağlam millət" layihəsinin tətbiq olunmasından sonra təmin edilmişdir və qeyd etmək lazımdır ki, bu cür sinif forması ibtidai sinif şagirdləri üçün çox əlverişlidir. Sadəcə şagird masaları deyil, sinifdəki bütün elementlərin və avadanlıqların təchizatı şagirdlərin sərbəst istifadə edəcəyi formada dizayn edilmişdir. Sağlam təhsil siniflərinin təşkilində əsas məqsəd təhlükəsizliyin təmin olunması ilə yanaşı, həm də şagirdlərin sağlamlıqlarının nəzərə alınmasıdır (Şəkil 2.3).



**Şəkil 2.3. Sağlam təhsil siniflərinin təşkili**

Sinfin təhlükəsiz təşkilinin təmin olunması həm şagirdlərə, həm də müəllimlərə imkan verir ki, tədrisi optimal şəkildə qursunlar. Şagirdlərin sərbəst hərəkət edə biləcəkləri məkanların olması və onların özlərini komfort zonada hiss etmələri üçün müəllim əlindən gələni etməlidir. Bu zaman sinfin təşkili və avadanlıqların düzülməsi birbaşa müəllimin səlahiyyəti altındadır. Müəllim sinfini dəyərləndirərək, şagirdlərinə lazım olan formanı özü seçməlidir. Çünki sinfin tərkibi, uşaqların sayı, fiziki imkanları – bütün bunlar hər bir sinif daxilində fərqlidir və hər bir ibtidai sinif müəllimi öz sinfinin xüsusiyyətlərinə uyğun təhlükəsizlik forması seçməlidir.

Sinif bir formada təşkil olunduqdan sonra müəllim istədiyi vaxt sinfə yenilik edə, sinfin ümumi formasını dəyişə bilər. Burada əsas məqsəd şagirdlər üçün optimal və təhlükəsiz

şəraitin yaradılması olduğundan, müəllimlər şagirdlər üçün əsas hərəkət sahələrini saxlamaqla sinfi yenidən təşkil edə bilərlər.

Təəssüflər olsun ki, son zamanlar sinif daxilində şagird sıxlığı çoxluq təşkil etdiyindən müəllimlər sinfi öz istədikləri şəkildə təhlükəsiz təşkil edə bilmirlər. Çünki, şagird sayı ümumi norma daxilində 25 olduğu halda, şəhər məktəblərinin əksəriyyətində bu rəqəm normadan xeyli çoxluq təşkil edir. 35-40 şagird yerləşdirilən siniflərdə təhlükəsizliyin təşkilini lazım olan qaydada təmin etmək müəllim üçün çətinlik törədir.

Bütün bunlara baxmayaraq, müəllim sinfi dəyərləndirməli və mövcud şərait daxilində ən təhlükəsiz sinif təşkili formasını istifadə etməlidir. Bu zaman, həmçinin əlilliyi olan uşaqlar da nəzərə alınmalı, onların sərbəst fəaliyyətinin təmin olunması üçün areallar yaradılmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Sinfin təşkili formalarını izah edin.
2. Hər bir sinif təşkili formasına aid esse yazın.
3. Simulyasiya yolu ilə təhlükəsiz sinif mühiti yaradın.
4. Təhlükəsizlik anlayışını izah edin.
5. Sinif avadanlıqlarının təhlükəsiz quraşdırılması nümunələrini layihə formasında təqdim edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Sinif avadanlıqlarının təhlükəsiz şəkildə təşkilini izah edir”.**

1. Təhlükəsiz təlim mühiti anlayışı haqqında esse yazın.
2. Sinif avadanlıqlarının təhlükəsiz təşkili qaydalarını izah edin və sxemləşdirin.
3. Pedaqoji müzakirə vasitəsilə sinif otağının təşkili qaydalarını aydınlaşdırın.
4. Təhlükəsiz bir sinif otağını modelləşdirin və təqdimat edin.
5. Müxtəlif variantlarda sinif otağını təşkil edin və hansı üsulun daha təhlükəsiz olduğunu slayd vasitəsilə təqdim edin.
6. Təhlükəsiz sinif otağı və avadanlıqlarının eskizini hazırlayın.
7. Təhlükəsiz sinif avadanlıqlarının maketini hazırlayın.

## 2.2. Uşaqların sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını şərh edir

### 2.2.1. Sinif avadanlıqlarının təhlükəsiz istifadə qaydaları

Müəllimlərin peşəkar bacarıqları, onların insani keyfiyyətləri hər zaman cəmiyyətin diqqət mərkəzində olmuşdur. Müasir dövrün müəllimdən tələbləri artıq ənənəvi yanaşma kontekstindən kənara çıxır. İndi müəllimlərdən yüksək əxlaqi keyfiyyətlərlə yanaşı, öz peşəsinin hərtərəfli incəliklərinə bələd olmaq da tələb edilir.

Müasir dərsliklərin əksəriyyətində təhlükəsizlik və gigiyena qaydaları ətraflı şəkildə şagirdlərə öyrədilir. Bu qaydaların əksəriyyəti odla, maye qazla davranış, yol keçmə qaydaları, kəsici alətlərdən uzaq durma və s. ilə bağlıdır.

Sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarına isə dərsliklərdə rast gəlinmir. Qeyd olunan problemin həllində əsas yük ibtidai sinif müəlliminin üzərinə düşür. Müəllimlər şagirdlərə sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını öyrətməli və özləri də onlara nümunə olmalıdırlar. İbtidai sinif müəllimliyi ixtisasına yiyələnən şəxs bilməlidir ki, kiçikyaşlı şagirdlərin təhlükəsizliyinin məsuliyyəti onların üzərindədir. Şagirdlərin bu yaş dövründə olan fəallığını nəzərə alaraq, müəllim şagirdlərin sinif avadanlıqlarından maksimum dərəcədə təhlükəsiz istifadə qaydalarını şərh etməyi bacarmalıdır.

Sinfin təhlükəsiz təşkil olunması nə qədər mühüm əhəmiyyət kəsb edirsə, şagirdlərin sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarının öyrədilməsi də bir o qədər vacib əhəmiyyətə malikdir. Şagirdlərin, xüsusilə ibtidai sinif şagirdlərinin sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarının öyrədilməsi çox mühümdür. İbtidai sinif müəllimi mütləq bunları nəzərə almalı və şagirdlərlə işini təhlükəsizlik rejimində qurmalıdır. Təhlükəsizlik deyəndə yalnız sinifdəki masaların və digər əşyaların, eləcə də tədris materiallarının düzülüşü ilə fəaliyyət yekunlaşmır. Burada şagirdlərin təhlükəsizliyinin tam təmin olunması üçün onların özlərinin bu əşyalardan təhlükəsiz istifadə qaydalarını öyrənmələri vacibdir.

Sinif səviyyəsində təhlükəsizliyin öyrənilməsi effektiv sinif rəhbərliyi ilə başlayır. Şagirdlərin emosional, zehni və fiziki təhlükəsizliyi üçün bir çox potensial təhlükə təşkil edən xüsusiyyətlər müəllimin düzgün rəhbərliyi və həyata keçirdiyi prosedurlarla azaldıla bilər. Bu, işə başlamazdan əvvəl müəllim şagirdlərə avadanlıqlarla davranış qaydalarını başa salmalı və həyati təhlükə yarada biləcək avadanlıqları şagirdlərin əllərinin çatmayacağı yerlərə yerləşdirməlidir. Şagirdləri təhlükəsizlik prosesinə cəlb etmək, həm də düzgün təhlükəsizlik prosedurları yaratmaq vacibdir və müəllim sinifdə olmadığı vaxtlarda belə bu təhlükəsizlik prosedurları davamlı olmalıdır.

Şagirdləri qorumaq üçün hər zaman onların yanında ola bilmərik, ancaq bir şagirdin sinif daxilində zədə və ya travma ilə üzləşə biləcəyi barədə xəbərdarlıq işarələrini onlara tanıtmaq, avadanlıqlarla istifadə qaydalarını öyrətmək olar. Təhlükəsizliyin təmin olunması müəllimdən başlayır və müəllim öz şagirdlərini fiziki, əqli və emosional cəhətdən qoruma imkanına sahibdir.

Müəllimlər təhlükəsizlik prosedurları və qaydalarını hazırlayırlar. Müəllimlər bunları şagirdlərlə birlikdə müzakirə edirlər. Müəllim təhlükəsizlik qaydalarını hazırlamalı və

şagirdlərin onları başa düşdüyünə və riayət etdiyinə əmin olmalıdır. Bunun üçün sadəcə sinif daxilindəki avadanlıqlardan deyil, həm də digər sinif otaqları və məktəbdə mövcud olan kitabxana, bufet, santexnika qovşaqlarından təhlükəsiz istifadə qaydalarını, eləcə də hər hansı bir fövqəladə hal baş verdikdə evakuasiya planları kimi məktəb tərəfindən qurulmuş fövqəladə prosedurlardan istifadə qaydalarını şagirdlərə başa salmaq və fövqəladə vəziyyətdə nə edəcəklərini onlara izah etmək lazımdır.

Mütəmadi olaraq materialları, avadanlıqları və obyektləri yoxlamaq və qüsurlu və təhlükəli olan avadanlığın istifadəsini dayandırmaq lazımdır.

Potensial təhlükələri və təhlükəsizlik prosedurlarını vurğulamaq üçün plakatlar və bülleten lövhələrindən istifadə etmək, şagirdləri bu sahədə maarifləndirmək də müəllimlər üçün xüsusi əhəmiyyət kəsb edir.

Müəllimlər sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını şagirdlərə başa salmaq üçün özləri təhlükəsiz davranış nümayiş etdirməli və şagirdlərə nümunə olmalıdırlar. Bununla yanaşı, avadanlıqlardan istifadə edən zaman uşaqlara nəzarət olunmalı, onlar müəllim nəzarətindən xaric təhlükəli avadanlıqlara toxunmamalıdırlar. Baş verəcək fövqəladə hallar üçün şagirdlərə mühüm təcili yardım nömrələrini də öyrətmək vacibdir. Bunu həm müxtəlif oyunlarla, həm də bir sıra dərslərin daxilində şagirdlərə öyrətmək olar (Şəkil 2.4).



**Şəkil 2.4. Təhlükəsiz sinif otağı**

İbtidai sinif şagirdləri təhsil mühiti ilə yenicə tanış olduqları üçün onlara hər bir avadanlıqla istifadə qaydalarını şərh etmək, hansı avadanlığın hansı təhlükəni törədə biləcəyini onlara başa salmaq lazımdır.

Sinif avadanlıqlarının şagirdlərin sağlamlığına təhlükə törətməməsi üçün müəllim əmin olmalıdır ki:

1. Şagirdlər təhlükəsizlik qaydalarını bilirlər;
2. Sinifdə yanğın törədə biləcək heç bir əşya və proses yoxdur;
3. Kimyəvi tərkibli ətirləndiricilər və digər kimyəvi maddələr yoxdur;
4. Qapı şüşələri görmə maneələrindən azad olmalıdır;
5. Sinif qapılarından şagirdlərin sağlamlığına zərər verə biləcək məsafədə yanan bəzək əşyaları yerləşdirilməməlidir;
6. Otaqdan çıxan bütün çıxışlar maneəsiz və geniş olmalıdır;
7. Tavandan və ya tavan çilçıraqlarından heç bir şey asılmamalı, işıq qurğularına rəngli kağız və ya başqa bir şey yapışdırılmamalıdır;
8. Tezalışan əşyalar sinif daxilində saxlanılmamalı və bəzək kimi istifadə edilməməlidir.
9. İstifadəsi zamanı öz-özünə yana biləcək materiallar (yağlanmış parça,yüksək

intensivli işıq qurğuları, yanan mayelər və yanan metallar) sinif mühitindən kənarda saxlanılmalıdır;

10. Hər bir müəllim ən yaxın yanğınsöndürənin yerini və söndürmə qurğusundan necə istifadə etməyi öyrənməyə cavabdehdir;
11. Elektrik avadanlıqları istifadə edilmədikdə söndürülməlidir;
12. Uzatma şnurlarından yalnız müvəqqəti tətbiq üçün istifadə olunmalıdır;
13. Şəxsi qızdırıcılardan istifadə edilməməlidir.

Sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydaları ilə şagirdləri tanış edərkən onların kimyəvi maddələrlə də tanışlığı təmin olunmalı və kimyəvi maddələr şagirdlərin əlləri çata biləcək yerlərdən uzaq yerləşdirilməlidir.

Şagirdlərə avadanlıqlarla istifadəni öyrədən zaman müəllim birbaşa onlar üçün nümunə olmalı və hər bir avadanlıqdan istifadəni birbaşa əyani şəkildə özü uşaqlara öyrətməlidir.

Sinif avadanlıqlarının istifadəsi ilə yanaşı, müəllim ibtidai sinif şagirdlərinə məktəb dəhlizlərində, bufetdə, santexnik qovşaqlarda yerləşən avadanlıqlardan istifadəni də öyrətməlidir. Bu avadanlıqların təhlükəsiz istifadəsi şagirdlərin sağlamlığının təmin olunması deməkdir.

Santexnik qovşaqlardan istifadə bu baxımdan daha xarakterikdir. Çünki şagirdlərin böyük qismi santexnik qovşaqlarda təhlükələrlə üzləşə bilərlər. Əllərinin təmizliyi, əşyalardan istifadə qaydaları aydın şəkildə şagirdlərə çatdırılmalıdır.



**Şəkil 2.5. İbtidai sinif şagirdləri üçün əlverişli sinif otağı**

Sinif daxilində yerləşən avadanlıqların iti kənarlara malik olmaması, şagirdlər üçün sərbəst hərəkət sahələrinin təşkil edilməsi, oturacaqlardan, şkaflardan, öz çantalarından, yemək qablarından, tədris ləvazimatlarından necə təhlükəsiz istifadə olunması müəllim və valideyn tərəfindən şagirdlərə başa salınmalıdır. Şagirdlərin tədris materialları ilə zədələnmələri bu baxımdan bir qədər üstünlük təşkil edə bilər. İti kənarlı stol və stullarla yanaşı, şagirdlərin istifadə etdikləri qələm, xətkeş, yapışqan, qayçı kimi tədris vəsaitləri onların həyatı və sağlamlığı üçün təhlükə törədə bilər (Şəkil 2.5).
Buna görə də öz tədris vəsaitlərindən istifadə edərkən şagirdlərə son dərəcə ehtiyatlı olmaq və düzgün davranmaq qaydaları öyrədilməlidir. Onlar yanlarında oturan sinif yoldaşlarını nəzərə almalı, tədris vəsaitlərindən və sinif avadanlıqlarından istifadə edən zaman özləri ilə yanaşı, yoldaşlarının sağlamlığının və təhlükəsizliyinin qeydinə də qalmalıdırlar.

## Tələbələr üçün fəaliyyətlər

1. Yanğınsöndürmə qaydalarını şəkilli formada izah edin, təqdimat hazırlayın.
2. Sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını izah edin.
3. Şagirdlərin avadanlıqlardan təhlükəsiz istifadə qaydalarını təhlil edin, başqa nələri əlavə etmək olar? İzah edin.
4. Kimyəvi və tezalışan maddələrin istifadə qaydasına dair təqdimat hazırlayın.
5. Sinif avadanlıqlarının təhlükəsizliyini necə təmin etmək olar? Təkliflər paketi hazırlayın.



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşaqların sinif avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını şərh edir”.**

1. Simulyasiya yolu ilə sinif otağı mühiti yaradın və avadanlıqlardan təhlükəsiz “istifadə edin”.
2. Kimyəvi maddələrdən və tezalışan maddələrdən istifadə qaydasına dair təlimat hazırlayın.
3. Şagirdlər üçün avadanlıqlardan təhlükəsiz istifadə qaydaları tərtib edin və təqdimat edin.

## 2.3. Sinif otağının təmizliyinə riayət olunması qaydalarını hazırlayır

### 2.3.1. Təmizlik qaydaları

Təmizlik və ona əməl olunması şagirdlərin sağlamlığı baxımından çox mühüm əhəmiyyətə malikdir. Təmizliyə riayət olunması və müəllimlər tərəfindən buna nəzarət edilməsi hazırda peşə bazarının tələblərindən biridir. Şagirdlərin ekoloji cəhətdən sağlam mühitlə təmin olunması, onların tullantı və zərərli maddələrdən uzaq saxlanması vacib şərtdir.

Uşaq orqanizmi olduqca həssasdır və ətraf aləmin mənfi təsirlərinə açıqdır. Bununla yanaşı, onların zərif dəri quruluşu mikroblarla təmas halına keçdikcə sağlamlıq üçün təhlükəli ola bilər. Əvvəlki bölmələrdə qeyd olunan təhlükəsizlik qaydalarına əməl olunması nə qədər vacibdirsə, eyni zamanda sinif otağının təmiz saxlanması da bir o qədər vacibdir.

Sinif otağının təmizliyinə riayət olunması qaydaları ibtidai sinif müəllimi tərəfindən öyrənilməli və sonradan əmək fəaliyyəti zamanı müəllim öz sinfinin təmizliyini şagirdləri ilə birgə təmin etməlidir.

### 2.3.2. Sinif otağının təmizliyi

Şagirdlər məktəbdə təhsil almaqla yanaşı, tərbiyənin müxtəlif tərəflərinə də yiyələnirlər. Bu tərbiyənin çoxaspektli tərəflərinin reallaşdırılması ilə yanaşı, həm də şagirdin həyata hazırlanmasını təşkil edir. Şagirdlərin təhlükəsiz təlim mühitində təhsil almasını təmin etməklə onların gələcək həyatlarının sığortalanmasını təmin etmiş oluruq.

İbtidai sinif müəllimlərinin vacib vəzifələrindən biri sinif otağının təmizliyinə riayət edilməsi və şagirdlərin bu qaydalara yiyələnməsini təmin etməkdir. Təmiz olmayan sinif otağında tədrisin keyfiyyəti optimal səviyyəyə gəlib çata bilmir. Bu təmizliyin gözlənilməsi həm müəllimdən, həm də şagirdlərdən asılıdır. Sinifdə mövcud olan səliqənin qorunub saxlanmasını ancaq xidmətçilərin vəzifəsi kimi qəbul etmək olmaz. Şagirdlər özləri təmizliyin və sinif otağında səliqə yaratmağın yollarını mənimsəməlidirlər.

Şagirdlər tədris prosesində diqqətlərini cəmləməkdə çətinlik çəkirlər. Bu çətinliyə, eyni zamanda, tədris otağının quruluşu, forması, material təchizatı, təmizliyi də təsir göstərir. Çirkli və xaosun hökm sürdüyü bir sinifdə tədrisin keyfiyyətli nəticələrindən danışmaq mümkün deyil.

Müəllim sinif otağının təmizliyini tənzimləmək istəyirsə, o mütləq, ilk növbədə, özü həmin təmizliyə riayət etməlidir. İbtidai siniflərdə şagirdlər müəllimin müsbət nümunəsindən daim istifadə edirlər. Onlar müəllimin hər davranışını mənimsəyir və onu öz fəaliyyətlərində əks etdirirlər.

Sinif otağını gün ərzində təmiz saxlamaq heç də asan deyil. Şagirdlərin gün ərzində bir çox materiallara ehtiyacı olur. Hər bir dərs ərzində şagirdlər adi yapışqan kağızlardan tutmuş, müxtəlif rəngli markerlərə qədər müxtəlif tədris materiallarından istifadə edirlər. Bu istifadə prosesində sinifdə müxtəlif zibillər, tullantı maddələr əmələ gəlir ki, onlar da sinifdə xoşagəlməz çirkli görüntü yarada bilərlər. Müəllim bu prosesi izləməli və şagirdlərə sinfin təmizlənməsi qaydaları ilə əlaqədar təlimatlar verməlidir.

Uşaqların ehtiyac duyduğu şeyləri tapıb ondan düzgün istifadə etmələri üçün sinif təmiz və mütəşəkkil qalmalıdır. Ardıcıllıq və müntəzəmlik hər bir uşağın inkişafında mühüm vasitədir. Müəyyən bir əşyanı harada tapacağını dəqiq bilmək və onu düzgün bir şəkildə geri qaytarmağı bacarmaq lazımdır. Bu həm müstəqillik və öyrənmə imkanını artırır, həm də sinfin mütəşəkkil və təmiz qalmasını təmin edir (Şəkil 2.6).



**Şəkil 2.6. Təmiz sinif otağı**

Sinfi təmiz saxlamaq üçün müəllim uşaqların gündəlik fəaliyyətlərinə tədricən təmizliyi və nizam-intizamı ötürməlidir. Şagirdlər öz çirkləndirdikləri yeri özləri təmizləməklə məsuliyyətə yiyələnir, özünə və əşyalarına xidmət qaydalarını öyrənirlər. Bu təmizlik prosesi şagirdlərin dərs saatı müddətində aparılmamalıdır. Lakin şagirdlər əllərindən çıxan zibili həmin anda zibil qablarına atmalıdırlar ki, sinifdə xaotik görüntü yaratmasın. Tənəffüs dəqiqələrində isə sinfin təmizliyi və səliqəyə salınması ilə məşğul olmaq olar.

Sinfin təmizliyinin qorunması və gündəlik təmizlik işlərinin aparılması şagirdlərdə müsbət vərdişlər yaradır. Bu vərdişlər gün keçdikcə şagirdlərin əqidəsinə çevrilərək, onların məsuliyyətli və təmizkar insan kimi formalaşmasına imkan yaradır. Sinif otağında daim təmizliyi gözləyən şagird onu öz yaşadığı evdə də tətbiq edir.

Təmiz bir sinif otağına təsir edən ən vacib şeylərdən biri şagirdlərin sağlamlığı və təhlükəsizliyidir. Mikroblar və bakteriyalar həyatın bir hissəsidir. Mikroblar 3 əsas yolla – birbaşa, dolayı əlaqə və ya hava yolu ilə ötürülür. Bu mikroblardan qorunmaq üçün müəllim sinifdə şagirdlərin təmizlik qaydalarına riayət etmələrinə və sanitar-gigiyenik qaydalara əməl etməsinə nail olmalıdır. Əllərin yuyulması, bir otaq içərisində asqırmaq və öskürək zamanı şagirdlərin ağızlarını örtməsi, dezinfeksiyaedici vasitələrlə əllərin silinməsi bura daxildir. Bu təmizlik qaydası olmadan sinif bakteriyaların və virusoloji xəstəliklərin yayıldığı məkana çevrilir (Şəkil 2.7).



**Şəkil 2.7. Təmizlik sağlamlıqdır**

Sinif şəraitinin təmiz və mikrobsuz olması uşaqların sağlam olmalarına və məktəbdə dərsə davamiyyətlərinin qaydasında olmasına kömək edəcəkdir.

Sinifdə təmizlik qaydalarının yaradılmasına dair bir neçə nümunə göstərə bilərik:

Yazı lövhələrinin təmiz saxlanması – bildiyimiz kimi lövhələrdə markerlərlə işləyən zaman xüsusi xoşagəlməz və qarışıq izlər qala bilər. Marker uzun müddət təmizlənmədikdə və ya keyfiyyətsiz olduqda sinifdə lövhədə çirkli görünüş yarana bilər. Müəllim xüsusi təmizləyici vasitələrlə (durulaşdırılmış spirt) lövhələrin təmizlənməsini təmin edə bilər. Həftədə bir dəfə lövhəni təmizləmək şagirdlərin tədrisdə daha yaxşı nəticə əldə etməsinə səbəb olur (Şəkil 2.8). Burada adi bir lövhənin təmizlənməsini təmizlik işçisindən gözləmək yerinə uşaqlarda bu təmizliyi adət halına gətirmək lazımdır.



**Şəkil 2.8. Lövhənin təmizlənməsi**

- Zibil qablarına nəzarət olunması – sinifdə təmizliyin qaydada saxlanmasına səbəb olan təmizlik ünsürlərindən biri də zibil qablarıdır. Dolub daşan zibil qabları sinfin ümumi görüntüsünü pozmaqla yanaşı, mikrobların yaranmasını və xəstəliklərin yayılmasını da genişləndirir. Uşaqlar zibillərini zibil qablarına intizamsız şəkildə atmamalı, zibilin daşaraq yerə tökülməsinin qarşısını almalıdırlar. Bunun üçün plastik torbalardan istifadə etmək məsləhətlidir. Müəllim bu məsələdə uşaqlara güzəştə getməməli, onların zibillərini zibil qablarına atmalarına nəzarət etməlidir.
- Sinifdə mövcud olan təmizlik qaydalarından biri də əllərin gigiyenasına nəzarət edilməsidir. Şagirdlər müəllimin rəhbərliyi ilə əllərini yumalı, xüsusilə, yemək öncəsi əllərin gigiyenasına nəzarət etməlidirlər. Müxtəlif rəngli yapışqanlardan, boyalardan istifadə zamanı əllərin sürətlə çirklənməsi prosesi baş verir. Şagirdlər əlləri çirkli halda digər əşyalara toxunurlar və onların əllərində olan mikroblar digərlərinə də yayılır. Buna görə də müəllim uşaqların əllərinin gigiyenasına nəzarət etməlidirlər (Şəkil 2.9).



**Şəkil 2.9. Əllərin gigiyena qaydası**

Sinifdə təmizlik qaydalarından biri də paylama materiallarının tənzimlənməsidir. Şagirdlərə qruplarla işləyən zaman paylama materialları verilir. Bu materiallar dərsdə istifadə olunduqdan sonra yerə düşür, cırılır və sinfin çirklənməsinə səbəb olur. Hər qrup fəaliyyətindən sonra materiallar səliqəli şəkildə bir kənardan yığılmalı və ya səliqəli şəkildə

zibil qablarına atılmalıdır.

Sinifdə təmizlik qaydalarını yaradan zaman müəllim çirkli sahələrin yığışdırılması ilə yanaşı, sinfin ümumi təmizliyinin qorunması ilə də məşğul olmalıdır. Bunun üçün şagirdlərdən iki nəfər olmaqla növbətçi cütlüklərin təşkili və sinfin ümumi təmizliyinə riayət olunması mühüm qaydalardan biridir. Bu növbətçilər müəllimin köməkçiləri kimi sinfin ümumi təmizliyini qoruyur, şagird yoldaşlarına nəzarət edirlər (Şəkil 2.10).



**Şəkil 2.10. Növbətçi cütlüklərin təşkili**

Sinifdə təmizlik qaydalarına riayət olunması müəllimin mühüm vəzifələrindən biridir. Şagirdləri bu prosesə cəlb etmək və ümumi təmizliyi tənzimləmək həm estetik cəhətdən şagirdlərin tərbiyə olunmasına, həm də onların məsuliyyətli şəxsiyyətlər kimi formalaşmasına gətirib çıxarır.

## Tələbələr üçün fəaliyyətlər

1. Sinfin təmizliyinə riayət olunması qaydalarını işləyib hazırlayın.
2. Təmizlik qaydaları haqqında esse yazın.
3. Sinfin təmizliyinin qorunması haqqında təqdimat hazırlayın.
4. Qruplar halında təmizlik briqadaları təşkil edərək simulyativ oyunlar hazırlayın.
5. Təmizlik qaydalarını özündə əks etdirən maarifləndirici buklet hazırlayın.



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Sinif otağının təmizliyinə riayət olunması qaydalarını hazırlayır".**

1. "Təmiz sinif otağı" mövzusunda esse yazın.
2. Sinif otağının təmizlənməsi qaydalarını tərtib edin.
3. Pedaqoji müzakirə vasitəsilə şagirdlərə təmizlik qaydalarının öyrədilməsinin vacibliyini izah edin.
4. Simulyasiya yolu ilə təmizlik briqadaları təşkil edin və təmizliyin mahiyyətini əyani izah edin.

## 2.4. Uşaqların özünəxidmət bacarıqlarını formalaşdırmaq və onların sərbəstliyini dəstəkləmək üçün müvafiq metodlar (öyrədici məşğələ, oyunlar və s.) tətbiq edir

### 2.4.1. Özünəxidmət bacarıqlarını formalaşdırmaq üçün müvafiq metodlar

Şagirdlərin özünəxidmət bacarıqlarının formalaşdırılması çox vacib keyfiyyətdir. Bu sahədə şagirdlər bilikləri ardıcıl olaraq ailədən, məktəbəqədər təhsil müəssisəsində tərbiyəçi-müəllimlərdən və daha sonra ümumtəhsil məktəblərində müəllimlərdən alırlar.

Müasir təhsil isə tələb edir ki, müəllimlər şagirdlərdə bütün həyati bacarıqlarla yanaşı, özünəxidmət bacarığını da formalaşdırmalıdırlar. Əks halda şagirdlər ən vacib keyfiyyət olan məsuliyyət hissini mənimsəyə bilməzlər. Şagirdlərdə özünəxidmət əməyinin formalaşdırılmasında vacib amillərdən biri ona sərbəstliyin verilməsidir.

Ailələrdə uşaqların özünəxidmət əməyi zəif formalaşır. Çünki daim ailə fərdlərinin himayəsində olan uşaq bəzən ən sadə özünəxidmət əməyini belə mənimsəyə bilmir. Bu isə sonradan şagirdlərin tənbəl və məsuliyyətsiz olmasına gətirib çıxarır.

İbtidai sinif müəllimləri bu sahədə ən çox məsuliyyət daşıyan şəxslərdir və onlar müxtəlif yollarla şagirdlərində özünəxidmət bacarıqlarını formalaşdırırlar. Bunun üçün müxtəlif maraqlı oyunlar, tədris məşğələləri, yaradıcı tapşırıqlar istifadə edən ibtidai sinif müəllimləri bu bacarıqları ixtisasa yiyələnən zaman öyrənir və sonra ondan müvəffəqiyyətlə istifadə edirlər.

### 2.4.2. Şagirdlərin özünəxidmət bacarıqlarının formalaşdırılması

İbtidai sinif şagirdlərinin mühüm bacarıqlarından biri də özünəxidmət bacarıqlarının formalaşmasıdır. Şagirdlər məktəbə gələnə qədər onlarda müəyyən özünəxidmət qaydaları formalaşmış olur. Onlar sinif daxilində özlərinə nəzarət edir, kitab-dəftərlərini səliqəyə sala bilirlər. Birinci sinifdə onların özünəxidmət əməklərində müəyyən boşluqlar olsa da, sonradan müəllimin dəstəkləyici köməyi ilə uşaqlarda özünəxidmət əməyi düzgün şəkildə formalaşır.

Uşaqların özünəxidmət əməyinin formalaşdırılması üçün onlarla sistemli iş aparılmalı, müxtəlif metodlardan istifadə edilməlidir. Şagirdlər özünəxidmət qaydalarına nə qədər dərindən yiyələnsələr, onların müstəqilliyi bir o qədər artar.

Dişləri fırçalamaq, saçı daramaq, paltar geyinmək və s. kimi özünə qulluq və gündəlik həyat bacarıqlarına diqqət etmək üç məqsədə xidmət edir: bu işləri görmək qabiliyyəti artır, ümumi əzələ tonusunun fəaliyyətini və uşaqların hərəkətliliyini təmin edir. Mümkün qədər çox özünə qulluq tapşırıqlarını yerinə yetirmək həm də müstəqillik və uşağın özünə hörmətini inkişaf etdirməyə kömək edir. Şagirdin özünü başqalarından asılı hiss etməsi onda fəaliyyət aktivliyini aşağı salır və uşaq müstəqilləşə bilmir. Həyatda qarşıya qoyulan məqsədlərdən və onları həyata keçirməkdən hiss edilən məmnuniyyət şagirddə ruh yüksəkliyi yaradır.

İbtidai siniflərdə şagirdlərin özünəxidmət əməyi özünü daha çox uşaqların dərs materiallarına, kitab-dəftərlərinə, çantalarına olan münasibətlərində göstərir. Dərs materiallarının səliqəli saxlanması, uşaqların məsuliyyətini artırmaqla yanaşı, onlarda

əşyalarına qarşı diqqətli olmağı aşılayır. Şagird dərs ləvazimatlarını nə qədər təmiz saxlayarsa, onun sonrakı fəaliyyəti daha da müsbət nəticə verər. Təmizlik, diqqət, əşyaya qayğı şagirdləri məsuliyyətli olmağa öyrədir.

Şagirdlərin geyimləri də bu baxımdan xarakterikdir. İbtidai sinif şagirdləri hələ öz geyimlərinə lazımınca qayğı göstərə bilmirlər. Onların geyimində daimi müxtəlif ləkələr (qida qalıqları, qələm izi, uşağın çirkli əllərinin izi) gözə çarpır. Şagirdlərin bu yaşda geyimlərinə nəzarət etmək bacarığı hələ formalaşmamış olur. Onlar dərs şəraitində müxtəlif fəaliyyətlərlə məşğul olduqlarına görə üst geyimlərinin çirklənməsi normal haldır.

İbtidai sinif müəlliminin mühüm vəzifələrindən biri şagirdlərin gigiyenasına nəzarət etmək və onlarda özünəxidmət əməyinin formalaşmasına nail olmaqdır. Bunun üçün müəllim özü əsas örnək olmaqla şagirdlərdə özünəxidmət əməyini formalaşdırır.

Müəllim şagirdlərdə özünəxidməti formalaşdırmaq üçün müxtəlif oyunlar və metodlar tətbiq edə bilər.

Müəllimlərin bu sahədə fəaliyyətlərini genişləndirmələri özünü daha çox texnologiya və həyat bilgisi kimi sosial mahiyyətli dərslərdə göstərir. Şagirdlər bu dərslər vasitəsilə özünəxidmət əməyinə yiyələnirlər.

Texnologiya fənni daxilində mövcud olan standartlar müəllimlərə imkan verir ki, onlar şagirdlərdə müxtəlif əmək növləri, o cümlədən özünəxidmət əməyi formalaşdırsınlar. Bu baxımdan texnologiya fənninin standartlarında yer alan bitkilərə qulluq qaydaları, süfrə açmaq, büdcə idarə etmək, müxtəlif yeməklər hazırlamaq, üst geyimlərinin təmizliyinə nəzarət etmək, əllərin və əşyaların gigiyenasını izləmək kimi mühüm bacarıqlar müəllim tərəfindən şagirdlərdə formalaşdırılır.

Üst geyimlərinin təmizliyi ilə əlaqədar müəllim şagirdlərdə özünəxidmət əməyini formalaşdırmaq üçün onlarda üst geyimlərinin qorunmasını təmin edən önlüklərin hazırlanmasını təşkil edə bilər. Texnologiya fənninin daxilində uşaqların parça ilə işini təşkil edən zaman uşaqlara özləri üçün önlüklərin hazırlanmasını tapşırmaq olar. İkitərəfli önlüklərin hazırlanması və vahid forma kimi geyimin üzərindən istifadə edilməsi uşaqların üst geyimlərinin təmiz qalmasına səbəb olur (Şəkil 2.11).



**Şəkil 2.11. Üst geyimini qorumaq üçün hazırlanan önlük forması**

Şagirdlərin özünəxidmət əməyinin formalaşmasında onların ayaqqabılarını təmiz saxlamaları da müəllim tərəfindən tənzim oluna bilər. Bildiyimiz kimi, yağışlı, qarlı hava şəraitində uşaqlar ayaqqabılarını çirkləndirir və o vəziyyətdə sinif otağına daxil olurlar. Bunun üçün müəllim maraqlı oyun nümunəsi təşkil

edərək şagidlərin ayaqqabılarını təmizləmələrinə nail ola bilər. Müəllim sinif otağının qarşısına asılmış bəzəkli lövhədə "Təmiz əllər, təmiz ayaqlar" devizi altında oyun keçirərək şagirdləri sinfə girmədən öncə santexnik qovşaqda ayaqqabılarının və əllərinin təmizlənməsinə nail ola bilər. "Parıldayan ayaqqabılar" oyununu təşkil edən müəllim uşaqlar arasında yarış keçirərək, kimin ayaqqabısının daha təmiz olmasını və oyunu qazanmasını elan edir (Şəkil 2.12).

Uşaqların, həmçinin, öz ayaqqabılarının bağını bağlaması da onlarda özünəxidmət əməyini formalaşdırır.

Şagirdlərin özünəxidmət əməyinin formalaşmasında müxtəlif yeməklərin hazırlanmasının öyrədilməsi də müəllim tərəfindən istifadə edilən metodlardan biridir. Bu metod vasitəsilə müəllim həm sinifdə, həm də sinifdənxaric məkanda şagirdlərin bu bacarığının formalaşmasını təmin edə bilər. Müxtəlif restoranlara, zavodlara ekskursiyalar təşkil etməklə şagidlərdə yemək hazırlamaq, məişət işləri görmək bacarıqları üzrə qabiliyyətlər formalaşır (Şəkil 2.13).

Müəllim uşaqların özünəxidmət əməyinin formalaşdırılması üçün "Təmiz əllər, sağlam həyat" adlı gündəlik oyun təşkil edərək hər gün uşaqlar sinfə girməzdən və sinfi tərk etməzdən öncə onları sıra ilə düzərək əllərinin sabunlanaraq yuyulmasını və mikroblardan qorunmasını təmin edə bilər (Şəkil 2.14).



**Şəkil 2.12. Təmiz ayaqqabılar**



**Şəkil 2.13. Şagirdlər xəmir açmağı öyrənir**



**Şəkil 2.14. "Təmiz əllər, sağlam həyat"**

Özünə qulluq bacarıqları, uşaqların tapşırıq icrasını planlaşdırma və ardıcıllıqla həyata keçirmək, lazımi materialları təşkil etmək və gündəlik tapşırıqları yerinə yetirmək üçün tələb olunan zərif fiziki nəzarəti inkişaf etdirməyin yollarından biridir. Özünə qulluq bacarıqları bir çox məktəblə əlaqəli vəzifələrin, habelə həyat bacarıqlarının aparıcısı rolunu oynayır. "Özünəxidmət" termini bu bacarıqların müstəqil şəkildə aparılacağını və bir çox hallarda başqalarının bu cür işlərə kömək etməsinin qarşısını almağa yararlıdır.

Əgər şagirdlərdə özünəxidmət əməyi formalaşmazsa, onlar:

- Müstəqil olaraq qidalana bilməyəcəklər;
- Geyinmək və soyunmaq üçün böyüklərə möhtac olacaqlar;
- Mətbəx bıçağı kimi kəsici alətlərdən istifadə edən zaman özlərinə xəsarət yetirə bilərlər;
- Dişlərini fırçalamaq onlar üçün əziyyətə çevriləcək;
- Santexnik qovşaqlardan sərbəst istifadə edə bilməyəcəklər;
- Ən sadə özünəxidmət əməyini yerinə yetirə bilməyəcəklər.

Şagirdlərin özünəxidmət bacarıqlarının formalaşdırılması üçün istər oyun, istər öyrədici məşğələlərdən istifadə zamanı özünəxidmət əməyini gündəlik rejimə çevirmək lazımdır. Əks halda bir gün edilib, başqa gün unudulan fəaliyyətlər şagirddə vərdiş halını ala bilməyəcək.

İbtidai sinif müəllimləri şagirdlərdə özünəxidmət bacarığını formalaşdırmaq üçün sinifdə bütün fəaliyyətlərə onları cəlb etməli və istər oyun, istərsə də dərs məşğələləri ilə şagirdlərdə həyati bacarıqları formalaşdırmalıdırlar.

## Tələbələr üçün fəaliyyətlər

1. Şagirdlərin özünəxidmət qaydalarını izah edin.
2. Sinifdə icra edilə biləcək özünəxidmət qaydaları haqqında təqdimat hazırlayın.
3. Simulyasiya yolu ilə təmizlik qaydalarını nümayiş etdirin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşaqların özünəxidmət bacarıqlarını formalaşdırmaq və onların sərbəstliyini dəstəkləmək üçün müvafiq metodlar (öyrədici məşğələ, oyunlar və s.) tətbiq edir”.**

1. Özünəxidmət bacarıqları haqqında esse yazın.
2. Özünəxidmət metodları (oyunlar və s.) tərtib edin. Oyun qaydalarına dair meyarları hazırlayın.
3. Özünəxidmət bacarıqlarını formalaşdırmaq üçün bir tədris məşğələsi tərtib edin.
4. Cütlüklərlə özünəxidmət bacarıqlarının formalaşmasını təşviq edən sosial layihə hazırlayın.

# ƏDƏBİYYAT SİYAHISI


1. Abdullayev A. Təhsilin əsasları: Təhsi fəlsəfəsi və təlim prosesi. Azərbaycan müəllimi.- 2010.- 28 may.- S.20.
2. Balayeva G. İbtidai təhsilin məzmununun nəzəri-pedaqoji problemləri. Bakı: “Elm və təhsil”, 2012, 152 s.
3. Cəbrayılov İ. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013, 296 s.
4. Cəbrayılov İ. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı: Mütərcim, 2011, 220 s.
5. Əhmədov H., Zeynalova N. Pedaqogika: Dərslik. Bakı: “Elm və Təhsil”, 2016, 456 s.
6. Hüseynova N. İnklüziv təhsil. Dərs vəsaiti. Bakı-2014
7. İnkişafetdirici təlim mühitinin mahiyyəti və prinsipləri. http://mektebeqeder.blogspot.com/2014/02/inkisafetdirici-tlim-muhitinin-mahiyyti.html
8. İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı. TİPİİ, Bakı, 2018
9. İnklüziv təhsil. Metodik vəsait, Bakı, 2011
10. İstedadlı uşaqların valideynlərinə tövsiyələr. http://www.tipii.edu.az/az/article/262-istedadli-usaqlarin-valideynlarina-tovsiyalar
11. Qaydalı oyun nümunələri. http://www.tipii.edu.az/az/article/431-qaydali-oyun-numunalari
12. Maria R., Emina H. Inclusive Education as a Framework for Changes in Teachers’ Work. Teaching Innovations, 2018, Volume 31, Issue 3, pp. 20-36
13. Maslow A. A theory of human motivation. Psychological Review, Vol 50(4), Jul 1943, p. 370-396.
14. Məmmədov T. Müasir informasiya texnologiyaları və vasitələri təhsildə innovasiyalar. Azərbaycan məktəbi jurnalı, 2014, № 3, s.31-38
15. Nuriyeva M. Müasir pedaqoji prosesin bəzi aspektləri. Azərbaycan məktəbi jurnalı, 2016, №5, səh. 71-75
16. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Yeni kurs. Bakı: “Elm və təhsil”, 2012, 464 s.
17. Şagirdə müəllim tərəfindən edilən psixoloji zorakılıq. http://www.tipii.edu.az/az/article/442-sagirda-muallim-tarafindan-edilan-psixoloji-zorakiliq
18. Tağıyeva Q. İbtidai siniflərdə inkişafetdirici təlimin təşkili. https://mektebgushesi.az/2017/01/23/ibtidai-sinifl%C9%99rd%C9%99-inkisafetdirici-t%C9%99limin-t%C9%99skili/
19. Təlim mühiti/öyrədici mühit. http://www.tipii.edu.az/az/article/313-talim-muhiti-oyradici-muhit